# ƏZİZ QADINLAR, BAYRAMINIZ MÜBARƏK!


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN






№ 52 (9219) 8 MART 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## Prezident İlham Əliyev qadın siyasətinin mükəmməl nümunəsini yaradıb

### Prezident İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə bağlı paylaşım edib




### Bu siyasətin müəllifi isə Ümummilli Lider Heydər Əliyevdir

Zəriflik və gözəllik rəmzi sayılırlar. Ancaq onlar həm də sarsılmaz iradə, mətanət, əzmkarlıq nümunəsidirlər. İstedad, zəka və zəhmətin birlikdə necə xariqələr yaratdığını fəaliyyətlərində təcəssüm etdirirlər.

Müasir olduqları qədər də keçmişə bağlıdırlar. Ona görə də milli-mənəvi dəyərlərin qorunub saxlanmasında, yaşadılmasında və inkişaf etdirilməsində müstəsna xidmətlər göstərirlər.

Sanki səliqə-sahmanları, mehribanlıqları, səmimiyyətləri, nəvazişləri ilə həyatın özünə sığal çəkir, nizam-intizam yaradır, ilin bütün günlərini mənalandıra bilirlər. Amma ilin tək bir günü - martın 8-i onların bayramıdır. Bu gün bəşəriyyət tarixində ən əlamətdar günlərdən biridir. 8 Mart Beynəlxalq Qadınlar Günü bayram kimi ilk dəfə Romada keçirilib. Artıq uzun illərdir ki, hər il dünyanın müxtəlif ölkələrində olduğu kimi, Azərbaycanda da təntənəli şəkildə qeyd edilir.

#### Taleyüklü, həlledici anlarında vəzifələrinin öhdəsindən layiqincə gələn Azərbaycan qadınları

Bu bayram əvvəllər yalnız qadınlar günü kimi tanınırdı. Birləşmiş Millətlər Təşkilatı tərəfindən 1975-ci ildən Beynəlxalq Qadınlar Günü olaraq qeyd olunur.

Ölkəmizdə qadına böyük ehtiram, hörmət bütün dövrlərdə olub. Tariximizin neçə-neçə parlaq, şanlı səhifəsi onun adı ilə bağlıdır. Azərbaycan qadını bütün dövrlərdə öz üzərinə böyük məsuliyyət götürüb. Uşaqlarına yaxşı ana olmazdan öncə o, özü valideynlərinə xeyirli övlad olmağı bacarıb.

→ 6



## Dünyanı mehribanlıq xilas edəcək

Böyük və mərhəmətli qəlb sahibi Mehriban xanım hazırda dünyamızda baş verən çox sayda münaqişə, müharibə, pandemiya, dəhşətli təbii fəlakətlər fonunda sülh və əmin-amanlığın, xeyriyyəçiliyin təmini üçün çoxşaxəli və yorulmaz fəaliyyət göstərir. İnsanların xoşbəxt olmaları, firavan yaşamaları üçün onlara həyatın bütün sahələrində kömək etmək üçün əlindən gələni edir.

Bayramlarda, əlamətdar günlərdə, hətta öz ad günündə belə Mehriban xanımı bu vətəndaşlarımızın yanında görmək artıq hamımız üçün adi hala çevrilib. İnsanlara bir zərrə qədər də olsa sevinc bəxş etməyi, onların üzünü güldürməyi Birinci xanım böyük xoşbəxtlik sayır və bunu özünün mənəvi borcu hesab edir.

→ 6

## Azərbaycanın xarici siyasətində Çinlə əməkdaşlıq əsas prioritetlərdən biridir



→ 2

## Ağalıda yaşanan analıq sevinci



Mənfur düşmənin viran qoyduğu şəhər və kəndlərimiz bu gün bərpa olunur, yenidən qurulur. Artıq Zəngilanın Ağalı kəndi bərpa edilib, sakinləri öz evlərinə qayıdıblar.

Böyük qayıdışın ilk ünvanı, həyatın yenidən canlandığı Ağalıdan bu günlərdə daha bir xoş xəbər gəldi.

Düz 30 il sonra Ağalıda səhər dünyaya gələn körpənin qığıltısı ilə açıldı. 44 günlük Vətən müharibəsindəki zəfərə, qəhrəman ordumuza ithafən körpənin adını da elə Turan qoydular.

→ 7

## Vəhşətdən işıqlı sabaha

### Xocalı qətliamından sağ qurtulan üç bacının acılı-şirinli həyat hekayəsi var

Onlar keçmiş məcburi köçkün ailəsindəndirlər. Bu həyatı yaşayanlar bilir. Öz isti ocağından bir gecədə didərgin düşmək, illərlə elinə, obasına həsrət qalmaq, çətin şəraitdə böyümək, faciənin travması, yarıda qalan uşaqlıq, ata qayğısından məhrum olaraq böyüməyin acısı...

Həyat mübarizləri sevər. Çətinliklərə sinə gərib savaşanlara, öz məqsədinə, amalına çatmaq uğrunda var gücü ilə çalışanlara yol açar. Lap elə Aliyə, Aynur və Aygünə açılan işıqlı yollar kimi...

Uşaqlıqdakı travmaları və məcburi köçkün həyatları onları oxumaqdan, ali təhsil almaqdan yayındırmayıb. Psixoloji sarsıntılara rəğmən anaları Şəfiqə xanımın məsləhəti, nəsihətləri ilə hər biri ali təhsil alıb, bir işə yiyələnib.

→ 9

## Xankəndi-Xəlfəli-Turşsu yolundan Rusiya sülhməramlılarının müşayiəti ilə hərbi daşımalar həyata keçirmək qəbuledilməzdir

Martın 5-də Xankəndi-Xəlfəli-Turşsu torpaq yolunda baş vermiş insidentdən sonra Rusiya sülhməramlı kontingentinin müşayiəti ilə Ermənistan silahlı qüvvələri və qeyri-qanuni erməni silahlı dəstələrinin bu yoldan hərbi təyinatlı daşımaları həyata keçirmək məqsədilə növbəti dəfə istifadə etməsi Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən bölmələrinin texniki müşahidə vasitələri ilə qeydə alınıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, martın 7-də gün ərzində Ermənistan silahlı qüvvələri və qeyri-qanuni erməni silahlı dəstələrinin hərbi nəqliyyat vasitələrinin qeyd olunan yoldan kolon şəklində hərəkəti Rusiya sülhməramlı kontingentinin müşayiəti altında təmin edilib. Ermənistanın təkzibinə və riyakarlığına baxmayaraq, texniki müşahidə vasitələri ilə yolun hərbi daşımalar üçün istifadə edildiyi bir daha təsbit olunub.

Rusiya sülhməramlı kontingentinin müşayiəti ilə hərbi daşımaların həyata keçirilməsi üçtərəfli Bəyanatın müddəalarının kobud şəkildə pozulması olaraq qəbuledilməz haldır və dərhal dayandırılmalıdır.

Bir daha bəyan edirik ki, Ermənistan tərəfindən Azərbaycanın Qarabağ iqtisadi rayonunda yerləşən qeyri-qanuni erməni silahlı dəstələrinə silah, sursat, mina, təminat və digər hərbi vasitələrin çatdırılması, eləcə də bu yolla döyüş mövqelərinə şəxsi heyətin daşınması və rotasiyası Azərbaycanın suverenliyinin, üçtərəfli Bəyanatın müddəalarının kobud şəkildə pozulması və Azərbaycana qarşı hərbi təcavüz siyasətinin davam etdirilməsidir. Bu kimi əməllərə dərhal və birdəfəlik son qoyulmasa, Ermənistanın və qanunsuz erməni hərbi ünsürlərinin Azərbaycanın suveren ərazilərində törətdikləri hərəkətlərin qarşısını almaq məqsədilə Azərbaycan tərəfi zəruri tədbirlər görmək məcburiyyətində qalacaqdır.

Baş verən hadisələr Laçın yolu üzərində Azərbaycanın nəzarət rejiminin yaradılmasının zəruriliyini və labüdlüyünü bir daha təsdiq edir.

## Riyakarlıq

### Qarabağdakı Rusiya sülhməramlıları erməni təxribatçılarına açıq-aşkar dəstək verir

Sülhməramlıların təxribatçılara yardım etməsini təsdiqləyən faktlar matrın 7-də, yəni dünən də ortaya çıxıb. Videogörüntülər yenə də hərbi təyinatlı "Caliber" kanalında yayımlanıb. Kadrlarda Xankəndi-Xəlfəli-Turşsu torpaq yolunda qanunsuz erməni silahlı dəstələrinin hərbi daşımaları açıq-aşkar görünür. Həmçinin qanunsuz silahlı dəstələrin hərbi nəqliyyatının Rusiya sülhməramlı kontingentinin müşayiəti ilə hərəkət etdiyi yayımlanır. Kadrda Rusiya sülhməramlı kontingentinin 2 "UAZ Patriot" maşını, onun ardınca qanunsuz erməni silahlı birləşmələrinə məxsus "Ural" yük maşını və su çəni olan "KamAZ", sonda isə üzərində Rusiya bayrağı olan BTR-82A zirehli maşınının hərəkəti əks olunub.

Törədilən bütün bu təxribatlar həm Ermənistanın bölgədə sülhə başlıca təhdid olduğunu, həm də Rusiya sülhməramlılarının aranı qarışdırmaq, vəziyyəti gərginləşdirmək istədiyini əyani şəkildə təsdiqləyir.

Azərbaycan Müdafiə Nazirliyi isə bütün bu qanunsuzluqlara görə həm Ermənistana, həm də Rusiya sülhməramlı kontingentinə bir daha xəbərdarlıq edib. Əgər təxribatçılara göstərilən yardımlar dayandırılmasa, qanunsuz fəaliyyətin qarşısı alınmasa, Azərbaycan tərəfi bütün imkanlardan istifadə etməklə qəti zəruri tədbirlər görmək məcburiyyətində qalacaq.

→ 11

# Azərbaycanla Bolqarıstan yaxın və strateji tərəfdaşlardır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Bolqarıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ruslan Stoyanovun etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir Ruslan Stoyanov etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Ölkələrimizin yaxın və strateji tərəfdaş olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunaraq vurğuladı ki, dostluq əlaqələrini nümayiş etdirən bu səfərlər zamanı ikitərəfli gündəlikdə duran çox mühüm məsələlərlə bağlı qərarlar qəbul olunub.

Dövlətimizin başçısı hazırkı əməkdaşlığımızın əsas mövzularından birinin enerji sahəsinə aid olduğunu deyərək "Cənub qaz dəhlizi" layihəsinin önəminə toxundu, enerji təhlükəsizliyinin təmin edilməsi məsələsində ölkələrimizin uzun illər bundan sonra da yaxın tərəfdaş olacaqlarına ümidvarlığını bildirdi. Prezident İlham Əliyev eyni zamanda birgə layihələrin həyata keçirilməsinin Bolqarıstana Azərbaycan qazı üçün tranzit ölkəyə çevrilmək imkanı yaratdığını qeyd etdi.

Azərbaycan Prezidenti enerji sahəsi ilə yanaşı, digər sahələrdə də əməkdaşlığın inkişafı üçün potensialın olduğunu bildirdi, ticarət dövriyyəsinin artırılması üçün səylərin göstərilməsinin vacibliyini vurğuladı.

Ölkələrimiz arasında qarşılıqlı siyasi fəaliyyətin yaxşı səviyyədə olduğunu bildirən dövlətimizin başçısı Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO əməkdaşlığında Bolqarıstanın rolunu qeyd etdi.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı.

Ruslan Stoyanov, ilk növbədə Bolqarıstan Prezidenti Rumen Radevin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rumen Radevə çatdırmağı xahiş etdi.

Azərbaycanın Bolqarıstan üçün strateji tərəfdaş ölkə olduğunu vurğulayan səfir dövlətlərimiz arasında mövcud olan qarşılıqlı etimadın və yüksəksəviyyəli görüşlərin strateji tərəfdaşlığımızın göstəricisi olduğunu dedi. Ruslan Stoyanov vurğuladı ki, Azərbaycan-Bolqarıstan münasibətləri yalnız strateji xarakter daşımır, onlar həm də dost münasibətləridir. Səfir Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun istismara verilməsinin əhəmiyyətinə də toxundu.

# Azərbaycanın xarici siyasətində Çinlə əməkdaşlıq əsas prioritetlərdən biridir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Vu Honqbonu qəbul edib.



AZƏRTAC xəbər verir ki, ilk növbədə Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdıran Vu Honqbo Azərbaycan Prezidenti ilə əvvəlki görüşlərini məmnunluqla xatırladı.

Qonaq bildirdi ki, Azərbaycan Prezidentinin güclü rəhbərliyi altında ölkəmizin iqtisadi və digər sahələrdə əldə etdiyi uğurlar onlarda böyük təəssürat hissi doğurur.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı özünün Çinə rəsmi səfərini, bu səfər zamanı və beynəlxalq tədbirlərdə Çin Xalq Respublikasının Sədri ilə görüşlərini xatırlayaraq bildirdi ki, Si Cinpinin Azərbaycan Prezidentini Çinin böyük dostu adlandırmasından böyük məmnunluq hissi duyur.

Vahid Çin siyasətini, Çinin ərazi bütövlüyü və suverenliyini daim dəstəklədiyini qeyd edən Prezident İlham Əliyev Azərbaycanın xarici siyasətində Çinlə əməkdaşlığın əsas prioritetlərdən biri olduğunu vurğuladı, əlaqələrimizin ildən-ilə güclənməsindən məmnunluğunu bildirdi və ölkələrimiz arasında əməkdaşlığın yalnız müxtəlif siyasi platformalarda deyil, eyni zamanda iqtisadi sahədə və "Bir kəmər, bir yol" çərçivəsində də genişləndiyini dedi. Dövlətimizin başçısı bu baxımdan Çindən Azərbaycan vasitəsilə qərb istiqamətində daşınan yüklərin həcminin artmasını bunun yaxşı nümunəsi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev COVID-19 pandemiyası zamanı Çin Xalq Respublikasının Sədrinə göndərdiyi məktubu xatırladaraq Çinin ölkəmizə vaksinlər ayırmasını və bunun nəticəsində Azərbaycanın dünyada vaksinasiyaya başlayan ilk ölkələrdən biri olduğunu xüsusilə qeyd etdi, bunu ölkələrimiz arasında dostluğun bariz nümunəsi kimi dəyərləndirdi, bu faktın Azərbaycan dövləti və xalqı tərəfindən çox yüksək qiymətləndirildiyini dedi.

Dövlətimizin başçısı Azərbaycanın bərpaolunan enerji potensialı barədə məlumat verdi. Çinin bu sahədə böyük texnoloji imkanlara malik olduğu qeyd edildi.

Söhbət zamanı Çin şirkətləri işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərinə dəvət olundular.

Qonaq Çinin ölkəmizin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini qeyd etdi.

Vu Honqbonun Bakıda keçiriləcək növbəti Qlobal Forumda iştirakını yüksək qiymətləndirən dövlətimizin başçısı onun səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin artıq dünya səviyyəsində tanınmış mərkəzlərdən biri olduğunu qeyd etdi, burada beynəlxalq sülh və təhlükəsizlik gündəliyində duran çox vacib müzakirələrin aparıldığını dedi və mərkəzin gələcək fəaliyyətinə uğurlar arzuladı.

Görüşdə iqtisadi, humanitar və turizm sahələrində əməkdaşlığın daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparıldı, əlaqələrimizin inkişafı üçün böyük imkanların olduğu bildirildi, media, elm-tədqiqat mərkəzləri və insanlar arasında təmasların artırılmasının vacibliyi vurğulandı.

# Ölkələrimizin uzaqda yerləşməsi əməkdaşlığımıza mane olmamalıdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Timor-Leste Demokratik Respublikasının Prezidenti Jose Ramos Horta ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident **İlham ƏLİYEV** dedi:

- Sizi bir daha salamlayıram. Səfərə gəldiyiniz üçün təşəkkür edirəm. Bu, həqiqətən də tarixdə ilk dəfədir ki, Timor-Lestenin Prezidenti Azərbaycana səfər edir. Əminəm ki, bu, ölkələrimiz arasında dostluq əlaqələrinin, səmərəli əməkdaşlığın və tərəfdaşlığımızın uğurlu davamını təmin edəcək mühüm addımdır. Bununla yanaşı, Qoşulmama Hərəkatının bu yaxınlarda keçirilmiş Zirvə toplantısında ölkənizin yüksək səviyyədə təmsil olunması ilə bağlı minnətdarlığımı bildirmək istəyirəm. Bu toplantı olduqca uğurlu idi və üzv dövlətlər arasında həmrəyliyi bir daha nümayiş etdirdi.

Azərbaycanın sədrliyinə və bizim üzv dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi və onların maraqlarının müdafiəsinə yönəlmiş təşəbbüslərimizə verilən dəstəyə görə də minnətdarlıq bildirmək istərdim.

Ölkələrimiz bir-birindən uzaqda yerləşir, lakin hesab edirəm ki, bu, müxtəlif sahələrdə əməkdaşlığa mane olmamalıdır. Bir halda ki, siyasi müstəvidə əməkdaşlıq mövcuddur, biz digər sahələrdə imkanları nəzərdən keçirməliyik. Əlbəttə ki, Sizin Azərbaycana səfəriniz qarşılıqlı maraq doğuran geniş məsələlərin müzakirəsi üçün fürsət yaradır. Cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz. Sizə Azərbaycanda xoş vaxt keçirməyi arzu edirəm.

* * *

Timor-Leste Prezidenti **Jose Ramos HORTA** dedi:

- Zati-aliləri, mənimlə Azərbaycanda, iştirak edəcəyim forumla bağlı görüşdüyünüzə görə sağ olun. Mən əvvəllər bu foruma dəvət edilmişdim, lakin müəyyən səbəblərdən səfərə gələ bilmədim. Bu dəfə isə həqiqətən də bu səfəri həyata keçirmək arzusundaydım. İstədim həm forumda iştirak edim, həm də rəhbərliyinizlə tərəqqi və inkişafa nail olan və haqqında çox oxuduğum Azərbaycan ilə şəxsən tanış olum. Belə bir fürsətə görə təşəkkür edirəm.

* * *

Timor-Leste Demokratik Respublikasının Prezidenti Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin yüksək qiymətləndirildiyini dedi, Hərəkatın Bakıda təşkil edilən son Zirvə görüşünün uğurla keçirildiyini vurğuladı.

Prezident İlham Əliyev ölkəmizin Qoşulmama Hərəkatına sədrliyinə göstərdiyi dəstəyə görə Timor-Lestenin Prezidentinə minnətdarlığını bildirdi.

Görüşdə qaz, sərmayələr, gübrə istehsalı, təhsil sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

Jose Ramos Horta Azərbaycanın təhsil müəssisələrində ölkəsindən olan tələbələrə təqaüd ayrılması ilə bağlı imkanlara baxılması üçün dövlətimizin başçısından xahiş etdi.

Azərbaycanın təhsil potensialı haqqında məlumat verən Prezident İlham Əliyev xarici tələbələr, o cümlədən Qoşulmama Hərəkatına üzv dövlətlərdən olan tələbələr üçün təhsil təqaüdlərinin ayrıldığını qeyd edərək bu məsələyə də baxılacağını bildirdi.

# Rusiya Dövlət Dumasının nümayəndə heyəti Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Federal Məclisinin Dövlət Duması sədrinin müavini Şolban Kara-oolun başçılıq etdiyi nümayəndə heyəti martın 7-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib.

Ziyarətçilər Ulu Öndərin məzarı önünə gül dəstəsi qoyublar.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclis Sədrinin müavini Adil Əliyev və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Milli Məclisdə görüş

Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev martın 7-də Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədr müavini Şolban Kara-oolunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayaraq idmanın və bədən tərbiyəsinin Azərbaycanda populyarlaşmasının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirən vitse-spiker Ulu Öndər tərəfindən bu sahədə sistemli və kompleks yanaşmanın əsasının qoyulmasından danışıb. O, Prezident İlham Əliyevin uğurlu idman siyasəti nəticəsində ölkəmizin dünyanın qabaqcıl idman ölkəsinə çevrilməsindən bəhs edib, Azərbaycanın nüfuzlu beynəlxalq idman yarışlarına evsahibliyi etdiyini vurğulayıb. 2015-ci ildən Azərbaycan parlamentində Gənclər və idman komitəsinin fəaliyyət göstərdiyini deyən vitse-spiker parlament komitəsinin gənclər və idman sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində gördüyü işlərdən danışıb.

Azərbaycan və Rusiya arasında qarşılıqlı etimada əsaslanan yüksəksəviyyəli münasibətlərdən söz açan Adil Əliyev ölkələrimizin bütün sahələrdə olduğu kimi, idman sahəsində də yaxşı əlaqələr qurduğunu deyib. O, bu müsbət əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə əminliyini bildirib.

Göstərilən qonaqpərvərliyə və səmimi sözlərə görə təşəkkür edən Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədr müavini Şolban Kara-ool Azərbaycanda bütün sahələrdə olduğu kimi, idman sahəsində də görülən işlərin, əldə olunan nailiyyətlərin dost ölkə kimi onları çox sevindirdiyini deyib və idman sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Söhbət zamanı idman sahəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, fəal təcrübə mübadiləsinin həyata keçirilməsinin əhəmiyyəti qeyd edilib.

Görüşdə Milli Məclisin Gənclər və idman komitəsinin üzvləri Ülvi Quliyev, Ramil Həsən, Sevinc Hüseynova, Könül Nurullayeva, Şahin İsmayılov və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 yanvar tarixli 1253 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Qarabağ Dirçəliş Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 yanvar tarixli 1253 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 23) ilə təsdiq edilmiş "Qarabağ Dirçəliş Fondunun Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bənddə "ölkə daxilində və ölkə xaricində" sözləri "görülən işlərlə bağlı ölkə daxilində və ölkə xaricində informasiya təminatını, maarifləndirmə və" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 3.2.10-1-ci yarımbənd əlavə edilsin:

"3.2.10-1. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı Azərbaycan Respublikası Prezidentinin razılığı ilə publik hüquqi şəxs yaratmaq;".

3. 3.2.11-ci yarımbənddə "nəşrlər buraxmaq" sözlərindən sonra ", habelə Azərbaycan Respublikası Prezidentinin razılığı ilə media subyekti təsis etmək" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2023-cü il*

## Milli Məclisin plenar iclasında

# Ombudsman parlamentə hesabat verdi

Martın 7-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Gündəliyin təsdiqindən sonra Milli Məclisin Sədri Sahibə Qafarova erməni silahlı birləşmələri tərəfindən qanunsuz istifadə edilən Xankəndi-Xəlfəli-Turşsu yolunda martın 5-də törədilmiş təxribatla bağlı fikirlərini bildirib. Qeyd olunub ki, bu hadisə Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin 2020-ci il 10 noyabr tarixli Üçtərəfli Bəyanatının bütün bəndlərinin tamamilə və qeyd-şərtsiz yerinə yetirilməsi zərurətini bir daha göstərir. Təxribatın qarşısının alınması zamanı iki əsgərimiz şəhid olmuşdur. Yaralanan hərbçimiz var.





Spiker şəhidlərimizə Allahdan rəhmət, yaralanan hərbi qulluqçumuza isə şəfa diləklərini ifadə edib.

İclasda ilk olaraq Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) illik məruzəsi dinlənilib. İllik məruzəni Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Səbinə Əliyeva təqdim edib. Ombudsman bildirib ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə işğal altında olan torpaqlarımızın düşmən tapdağından azad edilməsindən sonra ölkəmiz sosial-iqtisadi inkişafın yeni mərhələsinə qədəm qoyub. Müasir çağırışlara cavab verən, uğurla icra olunan müxtəlif layihələr vətəndaşların rifah halının yaxşılaşdırılmasına xidmət edir. Qeyd edilib ki, ölkədə dövlət idarəçiliyi sistemində həyata keçirilən davamlı islahatlar, sosial-iqtisadi həyatın bütün sahələrində qanunçuluğun və şəffaflığın təmin olunması üçün atılan addımlar, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılması, ictimai nəzarətin genişləndirilməsi məqsədi ilə görülən işlər insan hüquqlarına və qanunların aliliyinə hörmətin artmasında, hüquq bərabərliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır.

Səbinə Əliyeva Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 2002-ci ildə yaradılmış, ötən il 20 illik yubileyini qeyd edən, öz fəaliyyətini müstəqillik, aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət prinsipləri əsasında quran Ombudsmanın ölkə Konstitusiyasında və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş pozulan insan hüquq və azadlıqlarının bərpa edilməsi, insan hüquqları pozuntularının qarşısının alınması, dövlətimizin beynəlxalq nüfuzunun artması istiqamətində fəaliyyətini uğurla davam etdirdiyini söyləyib. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə ölkə Prezidenti tərəfindən 2023-ci ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar olaraq təsisat tərəfindən Ümummilli Liderin insan hüquqlarının müdafiəsinə verdiyi töhfələrlə bağlı silsilə tədbirlərin təşkili nəzərdə tutulub.

Səbinə Əliyeva diqqətə çatdırıb ki, 2022-ci ildə ombudsmanın ünvanına 28.525 müraciət daxil olub. Həmin müraciətlərə Konstitusiya Qanunu ilə müəyyən edilmiş qaydada baxılıb, onların həlli istiqamətində aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, o cümlədən Naxçıvan Muxtar Respublikasının müvafiq dövlət qurumlarına müraciətlər edilib, təklif və tövsiyələr verilib, bir çox hallarda nöqsan və çətinliklərin aradan qaldırılmasına, pozulmuş hüquqların bərpasına nail olunub.

Vətəndaşların layiqli həyat səviyyəsinin və rifah halının yüksəldilməsi məqsədilə onların məşğulluğunun təmin edilməsinə diqqətin artırılmasından danışan ombudsman qeyd edib ki, məşğulluq orqanları vətəndaşların işlə təmin edilməsi prosesini nəzarətdə saxlamalı, vakant iş yerləri ilə bağlı işəgötürənlər tərəfindən təqdim edilən məlumatların formal xarakter daşımasının qarşısı alınmalı, bununla bağlı qanunvericiliyə müvafiq dəyişikliklər edilməli, vətəndaşlara verilən imtina cavablarının səbəbləri araşdırılıb nəticəsindən asılı olaraq ciddi tədbirlər görülməlidir. Məruzəçi aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi üçün ünvanlı dövlət sosial yardımının təyin edilməsi mexanizminin təkmilləşdirilməsinə də ehtiyac olduğunu deyib. O, əlillik vəziyyətinin qiymətləndirilməsi ilə bağlı rəsmiləşdirilmiş göndərişlərə dair qərarların qəbul edilməsi zamanı tibbi-sosial ekspert komissiyaları ilə həkim məsləhət komissiyaları arasında funksional əlaqələndirmənin təmin edilməsinin əhəmiyyətindən bəhs edib. İmtiyazlı qruplardan olan və dövlət hesabına dərman preparatları ilə təmin edilən şəxslərin sağlamlığının qorunması hüququnun daha səmərəli təmin edilməsi məqsədilə pulsuz dərman reseptləri əsasında verilən dərman preparatlarının növlərinin və əvəzedicilərinin sayının artırılması, ehtiyacı olan insanların, xüsusilə aztəminatlı şəxslərin dərman vasitələrinin qiymətlərinə əlçatanlığının təmin edilməsi məqsədilə tədbirlərin zəruriliyini qeyd edib.

Ombudsman təhsil sistemi ilə bağlı fikirlərini açıqlayaraq orta məktəb şagirdlərinə verilən əsas tədris vəsaitləri ilə yanaşı, tədris proqramının ayrılmaz tərkib hissəsi olan əlavə tədris vəsaitlərinin də dövlət büdcəsi hesabına maliyyələşdirilməsi, məktəblərdə psixoloq ştatlarının artırılması, təhsil sistemində mediasiya institutunun tətbiq olunması məsələlərindən danışıb.

Məruzədə bildirilib ki, insanların mülkiyyət, mənzil və təhlükəsiz yaşamaq kimi hüquqlarının etibarlı müdafiəsi, habelə təmas sahəsində yerləşən evlərdə yaşayan sakinlərin təhlükəsizliyinin təmini, ətraf mühitin çirkləndirilməsinə qarşı mübarizənin genişləndirilməsi məqsədilə aidiyyəti dövlət qurumları tərəfindən qabaqlayıcı tədbirlərin görülməsi, bu sahəyə nəzarətin gücləndirilməsi neqativ halların qarşısının alınmasında böyük əhəmiyyət daşıyır.

Səbinə Əliyeva hüquq və azadlıqların məhkəmə təminatı ilə bağlı məqamlara toxunaraq, məhkəmə bildirişinin tərəflərə qanunvericiliklə müəyyən edilmiş müddətlərdə verilmədiyini, məhkəmə qərarının surətinin tərəflərə vaxtında göndərilmədiyini və bununla da yuxarı instansiya məhkəməsinə şikayət etmək hüququnun məhdudlaşdırıldığını, məhkəmə qərarlarının icrasına məhkəmə nəzarətinin qənaətbəxş olmadığını qeyd edib.

Nəzərə çatdırılıb ki, ombudsman və onun Milli Preventiv Qrupu tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə saxlanma şəraitinin, rəftar məsələlərinin, sənədləşmənin, habelə daxil olmuş müraciətlərin araşdırılması məqsədilə il ərzində 201 başçəkmə həyata keçirilib. Başçəkmələr zamanı 2025 şəxslə konfidensial görüş keçirilib. Onlardan 36-sı Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən ombudsmana görüş xahişi ilə bağlı ünvanlanan məktubda adları qeyd edilən şəxslər olub. Məhkumların və onların ailə üzvlərinin əfv haqqında müraciətləri nəzərə alınaraq müntəzəm şəkildə Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasına müraciətlər olunub. Fəaliyyət dövründə ombudsmanın vəsatəti ilə ümumilikdə 805, 2022-ci ildə isə 31 məhkum əfv edilib.

Bildirilib ki, ombudsmanın təşəbbüsü və təşkilatçılığı ilə ölkəmizdə təşkil edilmiş beynəlxalq əhəmiyyətli tədbirlərlə yanaşı, ombudsmanın və aparat əməkdaşlarının xarici ölkələrdə keçirilmiş beynəlxalq tədbirlərdə iştirakı insan hüquqlarının müdafiəsi sahəsində müsbət təcrübə mübadiləsi, Azərbaycan həqiqətlərinin, o cümlədən Ermənistanın etnik təmizləmə və nifrət siyasəti nəticəsində öz ata-baba yurdundan qovulan, ev-eşiyindən, əmlakından məhrum edilən, Azərbaycanda məskunlaşan soydaşlarımızın hüquqlarının müdafiəsi məsələlərinin təbliği və dünya ictimaiyyətinə çatdırılması baxımından əhəmiyyətli olub. Qeyd edilib ki, işğaldan azad olunan ərazilərdə aparılan araşdırmalar nəticəsində əldə olunan dəlil və sübutlar, aşkar edilmiş kütləvi məzarlıqlar Ermənistan hakimiyyətinin cinayətkar üzünü ifşa edən, həmin ərazilərdə törədilmiş insanlıq əleyhinə və müharibə cinayətlərinə cavabdeh olan Ermənistanın ədalət mühakiməsinə cəlb olunması zərurətini yaradan materiallar əsasında ombudsman tərəfindən hazırlanmış hesabatlar aidiyyəti beynəlxalq insan hüquqları təşkilatlarına göndərilib. Ekoloji terrorun aradan qaldırılması ilə bağlı aksiya keçirən vətəndaşlarımıza dəstək ifadə edən ombudsman dünya ictimaiyyətini insan hüquqlarının müdafiəsinə xidmət edən bu aksiyaya dəstək verməyə çağırıb. Bununla yanaşı, bu il ombudsmanın Qərbi Azərbaycan İcması ilə səmərəli əməkdaşlığı da prioritet istiqamətlərdən birini təşkil edəcək.

Ombudsman bildirib ki, əhalinin hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi məqsədilə illik məruzədə əksini tapmış təklif və tövsiyələrin ölkəmizdə həyata keçirilən genişmiqyaslı tədbirlər çərçivəsində öz həllini tapması insanların layiqli həyat şəraitinin təmin olunmasına, vətəndaş-dövlət münasibətlərinin möhkəmlənməsinə xidmət edəcək.

Sonra parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc insan hüquqları üzrə müvəkkilin (ombudsmanın) illik məruzəsi ilə bağlı rəhbərlik etdiyi komitənin rəyini səsləndirib.

Qeyd edilib ki, məruzədə ilk diqqətçəkən məqam 2022-ci ildə ombudsmana 28525 müraciətin daxil olmasıdır. Belə ki, 2021-ci illə müqayisədə bu, 2567 müraciət azdır. Təklif və tövsiyələrin 10 səhifə təşkil etməsi təqdirəlayiqdir. Analitik fəaliyyətə məsuliyyətlə yanaşıldığı, fəaliyyətin təkmilləşdirilməsi yöndə addımların atılması müsbət haldır. Məruzənin mətninin ilk dəfə olaraq infoqrafik məlumatlarla müşayiət olunması, statistik mənzərənin daha aydın şəkildə təqdim edilməsi baxımından təqdirəlayiqdir.

Komitə sədri bildirib ki, ötən il ölkəmizdə institusional islahatlar baxımından Qarabağda yeni inzibati iqtisadi bölgələrin yaradılması, xüsusi nümayəndəlik institutunun təsisi və onun azad olunan torpaqlardan kənara, Naxçıvana da tətbiq edilməsi idarəetmə sistemində köklü dəyişikliklərlə yanaşı, azad edilən ərazilərdə insan haqlarının da yurisdiksiyamıza daxil olduğunu təsdiqləyir. O qeyd edib ki, cari il martın 1-də Xocalıda təşkil olunmuş görüş Xankəndidə yaşayan ermənilərlə birgə yaşayışa dair Sərsəngdən sonra ilk addım sayıla bilər. Belə vəziyyət ombudsman institutunun fəaliyyətinin coğrafiyasını genişləndirməklə yanaşı, reinteqrasiya istiqamətində həyata keçirilən tədbirlərdə aktivlik tələb edəcək.

Zahid Oruc məruzədə müsbət həll olunan şikayətlərdən nümunələr göstərildiyini deyərək, ən çox insan haqlarını pozan orqanların adlarının verilməsinin vacibliyindən danışıb. O deyib ki, sağlamlığın qorunması və tibbi xidmətlərin həyata keçirilməsi son iki ildə ön yerdə olub. Ötən il sərhədlərin açılmaması vətəndaşları narahat etməyə davam edib. O, sənəddə məhkumların azadlıqdan məhrumetmə yerlərində vəziyyətilə bağlı narahatlıqların əks olunduğunu, habelə ölkədə hüquq müdafiəçilərinin fəaliyyətinin normativ bazasının gücləndirilməsi ilə bağlı fikirlərini söyləyib.

Komitə sədri vətəndaş hüquqlarının dövlət və qanun tərəfindən qorunmasının vacibliyini qeyd edərək son illərdə insanların ən çox sosial hüquqlara önəm verdiyini, mənzil-kommunal sistemində problemlərin hələ də mövcud olduğunu,vətəndaşların tikinti şirkətləri tərəfindən hüquqlarının pozulmalarına dair şikayətlərin artdığını deyib. Bu problemlərin həlli ilə bağlı ombudsmanın fəaliyyətinin gücləndirilməsinin vacibliyini qeyd edib.

Zahid Oruc bu gün beynəlxalq münasibətlərdə olan gərginlik şəraitində işləməyin çətinliyindən danışaraq insan hüquqları üzrə müvəkkilin üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışdığını qeyd edib. O, müvəkkilin insan hüquqları diplomatiyası sahəsində parlamentin imkanlarından bəhrələndiyini də söyləyib.

Çıxışının sonunda Zahid Oruc rəhbərlik etdiyi komitənin insan hüquqları üzrə müvəkkilin (ombudsmanın) illik məruzəsinə müsbət rəy verdiyini bildirib.

Məruzə ətrafında müzakirələr aparılıb. Deputatlar Kamilə Əliyeva, Qüdrət Həsənquliyev, Elman Nəsirov, Fazil Mustafa, Etibar Əliyev, Razi Nurullayev, Vüqar Bayramov, Vahid Əhmədov məruzə ilə bağlı fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) illik məruzəsinin nəzərə alınması ilə bağlı qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, Ermənistanın Azərbaycan ərazisində Xankəndi-Xələfli-Turşsu torpaq yolunda törətdiyi silahlı təxribatın qarşısı alınarkən bizim şəhidlərimiz və yaralanan hərbçimiz olub. O, ombudsman təsisatının bu ciddi insan haqları pozuntusunun beynəlxalq ictimaiyyətə çatdırılması üçün səylərini əsirgəməyəcəyinə əminliyini bildirib.

Sonra parlamentin Sədri deyib ki, gündəliyin növbəti 4 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. 2-ci və 3-cü məsələlər Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındırlar.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini təqdim edib. O, bu sənədlərin hər iki oxunuşda Milli Məclisdə ətraflı müzakirə edildiyini deyərək hər iki layihənin əsas mahiyyətinin adıçəkilən fondların investisiya fəaliyyətinə hüquqi əsaslar yaratmaqla bağlı olduğunu və mətnlərində heç bir dəyişikliyin olmadığını söyləyib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. O, "Media haqqında" qanunun qəbulundan sonra bir sıra qanunlarda uyğunlaşdırma xarakterli dəyişikliklərin edildiyini, İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklərin də həmin qəbildən olduğunu bildirib.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsi barədə məlumat verib. O, sənədin media subyektlərinin iqtisadi müstəqilliyinin təmin edilməsi məqsədi daşıdığını söyləyib.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti 8 məsələsi ikinci oxunuşda olan qanun layihələridir.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Elektroenergetika haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim edib. Bildirib ki, qanun layihəsinin əsas məqsədi elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi, paylanması, təchizatı, idxalı, ixracı və istehlakı ilə bağlı elektroenergetika subyektləri, istehlakçılar və elektroenergetika sektorunda fəaliyyət göstərən dövlət orqanları arasında yaranan münasibətləri tənzimləmək, elektroenergetikanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən etməkdir. O qeyd edib ki, qanunun qəbulu ölkəmizdə rəqabət mühitində və antiinhisar siyasətində rəqabətli və azad sahibkarlığı təşviq etməklə həm iqtisadiyyatın inkişafını, həm də istehlakçıların rifahını, məhsul və xidmətlərin keyfiyyətini təmin edəcək.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra spiker bildirib ki, növbəti 4 məsələ Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. Bunlar ikinci oxunuşda müzakirəyə çıxarılan "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanunlarda, 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunla təsdiq edilmiş "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri"ndə dəyişiklik edilməsi barədə və "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında" qanunun ləğv edilməsi barədə qanun layihələridir.

Layihələrlə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə məlumat verib. O bildirib ki, layihələr haqqında birinci oxunuşda ətraflı məlumat verilib, deputatların sualları cavablandırılıb və komitəyə sənədlərlə bağlı hər hansı bir təklif daxil olmayıb.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova gündəliyin son 3 məsələsinin də Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu bildirib və 11-ci məsələ - Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat vermək üçün Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərova söz verib.

Kamal Cəfərov diqqətə çatdırıb ki, birinci oxunuşda layihə ilə bağlı ətraflı məlumat verilib, deputatların sualları cavablandırılıb və sənədin mətnində heç bir dəyişiklik aparılmayıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

12-ci məsələni İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə təqdim edib. O bildirib ki, "Banklar haqqında" qanunda dəyişiklik edilməsi (ikinci oxunuş) barədə qanun layihəsi Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə uyğun olaraq hazırlanıb və layihə ilə bağlı heç bir irad və təklif komitəyə daxil olmayıb.

Gündəliyin sonuncu məsələsi olan "Qiymətli kağızlar bazarı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumatı da İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə təqdim edib. O bildirib ki, bu sənəd də Miqrasiya Məcəlləsinə edilən dəyişikliklə əlaqədardır. Belə ki, təklif olunan yeni 28.4-cü maddədə bildirilir ki, dövlət qiymətli kağızlarına və ya paylarının (səhmlərinin) 51 və daha artıq faizi dövlətə məxsus olan hüquqi şəxslərin investisiya qiymətli kağızlarına malik olmaqla, Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin investisiya qiymətli kağızları, o cümlədən dövlət qiymətli kağızları barədə məlumatlar müvafiq icra hakimiyyəti orqanına Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş hallarda verilir.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İclasa yekun vuran spiker Sahibə Qafarova bildirib ki, bu gün Yel çərşənbəsidir. O, bu əziz gündə deputatlara və media nümayəndələrinə səmimi təbriklərini çatdırıb, onlara və ailələrinə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıb.

8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə də təbriklərini diqqətə çatdıran Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, Azərbaycanda tarixin bütün dövrlərində qadınlar böyük hörmət və qayğı ilə əhatə olunub və Ana həmişə müqəddəs varlıq sayılıb.

Azərbaycan qadınının boya-başa çatdırdığı qəhrəman övladlar 44 günlük Vətən müharibəsində xalqımıza qələbə sevinci yaşadıblar.

Spiker Sahibə Qafarova təklif edib ki, 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubu ünvanlayaq, ona dəyərli fəaliyyətində yeni-yeni uğurlar arzulayaq. Spikerin bu təklifi alqışlarla qarşılanıb.

Sahibə Qafarova bayram münasibəti ilə Milli Məclisin qadın deputatlarını və əməkdaşlarını, iclası işıqlandıran jurnalist xanımları, bütün Azərbaycan qadınlarını ürəkdən təbrik edib, onlara möhkəm cansağlığı, firavanlıq və ailə səadəti arzulayıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Heydər Əliyev İli 2023

# Heydər Əliyev və Azərbaycan:

## Bakı Şəhər İcra Hakimiyyətinin və "Azərbaycan" qəzetinin birgə konfransı

**_Bakı Şəhər İcra Hakimiyyəti ilə "Azərbaycan" qəzetinin birgə təşkil etdikləri "Heydər Əliyev və Azərbaycan" mövzusunda konfransda Ulu Öndərin tarixi missiyası, dövlətçilik yolu, onun ideyalarının indi tam reallaşması barədə rəylər söylənildi, mövcud nailiyyətlərin əsaslarının yaradıcısı olan Ümummilli Liderin fəaliyyətinin müxtəlif spektrləri mövzularında çıxışlar dinlənildi._**

**_Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin büstünün önünə gül dəstələri qoydular. Tədbir Ulu Öndərin və şəhidlərimizin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başladı._**



*"Heydər Əliyev və millətlərarası siyasət" mövzusunda çıxış edən* ***Milli Məclisin deputatı Azər BADAMOV*** *qeyd etdi ki, multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuş, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir. Bu birliyin, bu həmrəyliyin dərinləşməsi, millətlərarası münasibətlərin yeni dövrdə dövlətçilik məfkurəsi ətrafında birləşməsi, tənzimlənməsi isə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır:*



- Ulu Öndər Heydər Əliyev hələ SSRİ dövründə respublikamıza rəhbərlik etdiyi illərdə xalq üçün taleyüklü olan çox çətin missiyaları yerinə yetirib, milli dövlətçilik şüurunun inkişafı, milli təəssübkeşliyin mənimsənilməsi üçün mühüm addımlar atıb. Məhz Heydər Əliyevin atdığı uzaqgörən addımlar, gələcək perspektivə hesablanmış işlər Azərbaycanı XX əsrin ikinci yarısından başlayaraq fərqli məcraya yönəltdi - xalqımız iqtisadi, mədəni və mənəvi tənəzzüldən xilas oldu. Eyni zamanda milli-mədəni atributlarımızın yaşadılması, dilimizin qorunması istiqamətində aparılan siyasət öz bəhrəsini verdi - xalqın öz milli kimliyini tanıması, özünəqayıdışı uğurla inkişaf etdirildi. Həmin dövrlərdə Azərbaycan milli birliyin rəmzi kimi xarakterizə olunurdu - ölkəmizdə yaşayan xalqlar arasında dostluq və qardaşlıq hökm sürürdü.

1990-cı illərin əvvəli isə Azərbaycan üçün çox ağır mənzərə yaratmışdı - bir tərəfdən erməni işğalı, digər tərəfdən isə fərqli xarici maraqların təsiri altına düşmüş qüvvələr yenicə əldə edilmiş müstəqilliyə təhdid yaradırdı. Azərbaycan sözün əsl mənasında parçalanmanın bir addımlığında idi. Ölkədəki çətin vəziyyətdən, sosial böhrandan və yaranan hakimiyyət boşluğundan istifadə edərək "sərhəd" belə müəyyənləşdirməyə cəhd göstərən separatçılar da tapılırdı. Öz addımlarını "fərqli millət, fərqli mədəniyyət" anlayışı ilə əsaslandırmağa çalışan xəyanətkarlar, siyasi fürsətçilər açıq-aşkar xarici ölkələrin emissarı rolunda çıxış edirdilər.

Belə bir dövrdə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıdaraq, ölkədə vüsət almış vətəndaş müharibəsinin, separatizmin, ölkəni parçalamaq cəhdlərinin qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər gördü. Qısa zamanda Azərbaycanın bütövlüyü təmin edildi və günahkarlar qanun qarşısında cavab verdilər. Ölkədə gedən silahlı qarşıdurmalardan, vətəndaş müharibəsi təhlükəsinə qədər inkişaf edən prosesdən ən çox əziyyət çəkən xalq

**(Əvvəli qəzetin 7 mart sayında)**

idi. Bu baxımdan Ulu Öndər Heydər Əliyev dövlətin xilaskarı olmaqla yanaşı, həm də millətinin taleyinin xilaskarına çevrildi. Ulu Öndər Heydər Əliyev həm ölkəni məhv olmaqdan qoruya bildi, həm də buna paralel olaraq müstəqil dövlət quruculuğu kursunu davamlı olaraq reallaşdırdı. Ümummilli Liderin müdrikliyi, dünyada gedən proseslərə dərindən bələd olması, baş verən hadisələrin səbəblərinin təhlili zamanı əvəzolunmaz məharət və bacarığı, hadisələrin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görmək səriştəsi öz bəhrəsini verdi. Böyük xilaskarımızın Bakıya gəlməsindən bir neçə ay sonra vəziyyətin sabitləşməsi, daha ağır nəticələrin qarşısının alınması mümkün oldu: millət və dövlət dəhşətli bəladan qurtuldu.

Azərbaycanın xilaskarı olan Heydər Əliyev müstəqilliyimizi qorumaqla yanaşı, bütövlüyümüzü, birliyimizi də təmin etdi. Bu günün rakursundan keçmişə qiymət vermək daha asandır - həmin dövr üçün isə olduqca çətin bir iş sayılan bu fəaliyyət real həyatda əksini tapdı. Ulu Öndərin Bakıya qayıdışı sözün əsl mənasında milli qurtuluşumuz oldu. Azərbaycanın bağrında yaraya çevrilmiş "sərhədlər" dağıdıldı, Azərbaycan bütövləşdi. Ölkəmiz üzərindən oynanılmasına çalışılan oyunlar iflasa uğradı.

Ulu Öndərin millətlərarası birlik, dövlətçilik formulu - azərbaycançılıq ideologiyası multikultural münasibətlərin hakim olduğu Azərbaycan cəmiyyətində və ictimai-siyasi münasibətlərin qeyri-müəyyənliyi ilə diqqəti cəlb edən beynəlxalq aləmdə öz orijinallığı ilə seçildi. Məhz etnik-mədəni müxtəlifliklər arasındakı münasibətlərin düzgün tənzimlənməsi işində respublikamızın spesifik sülhsevər siyasətinin nəticəsidir ki, bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş bəzi ölkələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu nəinki inkar edir, hətta bu sosial münasibətin və dövlət siyasətinin dünya üçün nümunə olduğunu təsdiqləyirlər.

Müasir dövrdə bu siyasəti Ulu Öndərin davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev layiqincə, böyük uğurla davam etdirir. Azərbaycanda multikulturalizmin ən yüksək inkişaf səviyyəsinə çatması fonunda, multikultural dəyərlərin formalaşması sayəsində yürütdüyü siyasət, ölkədə hüquqi, sivil, dünyəvi dövlət quruculuğu davam etdirilir, demokratikləşmə siyasəti dərinləşir. Xalqımızın sarsılmaz birliyi məhz milli-mənəvi dəyərlərimizə söykənir. 2020-ci il sentyabrın 27-də Ali Baş Komandanımızın əmri ilə erməni təxribatlarına qarşı aparılan əks-həmlə əməliyyatları başlanan kimi xalqımız bir yumruğa çevrilməyi bacardı. Dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı qələbə uğrunda mübarizəyə qoşuldu.

Azərbaycanda yaşayan bütün dini konfessiyalar, icmalar, etnik azlıqlar ölkə Prezidentinin ətrafında sıx birləşdiyini, Qarabağın azadlığı uğrunda ortaya qoyulan bu iradəni dəstəklədiyini bəyan etdilər. Bu, bəlkə də bəşər tarixində görünməmiş bir hadisə idi. Bir xalqın, bir millətin öz haqq savaşı uğrunda "dəmir yumruq" kimi düşmənə qarşı birləşməsi qələbəmizin təminində əhəmiyyətli rol oynadı. Hər zaman qürurla səsləndirdiyimiz çoxmillətli ölkə olmağımız bir daha əyani şəkildə öz üstünlüyünü ortaya qoydu. Düşmənə qarşı səngərdə birləşən və Azərbaycanın bütövlüyü uğrunda canını ortaya qoyan oğullarımız məhz milli-mənəvi dəyərlərimizin bizə verdiyi gücün, qüvvənin sayəsində, Prezidentimizin "Biz birlikdə güclüyük!" və "Qarabağ Azərbaycandır!" şüarlarını özləri üçün həyat fəlsəfəsinə çevirdilər. Belə bir gücün qarşısında isə heç bir düşmən davam gətirə bilməzdi ki, belə də oldu. Bu birlik, bu inam Azərbaycanın qəti və şanlı zəfəri ilə nəticələndi.

Azərbaycanın bugünkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Bu gün xalqımız Ulu Öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin ətrafında sıx birləşmişdir. 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilmişdir. Bu il həm də ölkəmizin xilasının, dövlətçiliyimizin xilasının, milli birliyimizin qorunub inkişaf etdirilməsinin 30-cu ildönümüdür. 1993-cü ildən başlanan 30 illik şərəfli yol beynəlxalq aləmdə sözü imzası qədər dəyərli olan Azərbaycanın tanınmasına, mühüm tərəfdaş kimi qəbul olunmasına yol açıb. Bu yol Qələbə yoludur. Bu yol Zəfər yoludur. 2023-cü il "Heydər Əliyev İli"nin timsalında sülh, inkişaf və tərəqqi ili olacaq.



*"Heydər Əliyev və Qarabağ" mövzusunda çıxış edən* ***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri, siyasi elmlər doktoru, professor Elçin ƏHMƏDOV*** *bildirdi ki, Ümummilli Lider Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə Azərbaycanın milli maraqlarını uca tutmuşdur. 1969-1982-ci illərdə Ümummilli Liderin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur:*

- Şuşanı zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi dəyərləndirən Heydər Əliyev XX əsrin 70-ci illərində bu şəhərdə Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə göstəriş vermişdi. Eyni zamanda Şuşada aparılan tikinti-quruculuq işləri ilə yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb-yaratdığı yerlərlə tanış olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il bu qərarlara uyğun olaraq, şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, azərbaycanlıların milli ruhu güclənirdi. Keçmiş SSRİ-nin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər eyni zamanda Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular.

Həmin illərdə Ümummilli Lider Heydər Əliyevin Şuşaya göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdı. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə kompleksi tikilmiş və Şuşada 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Heydər Əliyev şairin məqbərəsini böyük təntənə ilə açmışdır. Onun M.P.Vaqifə bu münasibəti bir tərəfdən milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Bu məqbərə eyni zamanda gözəl memarlıq abidəsi hesab edilirdi. Bununla yanaşı, Şuşaya bu səfəri zamanı Ümummilli Lider Poeziya evini açaraq Vaqif Poeziya Günlərində iştirak etmişdi.

1982-ci il iyulun 29-dan avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Ümummilli Liderin bilavasitə iştirakı ilə Şuşada görkəmli şair Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Qeyd etmək lazımdır ki, hər dəfə Şuşaya gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə görkəmli dövlət xadimi Heydər Əliyev ziyalıları Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, Şuşaya tez-tez səfərə gəlmələrini tövsiyə edirdi.

Bundan əlavə, Heydər Əliyevin göstərişi ilə Xankəndidə Pedaqoji İnstitutun açılması və orada Azərbaycan bölməsinin yaradılması Qarabağda elmi-mədəni mühitin formalaşmasına, əhalinin ali təhsil almasına əlverişli şərait yaratmışdı. Ümummilli Lider təkcə Yuxarı Qarabağın deyil, bütövlükdə Qarabağın inkişafına hər zaman diqqət yetirmiş və bu istiqamətdə mühüm addımlar atmışdır. Belə ki, Azərbaycan KP MK bürosunun 1974-cü il avqustun 6-da keçirilən iclasında Laçın şəhərinin 50 illiyinin qeyd edilməsi qərara alınmış və yubiley tədbiri böyük təntənə ilə keçirilmişdi. Bununla yanaşı, büronun 1979-cu il dekabrın 5-dəki iclasında Laçında tarix-diyarşünaslıq muzeyinin yaradılması barədə qərar qəbul edilmişdi.

1993-cü ilin ikinci yarısından, yəni Ümummilli Liderin yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizin beynəlxalq aləmdə fəallığının güclənməsi və qətiyyətli addımların atılması dahi şəxsiyyət Heydər Əliyevin siyasi iradəsi və zəngin dövlətçilik təcrübəsi sayəsində mümkün olmuşdur. 1993-cü ilin ikinci yarısından başlayaraq Ümummilli Lider Heydər Əliyev Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasətini beynəlxalq aləmə çıxararaq təcavüzkarın ifşası, ölkəmizin ərazi bütövlüyünün bərpası və regionda sülhün bərqərar olması üçün qətiyyətli addımlar atmışdır.

Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi və Qarabağın tacı olan Şuşa şəhəri artıq işğaldan azad edilmişdir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarını azad etmək üçün Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi.

2020-ci il noyabrın 8-i isə tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-dən Qarabağda başladığı və 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi. Əcdadlarımızdan bizə miras qalmış əziz, müqəddəs və qədim Şuşa şəhərinin 28 il 6 aydan sonra rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilməsi İkinci Qarabağ müharibəsinin sonrakı gedişinə və taleyinə həlledici təsir göstərərək Zəfər Günü kimi tariximizə yazıldı və Azərbaycanın hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirdi.

Azərbaycan Prezidentinin dekabrın 3-də imzaladığı sərəncama əsasən, noyabrın 8-i bayram günləri sırasına daxil edildi və hər il Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Prezidentin sərəncamında vurğulanır ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı qələbəmizin, zəfərimizin günüdür!"



***Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının üzvü Hacı Surxay MƏMMƏDLİ*** *"Heydər Əliyev və İslam dini" mövzusundakı çıxışında Azərbaycanın son onilliklər ərzində qazandığı uğurların Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti ilə birbaşa bağlı olduğunu vurğuladı. Natiqin fikrincə, Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanda hər bir sahədə olduğu kimi, dini sahədə də problemlər aradan qaldırıldı, dövlət-din münasibətləri yeni mərhələyə qədəm qoydu:*

- Müstəqilliyimizin ilk illərində Azərbaycanda din sahəsində də müəyyən pərakəndəlik yaşanırdı. 70 il ərzində öz dinindən, adət-ənənələrindən ayrı düşmüş Azərbaycan xalqında, cəmiyyətində mənəvi boşluq yaranmışdı. Ölkənin çətin illərində, Ermənistan-Azərbaycan münaqişəsinin davam etdiyi, iqtisadiyyatın tənəzzülə uğradığı bir dövrdə bu vəziyyətdən sui-istifadə etmək istəyən qüvvələr ölkədə qeyri-ənənəvi dinləri yaymağa çalışdılar. Müxtəlif xarici missioner təşkilatlarının üzvləri əsas azadlıqlar və insan haqları adı altında milli təhlükəsizliyimizə təhdid olan dini sektaları təbliğ etməyə başladılar.

Belə mürəkkəb və ziddiyyətli şəraitdə siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin yüksək dövlətçilik təcrübəsi nəticəsində bu sahədə dönüş yarandı. Həmin dövrdə Prezident məscidlərə gedir, müəyyən dini mərasimlərdə iştirak edir, dindarlarla görüşür, dövlətin bu sahədə strateji xəttini izah edirdi. Görkəmli dövlət xadimi göstərirdi ki, islam, həqiqətən də, sülh dini, mehribanlıq dinidir.

Ulu Öndərin respublikaya rəhbərlik etməsindən sonra vicdan azadlığı tam bərqərar olundu, əhalinin dindar təbəqəsinin rahat şəkildə ibadət etməsinə şərait yaradıldı. Sovet dövründə ölkədə məscid statuslu tikililərin sayı cəmi 17 idisə, bu gün ölkədə onların sayı 2166-dan çoxdur.

Heydər Əliyev 1993-cü ilin sentyabrında Təzəpir məscidində Məhəmməd Peyğəmbərin mövludu münasibətilə keçirilən mərasimdə çıxışında bildirmişdi: "Biz bir dövlət kimi Azərbaycan Respublikasında, müstəqil Azərbaycanda hər bir insanın sərbəst olaraq öz dini adət-ənənələrinə xidmət və onlardan istifadə etməsinə bütün imkanları yaradacağıq". Təbii ki, Ulu Öndər bu vədinə tam əməl etdi. Bundan başqa, Ümummilli Lider Azərbaycanda bir sıra məscidlərin, tarixi mədəniyyət abidələrinin bərpasında yaxından iştirak etdi. Bakının ən böyük məscidi olan Təzəpir məscidinin, qədim tarixi olan Bibiheybət məscidinin, Mir Möhsün ağanın ziyarətgahının bərpası bilavasitə onun himayəsi altında həyata keçirildi.

20 iyun 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin Təzəpir məscidində Aşura mərasimində çıxışı zamanı söylədiyi qiymətli kəlamları yaddan çıxarmaq olmaz. Çünki bu kəlamlar Azərbaycan xalqının milli və mənəvi kimliyinin nə qədər dərin və nə qədər qədim olduğunun sübutudur. Ulu Öndər Aşura günü bunları söyləmişdi: "Əziz bacılar və qardaşlar, əziz müsəlmanlar! Müsəlman aləmində faciəli, müqəddəs bir günün əziz xatirəsi qeyd olunur. Bu gün həzrəti Məhəmməd Peyğəmbərin nəvəsi həzrəti İmam Hüseynin qətlə yetirildiyi gündür. Biz ulu babalarımızın Vətən, torpaq, haqq, ədalət yolunda şəhid olduğu günü yad edirik. Bu münasibətlə mən bütün Azərbaycan müsəlmanlarına dərin hüznlə başsağlığı verirəm". Bu kəlamlara diqqət yetirsək görərik ki, həqiqətən də, Ulu Öndərin gözündə Azərbaycan xalqı, xüsusilə də dindar kəsim öz tarixi ənənələrinə nə qədər sadiq və nə qədər bağlıdır.

Bu gün Azərbaycanda dini zəmində münaqişələrin olmaması, insanların sərbəst olaraq öz əqidə formasını seçməsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması Ümummilli Lider Heydər Əliyevin dini sahədə balanslaşdırılmış siyasət yürütməsinin və həmin siyasətin bu gün davam etdirilməsinin nəticəsidir.

Roma papası İoann II Pavel 2003-cü ilin mayında Bakıda olarkən demişdi: "Azərbaycan üç müxtəlif dinin dinc yanaşı yaşadığı nadir bir ölkə və dini dözümlülük baxımından sabit cəmiyyətdir". Bu sabitlik gərgin əməyin, ölçülüb-biçilmiş çox incə bir siyasətin və möhkəm iradənin nəticəsidir. Bu, milli adət-ənənələrə, mənəvi-dini dəyərlərə ölkə rəhbərliyinin münasibəti fonunda yaranmış əlverişli şəraitin təbii təzahürüdür.



# Heydər Əliyev İli 2023

# qüdrətli dövlətçilik, milli inkişaf, böyük zəfər

Ümummilli Liderin siyasi kursunu inamla davam etdirən Prezident İlham Əliyev də dini sahəyə, dindarlara daim diqqət və qayğı göstərir. Dövlət başçısı islam dövlətləri ilə də yaxın dost münasibətləri qurub. Prezident İlham Əliyevin tapşırığı və şəxsi nəzarəti ilə Azərbaycanda məscidlər yenidən qurulur, bərpa olunur. Bibiheybət məscid-ziyarətgah kompleksi, Təzəpir məscidi, Heydər məscidi, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidləri, Əjdərbəy məscidi, Şamaxı Cümə məscidi, Gəncə "İmamzadə" kompleksi və onlarca digər dini abidə dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa edilərək dindarların istifadəsinə verilib. Dövlət başçısı müsəlman bayramlarını dindarlar və müsəlman ölkələrinin səfirləri ilə birgə qeyd edir. Özü və ailə üzvləri müqəddəs Kəbəni ziyarət ediblər. Bütün bu işlər bir dövlət başçısının öz ölkəsinin dini çoxluğuna, özünün də mənsub olduğu dini icmaya qayğısının təzahürüdür.

Prezident İlham Əliyev son illərdə Azərbaycanda islamın qorunması və inkişafı, eləcə də islam həmrəyliyinin gücləndirilməsi və dünyadakı islamofob dairələrə qarşı mübarizə sahəsində 50-dən artıq islam dövləti başçıları sırasında həmişə xüsusi fəallığı ilə seçilib, əsl islam təəssübkeşliyi nümayiş etdirib.

Bakıda mədəniyyətlərarası, dinlərarası dialoq üzrə bir sıra iri beynəlxalq tədbirlər keçirilib və keçirilməkdə davam edir. Paytaxtımızın 57 müsəlman ölkəsini birləşdirən IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi edən şəhər olması da təsadüfi deyil.

Beləliklə, Ulu Öndər Heydər Əliyev xalqımızın milli-mənəvi dəyərlərinin və çoxəsrlik adət-ənənələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi, dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində böyük işlər görüb. Bütün bu misilsiz işlərin nəticəsidir ki, Azərbaycan islam dünyasında vəhdətin, həmrəyliyin gücləndirilməsinə mühüm töhfə verir, müvafiq irimiqyaslı tədbirlər keçirir. Bu gün dünyaya multikulturalizm nümunəsi olan Azərbaycanda dinlərarası dialoq və əməkdaşlıq da Heydər Əliyevin müdrik siyasətinin, dini sahədə də balanslaşdırılmış siyasət yürütməsinin nəticəsidir.




***Vətən Müharibəsi Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı Anar MİRZƏYEV*** *"Vətən müharibəsi və Şanlı Qələbə" mövzusundakı çıxışında qeyd etdi ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ordu quruculuğu prosesinə hələ 1969-cu ildə respublikaya ilk dəfə rəhbər seçilməsi ilə başlamışdır. 1993-cü ildə isə onun hakimiyyətə qayıdışı ümumilikdə Azərbaycanın dövlətçilik tarixində istinad nöqtəsi oldu. Ulu Öndərin vahid komandanlığın təmin edilməsi sahəsində gördüyü məqsədyönlü tədbirlər nizami ordunun formalaşmasına səbəb olmaqla yanaşı, Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə də gətirib çıxartdı:*

- Nəticədə hərbi sahədə mərkəzləşmiş maddi-texniki təminat işində uğurlu addımlar atıldı, müxtəlif qoşun növlərinin, ayrı-ayrı hərbi hissələrin təminatı həyata keçirilməklə formalaşması başa çatdırıldı, fərarilik hallarının qarşısı alındı, orduya çağırış işi təkmilləşdirildi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi.

Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik olan ordumuz bu gün NATO standartlarına cavab verən səviyyədə formalaşmışdır. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin başladığı və Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır.

Ordu quruculuğunda mühüm rol oynayan kadr hazırlığı da ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə, Rusiya, Ukrayna, Pakistan, Çin və digər ölkələrə göndərilir. Eyni zamanda Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir.

Azərbaycanda ən müasir hərbi texnikanın, silah-sursatın istehsal olunması ilə bərabər, eyni zamanda xarici dövlətlərdən də alınması ilə bağlı fəaliyyətlər davam etdirilir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Təbii ki, Azərbaycan Ordusu gücünü 2016-cı ildə qazanılmış Aprel zəfəri, 2018-ci ildə Günnüt qalibiyyəti və eləcə də 2020-ci ilin sentyabr ayında ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə apardığı "Vətən müharibəsi" - beşinci nəsil müharibə uğurları ilə də isbatlayıb. Bu gün Azərbaycan əsgəri dövlətin qayğısını hər zaman üzərində hiss edərək, xalqdan güc alaraq torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır. Regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.

Prezident İlham Əliyevin hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair sərəncamları dövlətin orduya qayğısının geniş ölçülü təzahürüdür. Bu qayğı dönməzdir, daimidir. Azərbaycanda ordu quruculuğu davamlı prosesdir. Bu proses ordunun döyüş qabiliyyətinin, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə xidmət edir.

Azərbaycan Silahlı Qüvvələri 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən müharibədə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə bütün döyüş əməliyyatlarını yüksək səviyyədə həyata keçirməklə mənfur düşməni diz çökdürdü, şanlı zəfər qazandı və tarixi ədaləti, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Ötən hər gün bizi Vətən müharibəsindən zaman etibarilə uzaqlaşdırsa da, hərbi qulluqçularımızın sücaəti, qanı, canı bahasına qazanılan bu qələbə hər bir azərbaycanlı üçün son dərəcə əziz və qiymətlidir. Azərbaycan xalqı 30 il ərzində torpaqlarımızın işğaldan azad ediləcəyinin ümidi ilə yaşamışdı və bizdən qələbə müjdəsini gözləmişdi.



Arzularımız 44 günlük Vətən müharibəsində çin oldu və biz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən, ölkəmizin milli gücünün artırılmasına hesablanan ardıcıl siyasət nəticəsində böyük qələbənin sevincini yaşadıq. Əlbəttə, Vətən müharibəsində şanlı qələbəmiz asanlıqla əldə olunmamışdır. Məkrli düşmən tərəfindən onilliklər ərzində işğal olunmuş ərazilərdə qurulmuş möhkəm istehkamlar qəhrəman döyüşçülərimiz tərəfindən dağıdılaraq, döyüş meydanlarında qan tökərək, şəhidlər verərək, fədakarlıq edərək ərazi bütövlüyümüz bərpa edildi. Qəhrəman döyüşçülərimiz 30 il ərzində "biz döyüşməyə hazırıq, lazım gəlsə ölümə də gedərik" ifadəsinin yalnızca söz xatirinə deyilmiş olmadığını sübut etdi. Çünki onlar öz əzəli və əbədi torpaqlarımız uğrunda döyüşürdü. Onların döyüş əzmi bütün dünyaya səs saldı.

Qələbəmizin əldə olunmasında Vətənə canını fəda edən şəhidlərimiz, öz sağlamlıqlarını qurban verən qazilərimiz, müharibənin dəhşətləri içərisində xəsarət almış oğullarımızdan əlavə bu cəsur oğulları yetişdirən valideyinlərin, heç nəyə baxmadan onları gözüyumulu cəbhəyə yola salan mərd xanımların, ata yolu gözləyən uşaqların da böyük rolu var idi.

Ön cəbhədə hərbçilərimizin şücaəti, ordumuzun rəşadəti, arxa cəbhədə mülki insanlarımızın, bütövlükdə isə xalqımızın həmrəyliyi nəticəsində qələbə çaldıq. Bir daha dünyaya sübut etdik ki, bu torpaqlar əzəli və əbədi Azərbaycan torpaqları olmuşdur. "Dəmir yumruq" əməliyyatı bir daha göstərdi ki, Qarabağ Azərbaycandır.



***"Heydər Əliyev və demokratiya" mövzusunda çıxış edən Azərbaycan Dillər Universitetinin müəllimi, Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin əməkdaşı Elşən MƏCİDOV*** *qeyd etdi ki, Ulu Öndər Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməyə müvəffəq oldu. Həmçinin xalqın gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməyi bacardı:*

- Heydər Əliyev Azərbaycana qayıdanda ölkədə siyasi hərc-mərclik hökm sürürdü. Cəmiyyət fərqli siyasi, ideoloji, etnik, dini qruplara bölünüb hakimiyyət uğrunda mübarizə aparırdı. Hər bir qrup qarşısına xalqın rifah və azadlığını yox, maddi və mənəvi nemətlərin mənimsənilməsini məqsəd qoymuşdu. Xalq, cəmiyyət və dövlətin birləşməsi üçün yeni ideya və liderə ehtiyac var idi.

Yeni lider Heydər Əliyev, yeni ideya isə azərbaycançılıq ideologiyası oldu. Xalqı parçalayan əvvəlki ideyalardan fərqli olaraq, azərbaycançılıq ideologiyası insanları bölmür, əksinə, xalqı vahid, cəmiyyəti isə möhkəm edir. Bu ideologiya Heydər Əliyevin hakimiyyəti dövründə qəbul edilmiş Konstitusiyada da öz əksini tapmış oldu.

Bernard Şouya görə ölkənin demokratiya səviyyəsi seçicilərin ibarət olduğu insan materialından yüksək ola bilməz. Başqa sözlə desək, demokratiya savadlı vətəndaşlar və bacarıqlı elita, onlar isə öz növbəsində əlçatan təhsil sistemini tələb edir. Heydər Əliyevə görə hər bir gənc həqiqi vətəndaş olmaq üçün məktəbdə milli təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini yaxşı bilməlidir. Heydər Əliyevin hakimiyyəti illərində dövlət hər bir kəsi pulsuz icbari ümumi orta təhsillə təmin etdi və maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərə təhsillərini davam etdirmələri üçün şərait yaradıldı.

Demokratiya həm də dünyəvilik tələb edir. Din dövlətdən ayrı olmalı, hakimiyyət isə insanlar üçün "cənnəti" yerdə yaratmaqla məşğul olmalıdır. Heydər Əliyevin apardığı siyasət dinin dövlətdən ayrılmasını, dini etiqadların qanun qarşısında bərabər olmasını və təhsil sisteminin dünyəvi xarakter daşımasını təmin etdi.

Heydər Əliyevin hakimiyyəti illərində demokratiya və insan haqları istiqamətində həyata keçirilmiş ən vacib islahatlardan biri ölüm hökmünün ləğv edilməsi idi. Azərbaycanda ölüm cəzasının tədbiqi 1993-cü ildə məhdudlaşdırılmış, 1998-ci ildə isə ləğv edilmişdir. Bununla da Azərbaycan Şərqdə ilk dəfə ölüm cəzasını ləğv edən ölkə olmuşdur.

Demokratiya xalqın hakimiyyətə, hakimiyyətin isə xalqa doğru addımlamasıdır. Demokratik cəmiyyətlərdə qərarların böyük əksəriyyəti aşağı, xalqa ən yaxın səviyyədə, yəni bələdiyyə səviyyəsində qəbul edilir. Azərbaycanda bələdiyyə hakimiyyətinin inkişafı da Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin hakimiyyəti dövründə bələdiyyə sahəsini tənzimləyən 22 qanun və çoxlu sayda normativ akt qəbul edilmişdir. Heydər Əliyevin apardığı siyasət bələdiyyələrə mülkiyyətə sahibolma, vergitutma, yerli büdcə formalaşdırma, sosial-iqtisadi proqramlar həyata keçirmək kimi geniş səlahiyyətlər bəxş etmişdir.

Demokratiyanı azad sahibkarlıq olmadan təsəvvür etmək mümkün deyil. Şəxsi mülkiyyətin olmaması iqtisadiyyatın, bütün mülkiyyətin dövlət əlində cəmləşməsinə gətirir. Şəxsi mülkiyyətin insana verdiyi müstəqillik insanı daha çox müstəqil, daha azad olmağa stimullaşdırır. Heydər Əliyevin apardığı siyasət nəticəsində Azərbaycanda şəxsi mülkiyyət, azad sahibkarlıq və azad bazar inkişaf etdi.

Demokratiya həmçinin siyasi plüralizm, vətəndaş cəmiyyətinin inkişafı və insan haqlarının beynəlxalq standartlara uyğunlaşdırılması deməkdir. Heydər Əliyevin hakimiyyəti illərində ideya-siyasi fikrin fərqli spektrini özündə ehtiva edən 25 siyasi partiya Azərbaycanda qeydiyyata alınmışdır. Azərbaycanda QHT-lərin inkişafı ilə bağlı çoxlu sayda dövlət proqramları qəbul edilmişdir. 1997-ci ildə Azərbaycan BMT-nin İnkişaf Proqramı ilə QHT sektorunun təsisi və inkişaf etdirilməsi sahəsində əməkdaşlığa başlamışdır. İnsan hüquqları üzrə müvəkkil (ombudsman) institutunun yaradılması və Azərbaycanın Avropa Şurasına daxil olması da Heydər Əliyevin hakimiyyəti dövrünə təsadüf etdi.

Demokratiyaya gedən yol gender bərabərliyindən keçir. Heydər Əliyev ictimai-siyasi həyatda qadınların rolunun artırılmasına yönələn çoxlu sayda fərmanlar imzalamış və beynəlxalq konvensiyalara qoşulmuşdur. Bütün bu islahatlar Azərbaycanda gender bərabərliyinin və ümumilikdə demokratiyanın bərqərar olması istiqamətində atılan çox mühüm addımlar olmuşdur.



***Azərbaycan Dövlət İqtisad Universitetinin 4-cü kurs tələbəsi Nigar HÜSEYNZADƏ*** *"Heydər Əliyev və gənclər siyasəti" mövzusundakı çıxışında qeyd etdi ki, Heydər Əliyev şəxsiyyəti öyrənildikcə bitməyən, tükənməyən bir fundamental məktəbdir:*

- "Mən həmişə fəxr etmişəm ki, azərbaycanlıyam" deyən Ulu Öndər xalqımızın xoşbəxt gələcəyi yolunda misilsiz xidmətlər göstərmişdir. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi", bugünkü sabitlik, ordu quruculuğu, ölkəmiz ətrafında düşmənin yaratdığı informasiya blokadasının dağıdılması və digər nailiyyətlər Heydər Əliyevin töhfələridir. Əgər indi Ulu Öndərin siyasi varisi, layiqli davamçısı İlham Əliyev müstəqil Azərbaycanın siyasi, iqtisadi və mədəni inkişafı istiqamətində həlledici əhəmiyyətə malik işlər görürsə, deməli, Heydər Əliyev ideyalarının həyata keçirilməsi başlıca vəzifə kimi öz aktuallığını saxlayır və xalq da öz Prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasəti dəstəkləyir. Məhz Heydər Əliyevin bu töhfəsinin sayəsində biz bütün məqsədlərimizə addım-addım yaxınlaşırıq və hətta çoxuna çatmışıq.

Ulu Öndər savadı, qabiliyyəti, istedadı ilə seçilən gənclərə qayğı və diqqət göstərirdi. Cəmiyyətin aparıcı qüvvəsi gənclərdirsə, deməli, inkişaf və inteqrasiya məhz onlarla bir addımlayır. 1999-cu ildə "Dövlət gənclər siyasəti haqqında" fərmanın imzalanması, 2005-ci ildən bu günə qədər qəbul edilmiş 3 dövlət proqramı, gənclər üçün bölgələrdə 40-a yaxın gənclər mərkəzlərinin yaradılması, olimpiya idman komplekslərinin açılması gənclər üçün yaradılan imkanların sadəcə kiçik bir hissəsidir.

Hələ sovet hakimiyyəti illərində Ümummilli Liderimiz yüzlərlə Azərbaycan gəncinin ittifaqın bir çox mərkəzi şəhərlərində təhsil almalarına şərait yaratmışdır. Azərbaycanlı gənclər keçmiş SSRİ-nin aparıcı ali məktəblərində müxtəlif ixtisaslar üzrə ali təhsil alıb və savadlı kadr kimi vətənə qayıdaraq fəaliyyət göstərməyə başlayırdılar. Həmin gənclərin böyük bir qismi bu gün müstəqil Azərbaycan Respublikasının dövlət işlərində yaxından iştirak edir, elmimizin, səhiyyəmizin, mədəniyyətimizin inkişafında əvəzsiz xidmət göstərirlər. Heydər Əliyevin təşəbbüsü və uzaqgörən siyasəti nəticəsində 1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması bu təhsil ocağında ordu üçün yüzlərlə, minlərlə peşəkar hərbçi kadrlar hazırlanmasına imkan vermişdi. Hazırkı dövrdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edən zabitlərin böyük əksəriyyətini həmin liseydə təhsil almış mütəxəssislər təşkil edir. Onun məzunları Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunələri göstərmişdi.

Azərbaycan xalqı misilsiz qələbə sevinci, yüksək fəxarət duyğuları yaşayır. 44 günlük Vətən müharibəsində qazanılan zəfərlə Silahlı Qüvvələrimiz Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son qoydu. Torpaqlarımızı azad etməklə həm də bütün dünyada yenidən tanındıq, özü də bu dəfə qalib dövlət, qalib xalq kimi. İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun üstünlüyü yalnız müasir silahlarla döyüşə girməsində deyildi. Gənclər bir yumruq kimi birləşərək, Azərbaycan dövlətinin və xalqının mənəvi gücünü hər an hiss edərək, ürəklərində Vətən sevgisi ilə döyüşə atılırdılar. Azərbaycan gənci Ali Baş Komandanına güvənirdi, inanırdı, onun ətrafında birləşmişdi, veriləcək əmrləri yerinə yetirməyə tam hazır idi. Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Azərbaycan yalnız öz möhtəşəm hərbi gücünü göstərərək işğal altında qalan ərazilərini azad etmədi, eyni zamanda Azərbaycan gənclərinin dövlətinə və xalqına sədaqətini dünyaya nümayiş etdirdi.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasəti bu gün möhtərəm cənab Prezident İlham Əliyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Biz gənclər də bizim üçün yaradılan bütün imkanlar üçün təşəkkür edir, Azərbaycan Respublikasının vətəndaşı olduğumuz üçün fəxr edirik.

***Konfransa yekun vuran Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar ƏZİZOV*** *qeyd etdi ki, tədbirdə çox dolğun məruzələr, səmimi fikirlər, duyğulu xatirələr səsləndi. Bütün çıxışların ana xətti "Heydər Əliyev və Azərbaycan" vəhdətinə, birliyinə köklənmişdi. Bir daha aydın oldu ki, qədirbilən xalqımız Heydər Əliyevin tariximizdə və taleyimizdə oynadığı müstəsna rolu heç vaxt unutmayacaq, onun vəsiyyətlərinin həyata keçməsinə səfərbər olacaq:*

- Ulu Öndərin ən böyük vəsiyyəti artıq həyata keçib. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında qəhrəman ordumuz Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad edib, qələbə bayrağımız Şuşada dalğalanır.

Möhtərəm Prezident İlham Əliyev Qarabağın və Şərqi Zəngəzurun tezliklə cənnətə çevriləcəyini bəyan edib və bu proses artıq başlayıb. 30 illik işğal nəticəsində tamamilə dağıdılan bu ərazilər yenidən dirçəlir, qurulur, abadlaşır.

Çox sevindiricidir ki, Qarabağın və Şərqi Zəngəzurun quruculuğunda yenə də daim bu torpaqların böyük himayədarı olmuş Heydər Əliyevin şərəfli adı, müqəddəs imzası var. Ulu Öndərin adını daşıyan fond bu prosesdə yenə də ön sıradadır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu işğaldan azad edilmiş ərazilərdə tarixi-mədəni irsin bərpasında, sosial-humanitar infrastrukturun yaradılmasında, quruculuq və abadlıq işlərində böyük fədakarlıq göstərir. Hörmətli Mehriban xanımın bu dəyərli fəaliyyəti Ulu Öndərin ruhuna böyük ehtiram olmaqla bərabər, həm də onun ideyalarının, amallarının əbədi yaşayacağını nümayiş etdirir.

Heydər Əliyev "Azərbaycan dünyaya günəş kimi doğacaq" deyirdi. Bu arzu indi tam reallaşıb. Prezident İlham Əliyevin qüdrətli liderliyi ilə Azərbaycan qlobal dünyada, xüsusən də Avrasiya məkanında mühüm iqtisadi-siyasi aktor, güc mərkəzi kimi qəbul olunur.

Bu il 30-cu ildönümünü qeyd edəcəyimiz Milli Qurtuluş missiyasının məntiqi davamı olaraq Azərbaycan hazırda tarixinin ən qüdrətli dövrünü yaşayır.

Nailiyyətlərimizi, qələbələrimizi saymaqla bitməz. Ancaq bunlar bizdə arxayınçılıq yaratmamalıdır. Dünəni, qurtuluşdan öncəki ağır dövrü unutmamalıyıq və bunları gənc nəslə aşılamalıyıq. Onlar Heydər Əliyev yolunu, dövlətçilik xəttini, ideoloji əsaslarını kreativ formada dərindən öyrənməli və bu irsin Azərbaycanın əbədi qurtuluşu olduğunu bilməlidirlər. Bu yönümdə hər birimizin üzərinə xüsusi vəzifələr düşür.

Bir tarixçi olaraq düşünürəm ki, dünyanın inkişaf etmiş dövlətləri və xalqları necə ki əldə etdikləri nailiyyətlərinə görə əsrlər keçsə belə öz qurucularına, "bani atalarına", xilaskarlarına borcludurlar, Azərbaycan xalqı da daim öz qurucu liderinə - Ulu Öndər Heydər Əliyevə minnətdar olacaq və onun adını əbədi yaddaşına həkk etdirəcək.

Heydər Əliyevin müdrik bir fikri var idi: "Nə qədər Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"

Bəli, Azərbaycan var olduqca, Heydər Əliyev də var olacaq və hər zaman daha uğurlu sabahlarımıza düzgün yol göstərəcək.

Bizlər - Heydər Əliyev kursunun sədaqətli əsgərləri möhtərəm Prezident İlham Əliyevin ətrafında daha sıx birləşərək, onun yolu ilə irəliləyəcək, Azərbaycanı onun müəyyənləşdirdiyi hədəflərə çatdıracağıq.

Ulu Öndərin əbədiyaşar ruhu qarşısında baş əyir, bir daha ehtiramımızı bildiririk.

**"AZƏRBAYCAN"**

## 8 Mart Beynəlxalq Qadınlar Günüdür

# Dünyanı mehribanlıq xilas edəcək

Mehriban xanım Əliyeva... Azərbaycan qadınının incəlik, zəriflik, gözəllik təcəssümü... Mərhəmətli, şəfqətli, nəcib əməllər sahibi... Yer üzündə barışığın, dostluğun, insanlığın, yaşamın var olmasını özünün qayəsi sanan bəşəri dəyərlərə malik sülh elçisi...



"Mən tam əminəm ki, mehribanlıq və səxavətlilik dünyamızı daha da yaxşılaşdıra bilər. Mən inanıram ki, humanizm, mərhəmət və sevgi bizim həyatımızı daha da xoşbəxt edir" deyən birinci xanım, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın həyat fəlsəfəsinin əsasını humanizm və insanpərvərlik məfkurəsi təşkil edir.

Böyük və mərhəmətli qəlb sahibi Mehriban xanım hazırda dünyamızda baş verən çox sayda münaqişə, müharibə, pandemiya, dəhşətli təbii fəlakətlər fonunda sülh və əmin-amanlığın, xeyriyyəçiliyin təmini üçün çoxşaxəli və yorulmaz fəaliyyət göstərir. İnsanların xoşbəxt olmaları, firavan yaşamaları üçün onlara həyatın bütün sahələrində kömək etmək üçün əlindən gələni edir.

Ulu Öndərin güclü Azərbaycan naminə amallarını, ideyalarını layiqincə gerçəkləşdirən Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın rəhbərliyi altında müstəsna xeyriyyəçilik fəaliyyəti göstərir. Ötən 19 il ərzində fond bu istiqamətdə çoxsaylı irimiqyaslı layihələr reallaşdırıb, respublikamızda və müxtəlif ölkələrdə xeyriyyə tədbirləri həyata keçirib. Ən mühümü isə odur ki, Mehriban xanımın rəhbərlik etdiyi fond ilk gündən insanların qarşılaşdıqları çətinlik və problemlərlə bağlı könül rahatlığı ilə üz tutacaqları ümid və mərhəmət ünvanına çevrilib.

Reallıq da ondan ibarətdir ki, sosial statuslarından asılı olmayaraq köməyə, qayğıya ehtiyac duyan vətəndaşlarımız daim Mehriban xanımın şəfqətini, maddi və mənəvi dayağını üzərlərində hiss ediblər. Tənha ahıllarımız, müxtəlif xəstəliklərə mübtəla olan insanlarımız, təbii fəlakətdən zərər çəkən vətəndaşlarımız, aztəminatlı ailələrimiz birbaşa Mehriban xanımın xeyirxahlıq çətirinə sığınıblar.

Bayramlarda, əlamətdar günlərdə, hətta öz ad günündə belə Mehriban xanımı bu vətəndaşlarımızın yanında görmək artıq hamımız üçün adi hala çevrilib. İnsanlara bir zərrə qədər də olsa sevinc bəxş etməyi, onların üzünü güldürməyi birinci xanım böyük xoşbəxtlik sayır və bunu özünün mənəvi borcu hesab edir.

Heydər Əliyev Fondu tərəfindən inşa olunan yüzlərlə məktəb, uşaq bağçası, körpələr evi Mehriban Əliyevanın sosial təşəbbüslərinin təcəssümüdür. Kimsəsiz uşaqlara qayğı göstərməklə, autizm və daundan əziyyət çəkən uşaqların müalicəsini diqqət mərkəzində saxlamaqla Mehriban Əliyeva həm də milli genefondumuzu qoruyur.

Azərbaycanın birinci xanımının örnək götürüləsi bu humanizm əməlləri təkcə ölkəmizin sərhədləri daxili ilə məhdudlaşmır, qlobal xarakter daşıyır. Fondun Pakistanda, Vatikanda və digər dövlətlərdə gördüyü işlər, həyata keçirdiyi əzəmətli layihələr böyük minnətdarlıqla qarşılanır. Bu mənada Mehriban Əliyeva yalnız öz ölkəsində deyil, onun hüdudlarından kənarda da böyük xeyriyyəçi, qayğıkeş insan kimi tanınır. Bütün bunlar həm də Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxından təbliğ edir, xalqımızın böyük mənəviyyata malik olduğunu dünyaya nümayiş etdirir.

Birinci vitse-prezident kimi 6 illik fəaliyyəti dövründə də o, ölkəmizin inkişafı, xalqımızın rifahı və firavanlığı naminə əvvəlki illərdə gördüyü işləri layiqincə davam etdirib. Mehriban Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyətinin elə ilk vaxtlarında həyata keçirdiyi tədbirlər də məhz onun prioritet istiqamətini - sosial sferanı əks etdirdi. Bu dövrdə də əhalinin həssas təbəqəsi, ahıllar, müxtəlif xəstəliklərdən əziyyət çəkənlər, müharibə əlilləri, qazilər, şəhid ailələri, keçmiş məcburi köçkünlər Birinci vitse-prezident Mehriban Əliyevanın daim diqqət mərkəzində olublar, onun qayğısı ilə əhatə ediliblər.

Koronavirus pandemiyasının şiddətli dövründə Azərbaycan xalqı Mehriban Əliyevanın qayğıkeşliyini, vətənpərvərliyini, yüksək mənəvi ideallara malik olduğunu bir daha gördü. O, Heydər Əliyev Fondunun imkanlarını tam səfərbər edərək respublikamızda koronavirusla mübarizəyə böyük töhfələr verdi, həmçinin yaşlı insanlara dəstək oldu, tənha ahılların sosial qayğılarını öz üzərinə götürdü .

Azərbaycanın möhtəşəm zəfəri ilə başa çatan 44 günlük Vətən müharibəsi isə bir daha Mehriban Əliyevanın vətən və xalq sevgisini nümayiş etdirdi. Qürur hissi ilə qeyd edilməlidir ki, həmin günlərdə və ondan sonra Birinci vitse-prezident Mehriban Əliyeva döyüşlərdə ağır yaralanmış qəhrəmanlarımızın müalicəsini və sağlam həyata dönmələrini şəxsi nəzarəti ilə həyata keçirdi.

Vətən savaşında canını torpağımızın azadlığı uğrunda qurban verən oğullarımızın analarının, həyat yoldaşlarının, övladlarının ən böyük dayağı da Mehriban Əliyeva oldu. Torpaqlarımızın azadlığı uğrunda sinələrini düşmən gülləsinə sipər edən qəhrəman şəhidlərimizin kədərini böyük qüssə ilə dilə gətirən Mehriban xanım deyirdi: "Bu gün mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm".

Müharibə günlərində öz missiyasını layiqincə yerinə yetirən Mehriban Əliyeva həm də Azərbaycanın haqq və ədalət uğrunda apardığı savaşın reallıqlarını fədakarlıqla dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Bu gün də şəhid ailələrinə, müharibə əlillərinə, qazilərə diqqət və qayğı Mehriban xanım Əliyevanın fəaliyyət gündəliyində duran ən ümdə məsələlər sırasındadır. Mehriban Əliyevanın himayəsi və nəzarəti ilə Vətən müharibəsində yaralanan döyüşçülərimiz Heydər Əliyev Fondu tərəfindən yüksəktexnologiyalı protezlərlə təmin olunur, onlar xarici ölkələrin səhiyyə müəssisələrində müalicəyə göndərilir, şəhid ailələrinə hərtərəfli kömək edilir.

Hazırda Prezident cənab İlham Əliyevin qətiyyəti və quruculuq əzmi ilə işğaldan azad olunmuş torpaqlarımız sürətlə bərpa edilir. Olduqca qürurvericidir ki, çox qısa müddətdə dövlətimiz Qarabağ və Şərqi Zəngəzurda böyük quruculuq işləri aparır, hətta bir zamanlar hamımıza möcüzə kimi görünən qayıdış da artıq gerçəkləşdirilib, doğma sakinləri Zəngilanın Ağalı kəndinə köçürülüb.

Azad olunmuş ərazilərimizdə görülən işlərdə Heydər Əliyev Fondunun da böyük payı var. Xüsusilə qeyd edilməlidir ki, Qarabağ və Şərqi Zəngəzurdakı bütün maddi-mədəni irsimiz Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin təbirincə desək, Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə bərpa olunur. Bu layihələrlə Mehriban Əliyeva Qarabağ və Şərqi Zəngəzurun bərpasına özünün layiqli töhfələrini verir. Bütün bunlar həm də Mehriban Əliyevanın milli-mənəvi və tarixi dəyərlərimizə bağlılığının təcəssümüdür. O cümlədən Şuşanın mədəni ənənələrinin bərpa edilməsi Mehriban Əliyevanın vətənpərvərliyinin bariz göstəricisidir.

Torpaqlarımız işğaldan azad edildikdən sonra xalqımız məhz Mehriban xanım Əliyevanın Prezident İlham Əliyevlə birlikdə o yerlərə səfər zamanı çəkib paylaşdığı videolarla vandal düşmənin ərazilərimizdə törətdiyi vəhşiliklərin şahidi oldu. Cənab Prezidentlə birgə Mehriban xanımın müqəddəs məscidlərimizi, o cümlədən düşmənin viran qoyduğu Ağdamdakı Cümə məscidini ziyarəti zamanı "Quran" hədiyyə etməsini görərək, Allaha şükür etdik ki, torpaqlarımız azad olunub və artıq Qarabağ və Şərqi Zəngəzurun yeni xoşbəxt günləri başlayır.

Ötən ay Türkiyədə baş verən dəhşətli zəlzələ hər birimizi dərindən kədərləndirdi. İlk gündən Azərbaycan dövləti qardaş Türkiyəyə yardım əlini uzatdı. Bu prosesin də önündə məhz Mehriban Əliyevanın rəhbərilyi ilə Heydər Əliyev Fondu oldu. Mehriban xanım Əliyevanın tapşırığına əsasən, Heydər Əliyev Fondu Türkiyəyə humanitar yardım təyyarələri göndərdi. Qardaş Türkiyə üçün bu həssas və çətin günlərdə də Mehriban Əliyeva xeyirxahlıq, qayğıkeşlik kimi nəcib bir nümunə ortaya qoydu.

Təbii ki, bu maddi yardımlar həm də qardaş xalqa böyük mənəvi dəstək idi. O ağır zamanlarda bütün Azərbaycan vətəndaşlarının qardaş ölkəyə yardım üçün səfərbər olması Mehriban xanımın nəzərindən yayınmamış, onu dərindən duyğulandırmışdı. Birinci xanım buna görə paylaşım edərək xalqımıza təşəkkür etmiş, "Azərbaycanlı olduğuma görə çox qürurluyam" demişdi...

Elə biz də Azərbaycan xalqı olaraq Sizin timsalınızda nəcib hisslərə, zəngin mənəviyyata sahib birinci xanımımız olduğu üçün çox qürurluyuq, Mehriban xanım!

Qürurla vurğulayırıq ki, həyata keçirdiyiniz insanpərvərlik missiyanızın yalnız bir amalı var, Yer üzündə sülhə, dostluğa, tolerantlığa, multikultural dəyərlərə xidmət etmək...

*Böyük amallar uğrunda zərif gücünüzlə apardığınız əzmkar mübarizənizdə hər zaman Sizə uğurlar arzulayırıq. Bayramınız mübarək, əziz Mehriban xanım!*

**Günel HƏMİDLİ,**
***hüquq üzrə fəlsəfə doktoru***

# Prezident İlham Əliyev qadın siyasətinin mükəmməl nümunəsini yaradıb

*Əvvəli 1-ci səh.*

Odur ki, məsləhətlər, nəsihətlər verməklə deyil, nümunə olmaqla balalarına yol göstərib. Böyük-kiçik yeri bilməsi, əlindən gələn qədər qohum-qonşuya kömək etməsi də sözdən daha təsirli tərbiyə üsulu olub. Azərbaycan qadını ailəsinin dayağı hesab edilib. Yalnız evdə bütün günü çalışmaqla, yemək bişirmək, təmizlik, uşağa baxmaq və başqa məişət işlərini üzərinə götürməyib. Zaman gəlib ki, qadın həyat yoldaşı, qardaşları, hətta övladları ilə birlikdə düşmənə qarşı savaşa qalxıb. Dövrünün silahlarından məharətlə istifadə etməyi öyrənib. At minib, ox atıb, qılınc çalıb, silah tutub, güllə yağdırıb...

Müxtəlif dövrlərdə ağlı, dərrakəsi, düşüncəsi, siyasi bacarığı ilə dövlət quruculuğunda böyük rol oynamış qadınlarımız olub. Elə qadınlarımız da olub ki, elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə qazandığı nailiyyətlərlə yalnız öz adını deyil, mənsub olduğu Azərbaycan xalqının adını tanıdıblar, ucaldıblar. Müdrik hökmdar, cəsur sərkərdə, istedadlı şair, yazıçı, rəssam, bacarıqlı elm xadimi olan qadınlarımızın adları tariximizin səhifələrinə əbədi yazılıb. Prezident İlham Əliyevin 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrikində vurğuladığı kimi, xalqımız çoxəsrlik tarixinin bütün dövrlərində qadını ülviyyətin təcəssümü saymış və ona hər zaman dərin ehtiram göstərmişdir: "Azərbaycan qadınları keçmişimizin taleyüklü, həlledici anlarında vəzifələrinin öhdəsindən daim layiqincə gəlmişlər. Bəşər mədəniyyəti xəzinəsinə töhfəmiz olan milli-mənəvi dəyərlərimizin bir bütöv halında qorunub saxlanılmasında onların misilsiz xidmətləri vardır".

## Cəmiyyətin inkişafında qadınların rolu artır

Qadınlarımız müasir dövrdə müstəqil Azərbaycanın inkişafına dəyərli töhfələr verirlər. Hələ 1998-ci ildə Ümummilli Lider Heydər Əliyev cəmiyyətdə qadınların mövqeyini möhkəmləndirmək üçün "Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında" fərman imzaladı. Həmin il - 1998-ci il sentyabrın 14-də, 26 illik fasilədən sonra Azərbaycan Qadınlarının I Qurultayı keçirildi. Ulu Öndər Heydər Əliyev qurultayda çıxışında dedi: "Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti ilə, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə, millətinə, torpağına olan hədsiz məhəbbəti və gözəlliyi, Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır. Ancaq bununla bərabər, əsrlər boyu Azərbaycan qadınının üzərinə böyük zəhmətlər düşmüşdür. O zəhməti də qadın həmişə mərdliklə, cəsarətlə çəkmişdir və heç vaxt bu zəhmətdən inciməmişdir. Tarixi keçmişimizdə Azərbaycan qadınının görkəmli nümayəndələri olmuşdur. Onların adları dünən də, bu gün də burada çəkilibdir. Ancaq bununla yanaşı, Azərbaycan qadını əsrlər boyu bir çox hüquqlardan məhrum olmuşdur". Heydər Əliyev o zaman başa çatmaqda olan XX əsrin Azərbaycan qadını üçün böyük nailiyyətlər, hadisələr, böyük dəyişikliklər əsri olduğunu diqqətə çatdırdı: "Ən böyük nailiyyət ondan ibarətdir ki, Azərbaycan qadını azadlığa çıxmışdır. Azərbaycan qadınının emansipasiyası tarixi bir hadisə, böyük inqilabdır. İndi qadınlar da bugünkü vəziyyətlərinə öyrəşiblər, biz hamımız da öyrəşmişik. Bəzən keçmişi unudarkən elə gəlir ki, həmişə belə olubdur və belə də olmalı idi. Həqiqətən belə olmalı idi, Azərbaycan qadını buna layiqdir".

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan qadın siyasətinin mükəmməl nümunəsini isə Prezident İlham Əliyev yaratmışdır. Bu gün cəmiyyətimizdə qadınların rolunun daha da artdığını görürük. Ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni həyatında qadınlarımız fəal iştirak edirlər. Hansı sahəyə nəzər salsaq, onları orada öz peşəsini, ixtisasını dərindən bilən kadrlar arasında görürük. İstedadlı şair, yazıçı, rəssam, bəstəkar, bacarıqlı həkim, müəllim, mühəndis, alimdirlər. Respublikamızda həm kənd təsərrüfatının, həm də sənayenin inkişafında qadınlarımızın əməyi böyük və təqdirəlayiqdir.

Qadınlar ölkənin bütün ali orqanlarında əzmlə, məsuliyyətlə çalışırlar. Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə istər ölkəmizdə, istərsə də vətəndən uzaqlarda - Amerikada, Avropanın bir çox ölkəsində, Müstəqil Dövlətlər Birliyi ölkələrində, müsəlman ölkələrində bir sıra sosial, elm və təhsil, İKT, mədəniyyət sahələrində layihələr həyata keçirilir.

Mehriban Əliyevanın Azərbaycan mədəniyyətinin, musiqisinin, incəsənətinin, ədəbiyyatının, tarixinin dünyada tanınmasında rolu danılmazdır.

## Bayramlar içində ən gözəl bayram

Heydər Əliyev 8 Mart Beynəlxalq Qadınlar bayramı ilə bağlı deyib: "Bu bayram, doğrudan da, bizim bütün bayramlar içərisində ən gözəl bayramdır. Çünki bu qadınlara həsr olunubdur. İnsan cəmiyyətində qadının rolu, əhəmiyyəti məlumdur. Qısaca onu demək olar ki, qadınsız insan yoxdur, qadınsız həyat yoxdur. Qadınlar cəmiyyətdə, həyatda göstərdikləri bütün başqa xidmətlərlə yanaşı, ona görə ən yüksək qiymətə layiqdirlər ki, onlar anadırlar..."

Ümummilli Lider Heydər Əliyevin 2000-ci ildə imzaladığı "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmandan irəli gələn məsələlərin həlli istiqamətində məqsədyönlü işlər həyata keçirilir. Prezident İlham Əliyevin 6 fevral 2006-cı il tarixli fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyətləri daha da genişləndirilib, komitə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi statusunu alıb. Bu qurum həyata keçirilən sosialyönümlü dövlət siyasətinə uyğun olaraq qadınların işlə təmin olunması, məşğulluq strategiyasının həyata keçirilməsi, gender bərabərliyinin qorunması, uşaq hüquqlarının müdafiəsi və digər istiqamətlərdə mühüm işlər görür.

Sürətlə dəyişən, qloballaşan dünyada milli-mənəvi zənginliklərimizin, əxlaqi-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında qadınlarımızın rolu əvəzsizdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ədəbi-ictimai və mədəni-elmi fikir tariximizdə iz buraxmış maarifpərvər sələflərinin adlarını uca tutan və nəsillərin varisliyi prinsipinə sadiq qalaraq onların açdıqları yolda inamla irəliləyən Azərbaycan xanımları bu gün də dolğun sosial-mədəni fəaliyyətləri ilə cəmiyyətimizin inkişafına xüsusi dinamizm və ahəngdarlıq qatırlar.

Otuz ilə yaxın davam edən Ermənistanın işğalına 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində son qoyan, düşməni ağır məğlubiyyətə uğradaraq Vətən torpaqlarını əsarətdən xilas edən Azərbaycan oğullarının anaları da övladları kimi qəhrəmandırlar. Ona görə ki, zamanı gələndə Vətən üçün sinəsini düşmən güllələrinə sipər etməyi bacaran, dövlətinə dayaq, xalqına arxa olan oğullar böyüdüb, tərbiyə ediblər. Övladları dəhşətli müharibədə şəhid olan, yaxud sağlamlığını itirən və ən böyük təsəllini Vətən torpaqlarının erməni vandallarından xilas edilməsində görən mərd, mətin, ləyaqətli analarımızın hər biri ən böyük sevgiyə, alqışa layiqdirlər. Dövlət başçısı İlham Əliyev təbrikində vurğuladı: "Fədakar analarımız, yüz illər əvvəl olduğu kimi, vətəni ana qədər əziz və müqəddəs bilən, qəlbləri doğma yurda sevgi ilə dolu, ənənələrimizə sadiq, saf əqidəli övladlar yetişdirirlər. Haqq işi uğrunda apardığımız Vətən müharibəsində xalqımıza parlaq qələbə sevinci yaşadan gənclərimizin unudulmaz rəşadəti bunun aydın təzahürüdür".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# 8 Mart Beynəlxalq Qadınlar Günüdür

## Azərbaycan qadını cəmiyyətimizin güclü mənəvi dayağıdır

Zəngin milli-mənəvi irsi və ənənələri olan xalqımızın ən böyük dəyərlərindən biri ana adının uca tutulması, cəmiyyətimizdə qadınlara böyük ehtiramın olmasıdır. Qürur hissi ilə qeyd etməliyik ki, tarixboyu Azərbaycan qadını ən yüksək mənəvi keyfiyyətlərin daşıyıcısı olmuşdur. Paklıq rəmzi olan Azərbaycan qadını xalqımızın əxlaqi və milli dəyərlər sisteminin yaranmasına, inkişafına öz töhfələrini vermiş, bu günümüzə gəlib çatmasını təmin etmişdir.

Tariximiz, bədii ədəbiyyatımız, folklor nümunələrimiz qadınların cəmiyyət həyatında yaxından iştirakına dair mənbələrlə zəngindir. Ədəbiyyatımızda, xalq yaradıcılığımızda təsvir olunan qadın surətləri bütün məziyyətləri ilə xalqımızın yüksək mənəvi kamilliyinin göstəriciləridir. Tomris, Nüşabə kimi hökmdarların, Şərqin ilk diplomat qadını Sara xatunun timsalında tarix göstərir ki, Azərbaycan qadınları kişilərlə bərabər düşmənlərə qarşı qəhrəmancasına mübarizə aparmış, dövlətçilik ənənələrimizin formalaşmasına dəyərli töhfələr vermişlər.

XII əsrdə Naxçıvanda memar Əcəmi Naxçıvaninin inşa etdirdiyi əzəmətli memarlıq abidəsi olan Möminə xatun türbəsi xalqımızın tarixində qadınlara olan böyük ehtiramın təcəssümüdür. Ümumiyyətlə, tarixin bütün mərhələləri bu cür nümunələrlə zəngindir və təsadüfi deyil ki, Azərbaycan həm də 1918-ci ildə Şərqdə qadınlara ilk seçki hüququ verən dövlətdir.

Fəxrlə qeyd etməliyik ki, bu gün Azərbaycanda həyata keçirilən dövlət qadın siyasəti tarixən bu sahədə formalaşmış ənənələrimizin davamının ən mükəmməl nümunəsi, cəmiyyətimizdə mənəvi ideallarıın təntənəsidir. Bu siyasətin müəllifi isə xalqımızın Ulu Öndəri Heydər Əliyevdir. 1993-cü ildə xalqın istək və arzusu ilə ölkə rəhbərliyinə hakimiyyətə gəlişindən sonra qadınların cəmiyyət həyatındakı fəallığının təmin olunması diqqət mərkəzində saxlanılmış, bu məqsəd Konstitusiyada öz əksini tapmışdır. Konstitusiyamızın 25-ci maddəsinə əsasən kişi ilə qadının eyni hüquqları və azadlıqları var.

1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması da dövlətimizin qadınlarla bağlı həyata keçirdiyi mükəmməl siyasətdən xəbər verirdi. 2000-ci ildə Ulu Öndər Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" sənədə bu sahədə yeni səhifə açmış, qadınların cəmiyyət həyatında fəallığının artırılmasına xidmət etmişdir.

Ulu Öndər Heydər Əliyevin layiqli siyasi davamçısı kimi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs respublikamızda cəmiyyət həyatında qadınların iştirakını yeni mərhələyə yüksəltmişdir. Prezident İlham Əliyevin sərəncamı ilə 2006-cı ildə dövlət siyasətini həyata keçirən komitənin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi yenidən formalaşdırılması, Milli Məclis tərəfindən "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunun qəbulu bu dövrdə həyata keçirilən təkmil qadın siyasətinin nümunələridir.

Uğurlu dövlət siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan qadını cəmiyyət həyatında fəal iştirak edir. Böyük fəxarətlə qeyd etmək lazımdır ki, Azərbaycan qadınları bir ana kimi öz mənəvi missiyalarını layiqincə yerinə yetirir, dövlətə və xalqa layiqli övladlar böyüdürlər. 2020-ci ilin Vətən müharibəsində torpaqlarımızı azad edən qəhrəman oğulları vətənə sevgi ruhunda böyüdənlər də fədakar və məğrur analardır. Bu gün Azərbaycan qadını həm də şəhid anasıdır. "Azərbaycan qadını mərdlik və mətanət nümayiş etdirərək dualarla cəbhəyə göndərib qələbə xəbəri ilə yolunu gözlədikləri və yurdumuzun hər qarışını canından əziz bilən bir nəsil yetişdirmişdir. Dövlətçiliyimizə ən böyük töhfə də, heç şübhəsiz, qırx dörd günlük müqəddəs Vətən müharibəsindəki qəhrəmanlığı və şücaəti əsla yaddaşlardan silinməyəcək bu gənc nəsildir. Gözünü açıb Azərbaycanı azad və müstəqil görmüş həmin rəşadətli nəsildir ki, ümidləri doğruldaraq ədalətin bərpa edilməsində, uzun həsrətdən sonra Qarabağın Ana Vətənə qovuşmasında və məğrur xalqımıza hüdudsuz zəfər sevincinin yaşadılmasında müstəsna payı vardır", - deyə Prezident İlham Əliyev bildirmişdir.

Respublikamızın istər sosial-iqtisadi, istər mədəni, istər elmi yüksəlişində, istərsə də beynəlxalq əlaqələrində qadınlarımız şərəfli xidmət nümunələri yaradırlar. Bu baxımdan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın timsalında Azərbaycan qadınlarının cəmiyyətdəki yeri, işgüzarlığı daha aydın görünür. İlk növbədə onu qeyd etmək yerinə düşər ki, Azərbaycan qadını üçün xarakterik olan dəyərlər, humanizm, insanlara qayğı və digər bu kimi mənəvi keyfiyyətlər Mehriban Əliyevanın şəxsində özünün ali təcəssümünü tapır. Bu baxımdan Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi bütün sosial layihələr, xüsusən yaşlı vətəndaşlarımıza, müxtəlif xəstəliklərdən əziyyət çəkən insanlara, uşaqlara qayğı göstərilməsi məhz Azərbaycan qadınının tarixən malik olduğu və bu gün də daşıdığı mənəvi və nəcib missiyanın tərənnümüdür.

Azərbaycanda qadın hərəkatının inkişafının yeni mərhələyə yüksəlməsində Mehriban Əliyevanın xidmətləri böyükdür. Mehriban Əliyevanın 2013-cü ildə Yeni Azərbaycan Partiyası Sədrinin müavini seçilməsi, 2021-ci ildə isə YAP Sədrinin birinci müavini təyin olunması bütövlükdə partiya fəaliyyətinin daha da canlanmasına xidmət etmişdir.

Mehriban Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyəti isə göstərir ki, Azərbaycan qadını fəal siyasi və dövlət xadimidir. Və bu fəaliyyət dövlətimizin inkişafına, Azərbaycanın dünyada nüfuzunun yüksəlməsinə, təbliğinə, daha yaxından tanınmasına xidmət edir. Eyni zamanda Mehriban Əliyevanın timsalında bütün dünya Azərbaycan qadınının mənəvi dəyərlərlə yanaşı, hansı yüksək siyasi potensiala malik olmasına şahidlik edir. Mehriban Əliyevanın timsalında zəngin mənəviyyatlı Azərbaycan qadınlarının icitmai-siyasi fəaliyyəti göstərir ki, respublikamızdakı qadın hərəkatı milli dövlətçilik ideallarına layiqincə xidmət edir.

Ölkəmizin yüsəlişində sosial statusundan asılı olmayaraq hər kəsin mənəvi öhdəliyi var. Əminliklə deyə bilərik ki, qadınlar cəmiyyətimizin etibarlı mənəvi dayağı kimi bu istiqamətdə üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirirlər. Sələflərinin yolunu mərdliklə, mətanətlə davam etdirən Azərbaycan qadınları dövlətimizin yüksəlişinə özlərinin layiqli töhfələrini verirlər.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***

## Qaliblər məktəbi

…Özümü başqa bir aləmdə hiss edirdim. Sanki sözün sehrinə düşmüşdüm. Südabə müəllim danışdıqca xəyalım məni uşaqlığıma, əlimə ilk dəfə çanta alıb məktəbə getdiyim günlərə aparır. Atadan, anadan sonra yalnız müəllim şagirdinin uğuruna belə sevinə bilər. Yeganə peşə sahibləri müəllimlərdir ki, övladları qədər də şagirdləri ilə fəxr edirlər. Şagirdlərinin uğurunu öz uğurları bilirlər.



Ürəyimdən yalnız bir hiss keçirdi, kaş ki, Südabə müəllim söhbətini kəsməyəydi. Almayaydı məni uşaqlığımın əlindən… O, danışdıqca bir Şərq müdrikinin "elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun. Elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin" kəlamını xatırlayıram.

Özündən, övladlarından, uşaqlığından, gəncliyindən danışmırdı Südabə müəllim... Qəndabdan danışırdı... O, Qəndabdan ki ABŞ-nin Texas Ştatının Houston şəhərində keçirilən Fizika və Astronomiya fənləri üzrə Global Copernicus Olimpiadasının Azərbaycandan yeganə təmsilçisi, dünya üzrə öz kateqoriyasına görə top üçlüyə düşərək vətənimizə qızıl medal gətiribdi.

Südabə müəllim deyir ki, fizika müəllimiyəm. Qəndab özümün yetişdirməmdir. Onun uğurlarını yalnız 279 saylı məktəbin uğuru hesab etmirəm. Bu, Azərbaycanımızın uğurudur, müasir gəncliyin uğurudur. Məktəbimizdə Qəndab kimi gənclərin sayı çoxdur. Məzunlarımız hər il respublikamızın və dünyanın ən nüfuzlu məktəblərinə qəbul olunmaqla bizi sevindirirlər. Təsədüfi deyil ki, ali məktəbə qəbul göstəricisinə görə hər il respublika üzrə ilk üçlüyə düşürük. Bu göstəricilərə heç də asanlıqla nail olmamışıq. Gərgin əmək, ciddi nizam-intizam, tələbkarlıq, müəllimlərimizin öz üzərlərində ciddi çalışmaları və ən başlıcası da inamın hesabına əldə olunub. Məktəbimizdə çox gözəl bir mühit var. Müəllim-şagird tandemi yarada bilmişik. Müəllimlərimiz şagirdlərə ilk növbədə özünə inam hissi aşılayırlar. Özünə inanan şagird müəlliminə güvənər, onu elmin zirvəsinə apara bilər.

Südabə Abdullayeva (Şərifova) illərin pedaqoqudur. 60 illik ömrünün 38 ilini pedaqoji fəaliyyətə həsr edib. Südabə müəllim deyir ki, insan gərək öz peşəsini sevsin: "Nəsrəddin Tusi adına ADPU-nin Fizika fakültəsini bitirmişəm. 1985-ci ildən müəllim işləyirəm. Hər gün əlimə jurnal alıb sinifə girəndə ilk dərs dediyim günün həyəcanını yaşayıram. Dərsdən əvvəl mövzuya ciddi hazırlaşıram. 2018-ci ildən 279 saylı məktəbdə direktor işləyirəm. Rəhbərlik etdiyim kollektivin müəllimlərinə də deyirəm ki, müəllim gərək daim axtarışda olsun, yeniliklərə qapı açmağı bacarsın".





Südabə İbrahim qızı Abdullayeva 1963-cü ildə Bakının Əmircan kəndində çoxuşaqlı ailədə anadan olub. Anası evdar qadın, atası neftçi idi.

- Ailədə 10 uşaq idik. Atam bizə həmişə ədalətli olmağı, halal yaşamağı bacarmağı, vicdanlı, ədalətli olmağı tövsiyə edərdi. Atam deyərdi ki, vicdan insanın ruhudur, Allahıdır. Elə yaşayın ki, sizi barmaqla göstərsinlər. Başqalarına nümunə ola biləsiniz. Fizikanı isə bizə böyük qardaşım Mövsüm sevdirib. Hamımız Mövsümə oxşamağa, onun yolu ilə getməyə çalışmışıq. Elə bu səbəbdən də bütün bacı-qardaşlarımız fizika və riyaziyyat müəllimi olub.

Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində yerləşən 279 saylı məktəbdəyik. Məktəbdəki səliqə-sahman, gözəllik gözoxşayır. Bura orta məktəbdən çox botanika bağına bənzəyir. Məktəbin dəhlizini insanın qəlbinə riqqət, könlünə gözəllik gətirən müxtəlif növ güllər bəzəyir. Məktəbdə müəllim və şagirdlərin yetişdirdiyi 2 mindən çox dibçək gülü var. Divarlara şagirdlərin çəkdikləri rəsmlər isə bir ayrı gözəllik verir. Məktəbdə "kitab mənim dostumdur" layihəsi həyata keçirilir. Öyrənirik ki, 279 saylı məktəb bu il Elm və Təhsil Nazirliyinin yaratdığı T-Netvorq Təhsil İşçilərinin İnformasiya və Kommunikasiya platformasının keçirdiyi "Təhsilin Ulduzu" müsabiqəsinin qalibi olub. Diqqətçəkən daha bir məqam dəhlizlərin divarlarında kitabxanaya yeni daxil olmuş ədəbiyyatların şəkilləri yerləşdirilməsidir. Şagirdlər oxuduqları kitablardakı personajların şəkillərini divarlara çəkir, texnologiya dərslərində yun saplarla toxunub hazırlanmış əşyalar dəhlizin divarlarında "Sagirdlərimizin əl işləri" guşəsində yerləşdirilir. Məktəbdə "Mütaliə otağı" yaradılıb, otağın divarlarında əsər qəhrəmanlarının şəkilləri, "Düşünən oxucu" guşəsi, "Kitab oxumaq qaydaları", "Hansı formada oxumaq lazımdır?" tabloları yerləşdirilib.

279 saylı məktəbdə şagirdlərin vətənpərvərlik ruhunda böyümələri üçün vətənpərvərlik tərbiyəsinə ciddi önəm verilir, buna olduqca həssas yanaşılır. Dəhlizlərdə Zəfər guşəsi, Laçın guşəsi, milli dəyərlərimiz, adət- ənənələrimiz başlığı altında guşələr yaradılıb. 2020-ci ildən məktəbin ənənəvi zəngi dəyişdirilərək Xudayar Yusifzadənin təsnifi ilə əvəz edilib.

Suraxanı rayonundan Qarabağ savaşında 61 nəfər qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə yüksəlib. Bütün siniflərdə şəhidlər haqqında xüsusi guşələr yaradılıb, siniflərə şəhidlərimizin adları verilib. Məktəbin şagirdləri şəhidlərin anım və doğum günlərində məzarlarını ziyarət edib, ailələri ilə əlaqə saxlayırlar.

Südabə müəllim deyir ki, pedaqoji kollektiv olaraq üzərimizə düşən yükün ağırlığını yaxşı dərk edirik. Çalışırıq ki, daha bacarıqlı nəsillər yetişdirmək üçün fərdi müxtəliflikləri nəzərə alan təhsil mühiti yaradaq. Siyahıda birinci olmaq bütün bacarıqlara sahib olmaq demək deyil. Məktəblərdə keçirilən imtahanlarda əldə edilən nəticələr qiymətləndirmə standartlarında nəzərdə tutulan bacarıqları əks etdirməlidir. Məktəb müəllimlərin enerjisini və motivasiyasını qiymətləndirmə fəaliyyətindən çox, keyfiyyətli təlimə istiqamətləndirməlidir. Məktəb keyfiyyətli tədrisin məsuliyyətini daşıyan bir qurumdur. Öncə tədrisin keyfiyyəti, sonra isə ölçmə gəlir. Əsaslı bir təhsil sistemində yetişmiş fərdlər bütün imtahanlardan uğur əldə edir. Bütün bunlara şagirdlərin şəxsiyyətyönlü formalaşması ilə nail olmaq olar. Məqsədimiz budur ki, milli şüura malik, tədqiqatçı, dərin düşüncəli, yaradıcı və innovativ, akademik biliyi bacarığa çevirə bilən, hər bir işin faydalı iş əmsalını tapa bilən, kreativ düşüncəli fərdlər yetişdirə bilək. Bununla da cəmiyyətin texnoloji, sosial-iqtisadi və mədəni səviyyəsinin yüksəldilməsinə töhfə verək.

Südabə Abdullayeva peşəkar rəhbər, mükəmməl pedaqoq, bacarıqlı təhsil təşkilatçısı olduğu kimi, həm də nümunəvi anadır. Bu vətən, dövlət üçün iki ləyaqətli övlad yetişdirib. Pedaqoji fəaliyyətdən başqa içtimai işlərdə də yaxından iştirak edir. Südabə müəllim deyir ki, ən yaxın dostum, köməkçim, sirdaşım, ömürgün yoldaşım Vasifdir. Onun fikrincə, müəllim gərək bütün xüsusiyyətlərinə görə cəmiyyət üçün bir örnək olsun. Daxili dünyası, əxlaqı, milli-mənəvi xüsusiyyətləri ilə seçilsin. Tək bilikli olmaqla yaxşı müəllim, yaxşı vətəndaş olmaq mümkün deyil. Müəllimin ailəsi, övladları da gərək əxlaqi dəyərlərə verdiyi qiymətlə və ən başlıcası, davranışı ilə seçilsin.

Südabə müəllim ilə söhbət etdikcə ürəyi vətən üçün, xalq üçün döyünən bir insanın portreti, onun ürəyinin ən incə duyğuları gözlərimiz önündə canlanır. Vətənini, dövlətini fədakarcasına sevən, onun gələcəyi üçün gecəsini gündüzünə qatan, daim axtarışda olan, təşəbbüskarlığı ilə seçilən tam bir insan obrazı yaranır. O, danışdıqca sanki gələcəyimiz üçün döyünən bir ürəyin kaman naləsinə bənzər yanıqlı səsini dinləyirsən. Təcrübəli pedaqoq Südabə Abdullayeva düşünür ki, dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılmalıdır. Strateji dövrdə kompetensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan "ömür boyu təhsil"ə xüsusi önəm verilməlidir. Erkən və məktəbəqədər təhsilin əhatə dairəsi genişlənməli və mərhələlərlə müvafiq yaşda olan bütün uşaqları əhatə etməlidir.

Südabə Abdullayeva bir pedaqoqun, bir müəllimənin ala biləcəyi bütün qiyməti, mükafatları alıb. Ən böyük mükafatı isə şagirdlərinin məktəbə gətirdikləri qızıl, gümüş medallar, qazandıqları uğurlar olduğunu deyir. "Məktəbimizin yetişdirmələri harada isə bir uğur qazananda, onların valideynləri, yaxınları zəng edib, məktəbimizə gəlib bizi təbrik edəndə bu illərimi boş yerə sərf etmədiyimə sevinirəm. Peşəmlə iftixar duyuram. Bir müəllim üçün məncə bundan böyük mükafat ola bilməz".

Biz 279 saylı məktəbdə olarkən bir ömür kitabının çox az bir hissəsini vərəqləyə bildik. Oxuduqca öyrəndik, dinlədikcə düşündük. Belə qənaətə gəldik ki, Tanrının verdiyi ömür payını belə yaşayarlar...

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***







## Ağalıda yaşanan analıq sevinci

**2020-ci il sentyabrın 27-dən etibarən tariximizə yeni şanlı səhifələr yazıldı. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən 30 il həsrətində olduğumuz torpaqlarımız düşməndən azad edildi.**

Mənfur düşmənin viran qoyduğu şəhər və kəndlərimiz bu gün bərpa olunur, yenidən qurulur. Artıq Zəngilanın Ağalı kəndi bərpa edilib, sakinləri öz evlərinə qayıdıblar.

Böyük qayıdışın ilk ünvanı, həyatın yenidən canlandığı Ağalıdan bu günlərdə daha bir xoş xəbər gəldi.

Düz 30 il sonra Ağalıda səhər dünyaya gələn körpənin qığıltısı ilə açıldı. 44 günlük Vətən müharibəsindəki zəfərə, qəhrəman ordumuza ithafən körpənin adını da elə Turan qoydular.

Zeynalovlar ailəsində iki bacının bir qardaşı olaraq dünyaya gələn Turanın valideynləri xəyal kimi xatırladıqları bu torpaqlara nə vaxtsa dönəcəkləri günün arzusu ilə böyüyüblər.

Turanın atası Teymur Zeynalov 1993-cü ildə, 6 yaşında valideynləri ilə birgə doğma kəndindən didərgin düşüb. Əslən Laçın rayonunun Güləbird kəndindən olan körpənin anası Mədinə Zeynalovanın ailəsi isə 1992-ci ildə, o hələ 1 yaş 8 aylıq ikən doğma yurdlarından köçkün düşüb. Lakin bu ayrılıq onda və bu qisməti paylaşan həmyaşıdlarında yurd sevgisini azaltmayıb, əksinə, böyüdüb. "Uşaqlıqdan torpaqlarımızdan ayrı düşsək də dövlətimizin, ailəmizin, müəllimlərimizin sayəsində yurdumuzu unutmamışıq, unutdurmayıblar. Məktəblərdə həmişə bununla bağlı tədbirlər keçirilib, ailədə bu haqda söhbətlər edilib. Hər gün dərsliklərimizi vərəqləyəndə belə, ilk səhifədə bizi köklərimizdən qopmağa qoymayan məlumatlar da buna nümunədir", - deyə Mədinə bildirib.



Digər məcburi köçkünlər kimi Mədinənin də uşaqlığı, gəncliyi çətin keçib. Doğma yurdlarının işğalından sonra əvvəl Beyləqanda, daha sonra isə Bakıda məskunlaşıblar. Ailə qurduqdan sonra dövlət tərəfindən Sumqayıtda evlə təmin ediliblər. İki övladı olan Zeynalovlar ailəsi Böyük qayıdışın başladığını eşidən kimi geri dönmək üçün könüllü müraciət edibılər. Mənzillərini şəhid ailəsinə təhvil verərək Ağalıya qayıdıblar.

Mədinə Zeynalova deyir ki, uşaqlıqdan bu torpaqlara yenidən ayaq basacağımız günün xəyalı ilə yaşamışıq, böyümüşük: "Zəngilanın işğaldan azad olunması xəbərini eşidəndə heç inanmazdıq ki, belə qısa müddətdə köç olacaq. Düzü, Ağalıya gələnədək belə mənzillə təmin olunacağımızı, bu cür abad və müasir kənddə yaşayacağımızı təsəvvür etmirdik".

Artıq 6 aydır Ağalıda yaşayan Mədinə deyir ki, bura köçəcəyimizi eşidən yaxınlarımız, tanışlarımız bir qədər narahat idilər: "Bizə elə hey deyirdilər ki, uşaqlarınız balacadı, körpəniz də doğulacaq, 3 uşaqla yeni işğaldan azad olunmuş, məskunlaşmanın yeni başladığı torpaqlarda yaşamaq sizə çətin olacaq. Amma biz fikrimizdə qətiyyətli idik. 2022-ci il sentyabrın 10-da bura köçdük".

Ağalı kəndinə köçərkən Zeynalovlar ailəsinin yeganə narahatlığı övladlarının təhsili ilə bağlı olub. Lakin dərs ilinin başlaması ilə bu narahatlığın əbəs olduğunu anlayıb: "Burada təhsildən də çox razıyıq. Böyük qızım birinci sinfə, kiçik qızım isə məktəbəhazırlığa gedir. Dərslər seçilmiş kadrlar, təcrübəli, savadlı müəllimlər tərəfindən keçirilir. Arzumuz, niyyətimiz övladlarımızı bu torpaqlarda boya-başa çatdırmaq, onları ali təhsilli mütəxəssis etmək, Vətənimizə layiq vətəndaş kimi yetişdirməkdir. Körpə Turanın əsgər olub Vətənə xidmət edəcəyi günü isə bir başqa həvəslə gözləyirəm".

"Yoldaşım da, mən də bu torpaqlardan köçkün düşəndə körpə idik. Doğma elimizlə, yurdumuzla bağlı xatirələrimiz yoxdur. Amma övladlarımızın taleyi bizimki kimi olmayacaq. Onlar öz yurdlarında böyüyəcəklər. İndi anlayıram ki, insan doğulduğu torpaqlara qovuşanda yenidən dünyaya gəlirmiş. İllərlə biz bu günün həsrətini çəkmişik, arzulasaq da, bir günun həyata keçəcəyini təsəvvür edə bilməmişik. Hətta öz yurdumuza qayıdacağımızın xəyalını quranda fikirləşirdik ki, buna ömrümüz vəfa edəcəkmi? Amma şükür ki, yurdumuza qovuşduq", - deyir gənc ana.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# 8 Mart Beynəlxalq Qadınlar Günüdür

## Zəriflərin dünyası

# Sən idin səadətim

**Tibb xidməti polkovnik-leytenantı şəhid Rasim Abdullayevin həyat yoldaşı: "Onun yarımçıq arzularını övladları ilə birgə həyata keçirəcəm".**

*Ayrıldıq xatirən qaldı yadımda,*
*O gündən üzümə qəm ələnibdi,*
*Getdiyin yollara düşən damcılar,*
*Mənim göz yaşımdı, səpələnibdi..!*

Rasim bu şeiri ona hələ nişanlı olduqları zaman yazmışdı. Həsrətin, intizarın, ayrılığın ölümdən betər olduğunu şair qəlbi lap çoxdan duymuşdu, düz 19 il əvvəl.

Gənc həkim hiss etmişdi ki, bir gün ayrılıq gələcək əlində qılınc, eşqləri susacaq səssiz, səmirsiz...

### Tale yolları

Kəlbəcərdən idi hər ikisi, biri Milli, digəri Qılınclı kəndindən...

Amma tale yollarını Kəlbəcərdə yox, məcburi köçkün kimi Azərbaycanın başqa bir məkanında çarpazlaşdırmışdı Rasimlə Səadətin...

O zaman Rasim diplomunu yenicə alaraq Sumqayıtda işə başlayan gənc həkim idi. Bir gün yanına gələn qohum pasiyentlər arasında diqqətini ağbəniz, qarasaçlı, qaragözlü bir utancaq qız cəlb etmiş, ondan ötrü könlü uçunmuşdu. Səadət adlı bu gözəl qızla ömür yolunu birləşdirəcəyinin qəti qərarını da elə həmin anda vermiş, tezliklə qızın qapısına elçilərini yollamışdı...

Çox keçmədən toyları çalınan gənclər ailə səadətinə qovuşmuş, xoşbəxt günlərə, aylara, illərə birgə qanad açmışdılar...

Zalım fələyin qarşıda onlar üçün cızdığı ağrı-acılı qəzavü-qədərdən xəbərsiz...

Bir-birlərinə ömürlük həsrət qalacaqlarının acı iztirabından bixəbər...

### Dünya zülmətə büründü

"Hətta müharibənin ən şiddətli vaxtında, təhlükədə olduğunu bilsəm belə ağlıma gəlməzdi ki, bir gün onsuz qalaram, Rasimi həmişəlik itirərəm. Bilmirəm, bəlkə də bu, həmişə onun təmkinli olması, bizə heç bir çətinliyini büruzə verməməsi ilə bağlı idi...

O son gün də övladları ilə danışanda Rasimin səsi çox gümrah gəlirdi, zəfərimizlə bağlı gözaydınlığı verir, tezliklə görüşəcəyimizi deyirdi, amma saatlar sonra onun qara xəbərini aldıq, dünyamız başımıza yıxıldı..."

Azərbaycan hərb tarixində şəhid olan ən yüksəkrütbəli tibb xidməti polkovnik-leytenantı Rasim Abdullayevin ömür-gün yoldaşı Səadət İbrahimovadır "Zəriflərin dünyası"nda. Gözyaşları içərisində vərəqləyir Rasimlə birlikdə yaşadıqları acılı-şirinli 18 illik həyat gündəliyinin vərəqlərini Səadət xanım. Gənc qadın ürəyindən qoparaq kipriklərində mirvari kimi sıralanan yaş damlalarını tez-tez silərək qüssəli titrək səslə əlavə edir ki, "Ən çətin günümüzdə belə Rasim heç zaman üzündən təbəssümünü əskik etməzdi. Çox nikbin, zarafatcıl, ailəsinə, övladlarına can yandıran biri idi. O, heç zaman bizi kədərli görmək istəməzdi, amma yoxluğu ilə hamımızın ürəyinə sağalmaz dağ çəkdi, bizi gözüyaşlı, ağlar qoydu".

### Qürur illəri

1975-ci il fevralın 21-də Kəlbəcərin Milli kəndində anadan olub Rasim Yaqub oğlu Abdullayev. 1982-1992-ci illərdə Kəlbəcər şəhərində 1 nömrəli tam orta məktəbdə, 1992-1998-ci illərdə isə Azərbaycan Tibb Universitetində (ATU) təhsil alıb. 1998-ci ildə ATU-dan məzun olan Rasim Abdullayev 2000-ci ilə qədər Sumqayıt şəhər 1 nömrəli xəstəxanada interna keçib.

Daha sonra taleyini hərbi həkimlik peşəsinə bağlayan Rasim Abdullayev 2000-ci ildə Əhmədbəyli hospitalında xidmətə başlayıb. 2005-ci ilə qədər burada xidmət etdikdən sonra 2005-2015-ci illərdə Mərkəzi Hərbi Hospitalda Terapiya şöbəsində müxtəlif vəzifələri, o cümlədən şöbə rəisi vəzifəsini yerinə yetirib. 2010-cu ildə "Qüsursuz xidmətə görə 3-cü dərəcəli" medalı, 2015-ci ildə isə "Qüsursuz xidmətə görə 2-ci dərəcəli" medalı ilə təltif edilib.

2016-cı ildə tarixə şanlı Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı Rasim Abdullayev hərbi tibb qulluqçusu və Gəncə Hərbi Hospitalının rəisi idi. O, döyüşün qızğın nöqtələrində qalan yaralı zabitlərə yerindəcə tibbi yardım göstərmiş, neçə-neçə vətən oğlunu həyata qaytarmışdı.

Bu xidmətlərdən sonra 2016-cı ilin sonları, 2017-ci ilin əvvəlləri onun iş yeri dəyişdirilmiş və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tibb xidməti rəisi vəzifəsinə təyin olunmuşdu.

2020-ci ilin əvvəllərinə qədər bu vəzifəni yerinə yetirən Rasim həkim daha sonra "N" saylı hərbi hissənin tibb bölüyünün komandiri təyin olunub.

44 günlük Vətən müharibəsi dövründə tabeliyində olan həkim briqadası ilə birlikdə gecə-gündüz, yatmaq, dincəlmək bilmədən hər bir yaralı əsgərin həyatı uğrunda çarpışıb vuruşmuş, sözün əsl mənasında, onları ölümün pəncəsindən dartıb çıxarmışdı.

Həkim Hadrut istiqamətində gedən döyüşlərin ən qızğın nöqtələrində qalmış yaralılara yerindəcə tibbi yardım göstərmişdi. Vətən müharibəsinin son gününə qədər 100-dən çox yaralıya döyüş meydanında tibbi yardım göstərən Rasim Abdullayev işğaldan azad olunan ərazilərə getmiş, oradakı yaralılara yardım göstərmiş, onları təxliyə etmişdi.









### "Xoşbəxt günlərimizi orada yaşadıq"

1993-cü ildə Səadətgilin ailəsi də Kəlbəcərdən didərgin düşərək məcburi köçkün kimi Bakıdakı yaxınlarının yanına pənah aparmış, daha sonra isə Xırdalanda Quşçuluq massivi deyilən ərazidə bir vaqona sığınmışdılar.

- Orta məktəbin son sinfində oxuyurdum, bir gün qohumlarımızdan birinin sağlıq problemi ilə bağlı Sumqayıta Rasim həkimin yanına getməli olmuşduq. Orada məni görüb bəyənmişdi.

Biz 2001-ci ildə nişanlandıq, bir ildən sonra isə ailə qurduq. Həmin vaxt Rasim Beyləqanda hərbi həkim kimi işə başladı. Mən Samuxda qayınanamgillə birlikdə qaldım, daha sonra o, Füzuliyə Əhmədbəyli hospitalında işləməyə getdi və orada kirayə mənzil tutaraq məni də yanına apardı. Bir müddət orada işlədikdən sonra Rasim Bakıda Mərkəzi Hərbi Hospitalda işləməyə başladı.

Həmin vaxt atamgil Xırdalanda yaşadıqları vaqonu bizə verdilər və biz - qayınanam və qaynımla birgə o vaqonda, çox şəraitsiz vəziyyətdə yaşamağa başladıq. Çətinliyimiz çox oldu, sonra tədricən həmin vaqonun qarşısında bir göz otaq tikdik, belə-belə nisbətən yaşayış şəraitimizi düzəltdik. İndi geriyə baxanda düşünürəm ki, baxmayaraq ki, çətinliklərimiz çox idi, amma elə xoşbəxt günlərimizi də birlikdə orada yaşadıq. Bir-birimizə dayaq, dəstək olduq, övladlarımızı böyütdük.

Rasim işində də, evində də çox məsuliyyətli insan idi. Hərbi sahədə işləyirdi, asudə vaxtı az olurdu, amma çalışırdı ki, ailəsinə, övladlarına zaman ayırsın. Uşaqları muzeylərə, Azərbaycanın bölgələrinə aparırdı. Hər zaman da deyirdi ki, inşallah, bir gün sizi Kəlbəcərə, kəndimiz Milliyə də aparacam...

Rasim övladlarına yaxşı ata, yaxşı dost, həm də yaxşı örnək idi. O, işdən evə yorğun gəlirdi, buna baxmayaraq əlindən kitab düşmürdü. Həkimliyə aid, eləcə də bədii kitabları, "Quran"ı oxuyurdu. Həmişə Miryaqubla İslama "Quran"dan sitatlar gətirir, onları elə tərbiyə edirdi...



### Son görüş, əbədi ayrılıq

- 2016-cı ildə Rasimi Gəncə Hərbi Hospitalına göndərdilər. Mən də onunla birgə getdim, bir il 6 ay Gəncədə yaşadıq. Aprel döyüşlərinin getdiyi vaxtlar idi, hospitalda olan bütün həkimlər kimi Rasimin də gecə-gündüzü yox idi, elə olurdu ki, heç evə də gəlmirdi, yaralılara əlindən gələn köməyi göstərməyə çalışırdı.

Son dəfə Rasimi 2020-ci il sentyabrın 26-da gördük, evə gəldi, dedi ki, çantamı hazırlayın, təlimə gedirik. O, heç zaman hərbi sirləri evdə danışmazdı, bu dəfə də bizə heç nə demədi. İslam evdə yox idi, zəng vurub onu da çağırdı və görüşdü. Sonra hamımızla vidalaşdı, onunla bərabər biz də həyətə çıxdıq. Bir-iki addım getdikdən sonra çevrilib bizə tərəf baxdı, o an gözlərində qəribə ifadə var idi, sanki bir daha geri qayıtmayacaq kimi baxırdı... Rasimi heç zaman elə görməmişdim...

Müharibə zamanı övladları ilə, ən çox da İslamla telefonla danışırdı. Ona tapşırıqlarını verirdi, deyirdi ki, pandemiya dövrüdür özünüzü qoruyun, ananızın sözünə baxın, hər şey yaxşı olacaq. Torpaqlarımız bir-bir alındıqca sevincini bizimlə bölüşürdü, Kəlbəcərin azad olunacağını biləndə də zəng etmişdi.

### O, qayıtmadı...

2020-ci il noyabrın 10-u səhər saatları idi. Artıq Azərbaycan döyüşdə zəfər çalmış, düşmənə məğlubiyyət aktını imzalatmışdı. Rasim həkim də növbəti dəfə evdəkilərə zəng vuraraq şadlıqla həyat yoldaşı Səadətə, övladları Miryaquba, İslama, qardaşı Əvəzə, bacıları Əntiqəyə, Yeganəyə, Aybənizə zəfər gözaydınlığı vermiş, "darıxmayın, tezliklə gələcəm" demişdi.

Amma bu sevincli telefon danışığından cəmi bir neçə saat sonra Rasimin özü yox, doğmalarının ürəyini parçalayan qara xəbəri gəlmişdi...

Həmin gün Rasim Abdullayev Şuşa istiqamətində qalmış yaralıların çıxarılması ilə bağlı komandanlıq tərəfindən verilən tapşırığı yerinə yetirmək üçün hərbi tibb maşını ilə Hadrut-Şuşa yoluna çıxır. Elə yolda da yaralı bir zabitə ilkin tibbi yardım göstərir, onun sınıq ayağını sarıyır. Təxminən 20 dəqiqədən sonra isə Çanaqçı kəndində həkim özü də təhlükə ilə burun-buruna gələrək düşmənin pusqusuna düşür və açılan atəşlərdən həlak olur.

Azərbaycan hərb tarixində həlak olmuş ən yüksəkrütbəli hərbçi həkim tibb xidməti polkovnik-leytenantı Rasim Abdullayev II Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Qəhrəman həkim şəhidliyindən sonra Prezident İlham Əliyevin sərəncamına əsasən, "Vətən uğrunda", döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

### Bu dərdi ovutmaq olmur

Rasimin şəhidlik xəbəri gəlmişdi, amma Səadət eşitdiyi bu xəbərə inanmaq istəmirdi. Elə hey Tanrıya yalvarırdı ki, bir möcüzə etsin. Lakin... Dünyası dağılmış, balaları atasız qalmışdı...

- Bu elə bir çarəsi olmayan dərddir ki, ağlamaqdan başqa gücün heç nəyə yetmir. Zaman ötür, illər keçir, həyat dəyişir, övladlar böyüyür, onların xoş günlərini keçirirsən, amma bu dərd heç zaman sağalmır, tükənmir. Rasimin yoxluğunu heç nə əvəz etmir. O, elə arzulayırdı ki, övladlarının toyunu görsün, qismət olmadı. Bu yaxınlarda Miryaquba toy edib evimizə gəlin gətirdik.

Bilirsiniz, Rasimdən sonra həyatda yaşadığımız bütün sevinclərimiz də yarımçıqdır. Oğlumun toyunda da elə hey gözüm Rasimi, evimizin dirəyini gəzirdi. Mən də istəyərdim ki, oğlum ata xeyir-duası ilə ailə qursun. Rasim də oğlunun şad günündə qol götürüb oynasın, bütün məclislərdə olduğu kimi, övladının toyunda da öz yazdığı şeirlərdən desin...

*Ayrılıq yenə də qismətim oldu,*
*Kor olmuş taleyim belədi neynim,*
*Qaralmış külüm də göyə sovruldu,*
*Fələk öz bildiyin elədi neynim..!*

### Yarımçıq arzular

- Ən böyük təsəllilərimizdən biri odur ki, Rasim doğma Kəlbəcərinin azad olunacağı xəbərini eşitdi. Amma zalım qədər imkan vermədi ki, bizimlə birgə o torpaqlara gedə. Kəlbəcərlə bağlı arzuları çox idi, orada bir xəstəxana tikib vətəndaşlara qulluq etmək istəyirdi. Onu da deyirdi ki, dədəmin (atası seyid Yaqub) məzarını Kəlbəcərə, Milliyə aparacam...

Ümumiyyətlə, Rasim vətəninə çox bağlı insan idi. Həmişə "Ali Baş Komandan əmr versin, gedək torpaqlarımızı işğaldan azad edək, alnımız açıq, başımız dik gəzək" deyirdi.

Bilirəm ki, bütün şəhidlərimiz kimi, Rasimin də ruhu şaddır, çünki torpaqlarımız azaddır. Övladları da, mən də uca şəhidin ruhu qarşısında söz vermişik ki, onun yarımçıq arzularını biz həyata keçirəcəyik.

Rasim cismən olmasa da, ruhən yanımızdadır, bunu hər zaman hiss edirəm. Hətta evdə ağlaşma olanda görürəm ki, ruhu narahat olur, həmin gün yuxuma gəlir.

Bir dəfə yuxuda gördüm ki, hamı Rasimə görə bizə yığışıb, ağlaşmadır. Bu zaman şəhidin özü gəldi, otaqları bir-bir gəzdi, sonra məndən soruşdu ki, "rəsmlərimi niyə divarlara vurmusunuz?" Mən də deyirəm ki, "ay Rasim, sən gəlmədin deyə darıxdıq, ona görə şəkillərini divara vurmuşuq". O isə etiraz etdi, dedi ki, "yox, elə deyil, siz məni ölmüş bilirsiniz ona görə şəkillərimi divarlara vurmusunuz. Hamıya deyin ki, Rasim ölməyib, sağdır..."

*Rasim, sevinərmi taleyi küsən,*
*Gecəsi uzanıb, günü tələsən,*
*Dedilər insansan, sən çəkməlisən,*
*Qəm, kədər dağ-daşın başına gəlmir.*

### O gedəndə ömrün bahar çağıydı

2020-ci il noyabrın 10-da o, təkcə Rasimi yox, sevdiyi insanla birgə bütün arzularını, xəyallarını da itirdi. Ömrünün baharına qış hakim oldu, şəvə kimi qara saçlarına kədər bəyaz qar ələdi. Ürəyinə qəm kölgəsi düşdü, səadəti yarıda qırıldı.

Rasimdən sonra o, bu həyata sadəcə bir amala yetmək üçün bağlandı. Rasimin arzularını yaşatmaq, övladlarını şair ruhlu şəhid həkimin arzuladığı zirvəyə yetirmək üçün...

*O gedəndə ömrün bahar çağıydı,*
*İndi də çatmışam qışına, gəlmir.*
*Onda günah yoxdur, çox illər ötüb,*
*Bəlkə də unudub huşuna gəlmir.*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## "Şəhər partiya komitəsindən xəbər gəldi ki..."

### Sumqayıtda 8 Mart ilk dəfə necə qeyd olunub



Ötən əsrin 30-cu illərində Azərbaycanda yeni şəhərin salınacağı planlaşdırılırdı. Hətta Sumqayıtın indiki girəcəyinə belə bir elan da vurulmuşdu: "Yaxın illərdə buradan başlayaraq dənizə qədər məsafədə yeni bir şəhər salınacaq. Ətrafda yaşayan kəndlərdən gələrək hər kəs işçi kimi qeydiyyata düşə bilər".

İkinci Dünya müharibəsi başlayanda artıq Sumqayıtda altı kiçik briqada fəaliyyət göstərirdi. Şəhərin adı isə Böyük Corat adlanırdı. Müharibə başlayandan sonra işçilərin çoxu cəbhə üçün işlərə cəlb edilir. Bundan əlavə, Ukrayna və Belarusdan iri zavodlar Sibirə köçürülür. O üzdən şəhərin tikintisi tamamilə dayandırılır.

1948-ci ilin noyabrında SSRİ Nazirlər Soveti ölkədə bir neçə yeni şəhərin salınması ilə bağlı dinləmələr aparır. Qərara alınır ki, yaxın zamanda dörd yeni şəhər salınsın. Düz bir ilin tamamında - noyabrın 19-da o şəhərlərdən biri - Sumqayıtın yaradılması qərara alınır.

Boz çöllərdə çirkli suların axıdıldığı, yabanı üzümlüklərin ətrafı basdığı yerlərdə yenidən tikintiyə start verilir. Həmin dövr sovetlər ölkəsində böyük amnistiya elan edilir. Həbsdən azad edilənlənlərin bir hissəsi Sumqayıta gəlir. Komsomolun xətti ilə burada işləməyə başlayırlar.

Şəhər tikinti meydançasına çevrilmişdi. Hamı bu yeni ocağa öz töhfəsini verməyə çalışırdı. Onların sırasında qadınlar da az deyildi. Keçmiş SSRİ respublikalarından gələn qızların çoxu burada işləməklə yanaşı, ailə qurur, sumqayıtlı olurdu. Latış, rus, gürcü, eston, özbək, belarus və digər millətlərdən olan qadınlardan ibarət qruplar yaranmışdı. Azərbaycanlı qızların qrupuna sonralar deputat seçiləcək Gülbahar Vəliyeva rəhbərlik edirdi. Gənclər ailə quranda bütün qruplar bir yerə yığışar, hədiyyə toplayıb təzə ailəyə verərdilər.

1966-cı ilin əvvəllərində şəhər partiya komitəsinin qərarı ilə beşgünlük iş həftəsi elan edildi. Buna ən çox sevinən xanımlar oldu. Çünki yataqxanalarda konsert və əyləncələr təşkil etmək üçün də vaxt qalacaqdı. Gülbahar Vəliyevanın xatirələrindən: "Üç il ərzində təkcə azərbaycanlılar arasında 1945 yeni ailə qurulmuşdu. Onlardan yalnız 113 ailə başqa millətdən olan qızla bağlanan kəbin idi. Martın 7-də İnşaatçılar qəsəbəsində keçiriləcək toy məclisinə hazırlaşırdıq. Partiya komitəsinin sürücüsü gəlib bildirdi ki, səni gözləyirlər. Alman əsilli Balteriya ilə birlikdə komitəyə gəldik. Bizi Zülfi Hacıyev qarşıladı. İçəri keçəndən sonra bildirildi ki, sabah şəhərdə qadınlar bayramı qeyd olunacaq. Tədbirlər planı komitəyə çağırılan nümayəndələrə çatdırıldı. Axşamdan başlayaraq küçələrə rəngli şəkillər asıldı, işıqlandırma artırıldı. Yataqxanalardakı musiqi kollektivləri də tədbirlərə cəlb edildi.

Səhər saatlarından başlayan tədbirlər günorta keçənə kimi davam etdi. 35 dildə mahnılar oxundu, rəqslər edildi. Əməkdə fərqlənən qadınlara pul mükafatı, 50-dən artıq yeni ailə quran qadına mənzillərin açarları verildi. Sonra şəhər partiya komitəsində rəsmi toplantı keçirildi. Bu həm də fəhlə və qulluqçuların birinci iclasıydı. Sumqayıtın ilk fəxri fərmanı isə mənə verildi".

Xatirəyə hopan həmin illərdən 57 il keçib. 1949-cu ildə sənaye şəhəri statusu alan Sumqayıt hazırda Cənubi Qafqazın nəhəng sənaye mərkəzidir. Şəhərdə 8 Mart bayramını ilk qeyd edən qadınların böyük hissəsi isə haqq dünyasına qovuşub. Lakin qəlblərin hakimi olan xatirələr, göründüyü kimi, hələ də yaşayır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycan qadınları statistikada

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin əvvəlinə ölkə əhalisinin ümumi sayının 50,2 faizini qadınlar təşkil edib. Ötən il doğulmuş 122,8 min körpədən 47,1 faizi qız uşaqları olub.

Məlumatda həmçinin bildirilir ki, ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 81,9, orta ixtisas təhsil müəssisələrində 81,3, ali təhsil müəssisələrində 57,4 faizi, həkimlərin isə üçdən ikisi qadınlardır. Ümumi təhsil müəssisələrində təhsil alanların 46,6, orta ixtisas təhsili müəssisələri tələbələrinin 61,9 faizini, ali təhsil müəssisələri tələbələrinin isə yarısını qızlar təşkil edir.

Qadınların elmin inkişafında da müstəsna rolu var. Elmi işçilərin 59,2 faizini qadınlar təşkil edir. Son 10 ildə onlardan elmlər doktoru elmi dərəcəsi olanların sayı 2,2, fəlsəfə doktoru elmi dərəcəsi olanların sayı isə 2,1 dəfə artıb. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 7-si, müxbir üzvlərindən isə 9-u qadındır.

Azərbaycan qadınları ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edir və onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi, ilkin məlumatlara əsasən, 48,3 faiz təşkil edir. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 28, fərdi sahibkarlar arasında isə 22 faizdir.

Milli Məclisdə qadın deputatların sayı da artır. Əgər 1990-cı ildə bütün deputatların 4,3, 2000-ci ildə 10,7 faizini qadınlar təşkil edirdisə, bu gün ölkədə qadın deputatların xüsusi çəkisi 18,6 faizə çatıb.

Diqqəti cəlb edən faktlardan biri də nəqliyyat vasitələrinin idarə olunması üçün sürücülük vəsiqəsi alan qadınların sayının ildən-ilə artmasıdır. Belə ki, sürücülük vəsiqəsi alanların ümumi sayında qadınların xüsusi çəkisi 2008-ci ildə 4,6 faiz olduğu halda, 2022-ci ildə 11,8 faizədək artıb.

Beləliklə, Azərbaycan qadınları ölkənin həm sosial-iqtisadi, həm də ictimai-siyasi həyatında fəal iştirak edirlər.

***"Azərbaycan"***

# 8 Mart Beynəlxalq Qadınlar Günüdür

Deyirlər, uğurlu insan olmaq üçün hər şeyin ovcunda olmasına lüzum yoxdur. Əgər möhkəm iradəyə sahibsənsə, səbirlisənsə, risk etməkdən qorxmursansa, deməli, uğur sənin yol yoldaşın ola bilər. Həmsöhbət olduğumuz üç bacının da bütün çətinliklərə, həyatın onları sıxmasına baxmayaraq, ayaqda dik durub uğur qazanmaları məhz bunun sayəsində mümkün olub.



## Vəhşətdən işıqlı sabaha

### Xocalı qətliamından sağ qurtulan üç bacının acılı-şirinli həyat hekayəsi var

Onlar keçmiş məcburi köçkün ailəsindəndirlər. Bu həyatı yaşayanlar bilir. Öz isti ocağından bir gecədə didərgin düşmək, illərlə elinə, obasına həsrət qalmaq, çətin şəraitdə böyümək, faciənin travması, yarıda qalan uşaqlıq, ata qayğısından məhrum olaraq böyüməyin acısı...

Həyat mübarizləri sevər. Çətinliklərə sinə gərib savaşanlara, öz məqsədinə, amalına çatmaq uğrunda var gücü ilə çalışanlara yol açar. Lap elə Aliyə, Aynur və Aygünə açılan işıqlı yollar kimi...

Uşaqlıqdakı travmaları və məcburi köçkün həyatları onları oxumaqdan, ali təhsil almaqdan yayındırmayıb. Psixoloji sarsıntılara rəğmən anaları Şəfiqə xanımın məsləhəti, nəsihətləri ilə hər biri ali təhsil alıb, bir işə yiyələnib.

### Uşaqlığımız öldü, özümüz isə yaşadıq...

Evin böyüyü, həmin ağrılı-acılı günlərin hər anını xatırlayan Aliyə Abışovanın Xocalıdan çıxanda 10 yaşı olub. Deyir ki, hər şeyi yaxşı xatırlayır. Atışma başlayan gecə zirzəmiyə endiklərindən bir gün sonra, fevralın 26-sı axşam saatlarında Xocalıdan çıxa biliblər. Ermənilərin təqiblərindən, bir ananın üç qızı ilə üç gün qarlı, çovğunlu havada meşədə çətinliklə uzun yol qət etməsindən sonra, nəhayət, Ağdama çata biliblər.

"Uşaqlığımız öldü, özümüz isə yaşadıq. Mən və mənim yaşıdlarımın bioqrafiyasında uşaqlıq qrafamız həmişə boş qalacaq", - deyir Aliyə xanım.

Aliyə elə həmin üç gününün içində böyüyür. Ermənilərin vəhşiliklərini, meşədə meyitlərin üzərindəki işgəncələri görür, sinif yoldaşlarının, müəllimlərinin, yaxınlarının qətlinə şahidlik edir: "Anam balaca bacımı belinə bağlamışdı. İkimizi isə növbə ilə qucağına götürürdü. Başıaçıq, ayaqyalın idik, corab da cırılıb ayağımdan çıxmışdı. Yolun yarısına kimi gəlmişdim, ayağımı artıq hiss etmirdim. Sonra donmuşam. Anam mənim öldüyümü bilib meyitimi daşımışdı...

Ağdamda məni xəstəxanaya ölü kimi veriblər, amma kimsə qəflətən nəfəsimin gəldiyini görüb sağ olduğumu bildirib. Məni Bakıya göndərib xəstəxanaya yerləşdiriblər, uzun müddət müalicə almışam. Amma ayaqlarımda hissiyyat olmayıb. Həkimlər ayaqlarımı kəsmək qərarına gəliblər, çünki qaralma baş vermişdi. Elə həmin gün ayağıma iynə batıranda hissiyyat olduğunu görüblər. Xəstəxanada bayram abu-havası yaşanıb".

Aliyə o vaxt hamının niyə sevindiyini anlamasa da, anası sonra ona vəziyyətin ağırlığını izah edib. Onlar bir neçə ay Bakıda qaldıqdan sonra xocalıların məskunlaşdığı Naftalan şəhərinə gediblər.

Aliyə VI sinfə Naftalan məktəblərinin birində məcburi köçkünlər üçün ayrılmış sinifdə təhsil almağa başlayıb. O deyir ki, təhsil aldığı illər də o qədər asan keçməyib: "İstər I sinfə gedəndə, istər digər illərdə çox ağır şəraitdə oxumuşuq. Məktəbə qədəm qoyduğum anlardan başımızın üstünü qara buludlar aldı. Erməni vəhşiləri torpaq iddiasına düşüb savaşa başladı. Sonra Xocalı faciəsi, məcburi köçkünlüyün ağrı-acısını yaşadıq. Bu adı körpə ürəyimizdə daşıyaraq təhsilimizi davam etdirdik. "Yurdumuza qayıdacağıq" deyə-deyə oxuduq. Bir otaqda həm yeyir, həm yatır, həm də dərsimizi öyrənirdik. Qarşımıza məqsəd qoymuşduq ki, təhsil almalıyıq. Anlayırdıq ki, bu vəziyyətdən bizi ancaq təhsil çıxara bilər".

Ailənin ilk övladı olaraq o düşünür ki, mütləq ali təhsil almalı, bacıları da onun davamçısı olmalıdırlar. "Evdə sanki körpünü mən qoyurdum, Aynurla, Aygün də bu yolu keçməli olurdu. Bütün çətinliklərə baxmayaraq, üçümüz də ali təhsil aldıq", - deyə qürurla bəhs edir A.Abışova.

Aliyə iş həyatına atılandan sonra da uğurlar qazanır. O, 2017-ci ildə Təhsil Nazirliyi (Elm və Təhsil Nazirliyi) tərəfindən fəxri fərmanla təltif olunur. 2018-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülür. 2020-ci ildə Həmkarlar Komitəsi tərəfindən döş nişanına, elə həmin ildə beynəlxalq təhsil eksperti layihəsinə qoşularaq, bu adı qazanır. 2022-ci ildə isə Regional Qarabağ Təhsil İdarəsinin rəhbərliyi tərəfindən yenidən fəxri fərmanla təltif olunur.

Aliyə Abışova ailəlidir, üç övladı var. O, övladlarının da təhsil almasına çalışır. İki övladı hazırda universitetdə oxuyur, biri isə məktəblidir.

### Yarımçıq qalan ilk sinif, Xocalını layiqincə təmsil etmək arzusu

Ortancıl bacı Aynur Abışovanın isə Xocalı soyqırımı zamanı 7 yaşı olub. Məktəb həyatına başlamasından 5 ay keçmiş məlum hadisələrdən dolayı təhsilini Xocalıda tamamlaması mümkün olmur. Daha sonra o da Naftalanda məcburi köçkünlər üçün ayrılan məktəbdə oxuyur. 2001-ci ildə orta məktəbi bitirən Aynur Bakı Dövlət Universitetinin fizika müəllimliyi ixtisasına qəbul olunur.

Aynur Abışova deyir ki, anası onların təhsilinə hər zaman çox önəm verib: "Çətin şəraitdə yaşamağımıza baxmayaraq, biz - üç bacı ali təhsil aldıq. Universiteti bitirdikdən sonra Xocalı 1 saylı tam orta məktəbində fizika müəllimi kimi fəaliyyətə başladım".

Daha sonra Xocalı Rayon İcra Hakimiyyəti Aparatında İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi vəzifəsinə təyin edilən Aynur 2015-ci ildə Yeni Azərbaycan Partiyasının Xocalı rayon Gənclər Birliyinin sədri seçilib. "Ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakıma görə dövlət tərəfindən dəfələrlə fəxri fərmanlarla təltif olunmuşam", - deyir A.Abışova.

O, Türkiyə, Almaniya, Belçika və bir sıra ölkələrdə Xocalı faciəsinin tanıdılması ilə bağlı layihələrdə Azərbaycanı təmsil edib.

2018-ci ildə təhsilini artırmaq üçün Prezident yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və bələdiyyənin idarə edilməsi fakültəsinə daxil olub.

### "Böyüdükcə təhsilin nə qədər vacib olduğunu anam bizə xatırladırdı"

Evin sonbeşiyi Aygün İsmayılova isə həmin dəhşətdən anasının qucağında qurtulsa da, sanki hər şeyi xatırladığını söyləyir. Axı, deyirlər, körpələr də hiss edə, duya bilir ətrafındakıları.

1 yaş 7 aylığında doğulduğu ata yurdundan ayrı düşən Aygün bildirir ki, hər gün evlərində Xocalıdakı günlər, faciə anılır: "Xocalıdan çıxanda atamı itirmişdik. Atam orada şəhid oldu. Anam və iki bacımla məşəqqətli yol gələrək xilas olmuşuq. Xocalıdan meşəni keçərək çox çətinliklərlə gəlib çıxmışıq. İlk məskunlaşdığımız yer Naftalan olub. Mən Naftalanda böyümüşəm".

Naftalanda məcburi köçkünlər üçün ayrılan binada məskunlaşıb ailə. Aygün belə xatırlayır: "O qədər də əlverişli şərait olmayan "obşitel" idi. İlk təhsilimi Naftalan şəhərində yerləşən Xocalı 1 saylı orta məktəbində almışam. Bu məktəb Naftalan şəhər məktəbinin tərkibində idi. Məcburi köçkünlər üçün günorta növbəsi təşkil edilmişdi".

Çox çətin şəraitdə dərs keçdiklərini deyir Aygün. O, bildirir ki, sinifdə faciəyə görə travma alan, çətinliklərlə üzləşən uşaqlar olsalar da, onlar oxumaq, təhsil məsələsində daim rəqabət aparıblar. Ancaq Naftalandan çıxmaq, xaricdə təhsil almaq barədə düşünürlərmiş. "Sinifdə kim daha çox balla ali məktəbə girəcək, hansı universitetə daxil olacaq" kimi məsələləri müzakirə edib, yaxşı mənada mübahisə edirdik. Yaşadıqlarımız, aldığımız travmalar bizim oxumağımıza mane ola bilmədi", - deyir A.İsmayılova.

O, 2007-ci ildə Azərbaycan Pedaqoji Universitetinə Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə qəbul olunur: "Universiteti bitirdikdən sonra Xocalı rayon Meşəli kənd tam orta məktəbində üç il müəllim işlədim. Daha sonra dörd il Xocalı rayon təhsil şöbəsində baş məsləhətçi kimi çalışdım. Hazırda Gəncə Ağır Cinayətlər Məhkəməsində dəftərxana müdiri işləyirəm. Ailəliyəm, iki qızım, bir oğlum var. Yoldaşım Xocalı rayon polis şöbəsində çalışır".

Aygün deyir ki, təhsil həyatına atılmalarında anasının böyük rolu olub. "Təhsilin nə qədər vacib olduğunu anam bizə hər dəfə xatırladırdı. Mövzumuz təhsil idi, oxumağa həvəsli idik. Buna görə üçümüz də ali təhsil aldıq", - deyə vurğulayır.

Aygün kiməsə, xüsusən uşaqlara məcburi köçkün həyatı, evindən ayrı düşməyi arzulamır: "Günorta növbəsində məktəbə gedəndə səhər çıxanların bizə baxışlarını unutmuram. Qaçqınlar gəldi kimi sözlər hələ də hafizəmdədir".

Üç xocalılı qız uşaqlıqlarını elə Xocalıda qoyub gəlsələr də, gələcəyə ümidlərini itirməmişdilər. Onlar hər şeyə rəğmən Şəfiqə ananı arzusuna çatdırmışdılar. Hər biri ali təhsil almış, iş sahibi olmuş və ən əsası, Vətənimizə layiq övlad kimi yetişmişdi. İndi onların övladları - Şəfiqə nənənin nəvələri də bu işıqlı yollarda addımlayırlar.

Qızların təhsilinə böyük önəm verən xeyriyyəçi, Şərqdə ilk qızlar məktəbinin yaradıcısı Hacı Zeynalabdin Tağıyevin dediyi kimi: "Bir oğlana təhsil verməklə təhsilli bir insan qazanırsınız. Bir qıza təhsil verməklə isə təhsilli bir ailə..."

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Əlillik uğura gedən yolda əngəl deyil

### Yaradıcı gənc Cəmilə Məmmədlinin həyat yolu bunu təsdiq edir

O, özünü məşhur fransız yazıçısı Onore de Balzakın "Vadidəki zanbaq" əsərindəki Natali de Manervilə bənzədir... Bunun səbəbini isə həmin obrazın hadisələri düzgün təhlil etmək və həqiqəti çəkinmədən demək bacarığı ilə izah edir. Doğrudan da, gənc yazıçı və aktrisa Cəmilə Məmmədli hadisələrə olan münasibətinə səmimi duyğularını da qatmasına baxmayaraq, yekunda rasional qərar verməsi ilə çoxlarından fərqlənir. Həmin xüsusiyyətlərinə görə onunla nəinki Natali de Manervil, digər film və roman qəhrəmanları arasında paralellər aparmaq mümkün olsa da, Cəmilə öz gözəlliyi və saflığı ilə daha çox vadidəki bəyaz zanbaqlara bənzəyir.










Otuz yaşlı Cəmilə Məmmədli hazırda rəqəmsal marketinq sahəsində çalışır. Sağlamlıq məhdudiyyətli olduğuna görə uzun illərdir ki, təkərli oturacaqdan istifadə edir. Ədəbi yaradıcılığa isə lap erkən başlayıb. İlk hekayəsini 8 yaşında qələmə alıb, 16 yaşında isə yazdığı hekayələri sosial şəbəkədə paylaşaraq özünə oxucu auditoriyası toplayıb. Müəyyən kompleksləri olsa da, şikayətlənməyi və təslim olmağı qətiyyən sevmir. O, hər gün oxuyur, öyrənir, inkişaf edir və öyrəndiklərini bölüşür. Bu mənada Cəmiləni həm də bir tərbiyəçi hesab etmək olar, necə deyərlər, ən yaxşı tərbiyə elə ən gözəl nümunədir. Cəmilə Məmmədli müasir dünyamızda əlilliyin əngəl olmadığına inanan, cəmiyyətə inteqrasiya etməyi bacaran və bunun mümkünlüyünü sübut edən nümunəvi gənclərdən biridir.

### 1800-ə yaxın kitab oxuyan Cəmilənin səhnə ilə ilk tanışlığı

Cəmilə uğurlarının sirrini həm də bəzən ruh düşkünlüyü yaşasa da, bunu normal emosional hal kimi qəbul etməsində görür. O, hesab edir ki, arada kədərlənmək, lap elə ağlamaq da insanın xeyrinədir. Təbii ki, gənc yaşlarında belə yetkin düşüncəyə sahib olmasında onun oxuduğu kitabların da rolu əvəzsizdir. Axı Cəmilə, özünün dediyinə görə, indiyə qədər nə az, nə çox - 1800-ə yaxın kitab oxuyub...

Müsahibimiz qeyd edir ki, ədəbiyyata maraq onu müxtəlif xarici ədəbi nümunələri tərcümə etməyə, hekayələr və povestlər yazmağa sövq edib. O, 12 hekayə və bir povestdən ibarət "Qonşu evin işıqları" kitabının müəllifi, "Bilgənin macəraları" uşaq kitabları seriyasının isə həmmüəllifidir. Aktrisa kimi ilk fəaliyyətə başladığı inklüziv ƏSA teatrı ilə tanışlığı isə 2018-ci ilə təsadüf edir.

"Uzun müddət fəaliyyətini sosial mediadan izlədiyim, aktyoru yox, sadəcə tamaşaçısı olmağı arzuladığım teatr idi. Təsadüfən teatrın təsisçisi ad günümlə bağlı təbrikindən sonra mənə yeni tamaşada rol oynamağı təklif etdi. Sürpriz oldu və əlbəttə ki, razılığa gəldik. Məşqlərə başladıq, çox uzun və zəhmətli öyrənmə prosesindən keçdim. ƏSA teatrının aktrisası kimi 5 tamaşada rol oynadım, ölkəmizin bir çox səhnəsində dəfələrlə çıxış etdim. İşlərimlə əlaqədar olaraq ötən ilin teatr mövsümünün sonunda ƏSA-dan ayrıldım. Hazırda isə teatrın sadiq tamaşaçısıyam", - deyə Cəmilə bildirir.

### İnklüziv mühit əngəlləri aradan qaldırır

Cəmilə "sizcə, fiziki məhdudiyyətli insanların cəmiyyətə adaptasiya olunmasına əsas əngəl nədir?" sualımıza özünəməxsus tərzdə cavab verdi. "Adaptasiya yeni mühitə daxil olmuş canlının həmin yerə uyğunlaşmasını ifadə edir. Yəni cəmiyyət əlilliyi olan şəxslər üçün yeni mühit olmamalıdır. Fiziki məhdudiyyətli şəxslərin müəyyən çətinliklərlə üzləşmələrinin səbəbi cəmiyyətdə bu məsələyə "adaptasiya" kimi yanaşılmasıdır. Əslində, problem adaptasiyada deyil, əlilliyi olan şəxsləri hətta yetkin yaşlarında belə adaptasiya problemi ilə üz-üzə qoyan inteqrasiya yoxluğundadır. İnteqrasiya isə inklüziv mühitlərdə əldə oluna bilər. Yəni əlilliyi olan şəxslərin digərləri ilə eyni ortamda fəaliyyəti vacibdir", - deyə müsahibimiz sualı cavablandırır.

Cəmilə əlavə edir ki, bu problemin kökü əlilliyi olan şəxslərin hələ uşaq yaşlarından etibarən düzgün tərbiyə olunması ilə bağlıdır: "Burada ailə və təhsil faktoru mühümdür. Məsələnin həllinə kökündən başlamaq lazımdır. Bu problemi yetkin, əslində, iş-güc sahibi olmalı yaşda əlilliyi olan şəxslər üçün müxtəlif kurslar, inklüziv olmayan, sırf fiziki məhdudiyyətlilər üçün nəzərdə tutulmuş məkanlar yaratmaqla həll etməyə çalışmaq nəticə verməz. Ona görə də bütün cəmiyyətlərdə inklüziv mühit yaradılmalıdır".

Gənc xanım həm də Bakı Metropoliteninin "Əlçatan metro" layihəsinin fəal iştirakçısı olub. O, əməkdaşlıq etdiyi bu layihə əsasında, metronu əlilliyi olan şəxslərə daha əlçatan etmək üçün öz tövsiyələrini verib, sınaqlarda iştirak edib. Həmin layihə sayəsində mükəmməl olmasa da, optimal həll təklif edilib: təkərli oturacaq istifadəçiləri, görmə məhdudiyyətlilər, ahıllar və çətinliyi olan digər şəxslərin metrodan istifadəsini asanlaşdırmaq məqsədilə qaynar xətt yaradılıb. Cəmilənin sözlərinə görə, sözügedən layihə beynəlxalq aləmdə də maraqla qarşılanıb. "Əlçatan metro" layihəsi əsasında hazırlanmış kadrlar BMT-nin İnkişaf Proqramının "For Tomorrow" sənədli filminə daxil edilib. "Həmin sənədli filmdə yaşadıqları ölkələrin cəmiyyətlərində hansısa bir problemi həll etmək üçün sadə, lakin dayanıqlı innovasiyalar təklif edən şəxslər haqda hekayələr yer alıb. Filmə çəkilmək üçün 150 ölkə arasından cəmi 8 ölkə üzrə 8 layihə seçilib. Onlardan biri də mənim "Əlçatan metro" layihəsindəki rolumdur. Həmin sənədli filmin ölkəmizdə də təqdimatı baş tutub", - deyə müsahibimiz bildirib.

### "Prezidentlə görüş məni daha da ruhlandırdı"

Cəmilə Məmmədli ötən il fevralın 2-də Prezident İlham Əliyevin də iştirak etdiyi Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunun iştirakçısı olub. Həmin görüşü unudulmaz anlarından biri kimi xatırlayan Cəmilə fəaliyyətini ondan sonra daha da həvəslə davam etdirdiyini bildirdi: "Sözün açığı, Prezidentlə görüşə dəvət alacağımı gözləmirdim. Həmin günlə bağlı çox xatirələrim var. Lakin mənim üçün ən vacib olanı Prezidentin mənim sualıma əhatəli cavabı idi. Cənab İlham Əliyevin inklüziv cəmiyyət haqqında belə dərin bilgiyə sahib olması məni heyrətləndirdi. Prezident bu məsələnin nə qədər əhəmiyyətli olduğunu, inklüzivliyin mədəniyyətimizdə yerini vurğuladı. Bu haqda mənə çoxları deyirdi ki, onlar həmin görüş yayımlanana qədər inklüziv, yəni hər kəsə bərabər fürsətlərin verildiyi məkanlar haqqında məlumatlı deyilmişlər. Elə ondan sonra inklüziv barədə araşdırmağa və öyrənməyə başlayıblar".

Müsahibimiz onu da qeyd edib ki, Prezidentə sual verəndə çox həyəcanlı olub: "Məndən əvvəl sual verən gənclərdən fərqli olaraq, sözümə Prezidenti salamlayaraq başladım. Əslində, bəlkə elə doğru olan da bu idi, amma mən çox həyəcanlı olduğum üçün necə davranacağımı bilmirdim. Amma Prezident İlham Əliyevin də məni salamlaması həyəcanımı aradan qaldırdı. Görüşdən sonra özümü daha motivasiyalı və inamlı hiss edirdim".

Əlillik işıqlığa gedən yolda yalnız epizod ola bilər. Cəmilənin həyat hekayəsi də göstərir ki, fiziki məhdudiyyətli olmaq uğur qazanmaq üçün əngəl deyil.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bakıda Azərbaycanla İordaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi qeyd olunub

Martın 7-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası ilə İordaniya Haşimilər Krallığı arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibətilə tədbir və sərgi keçirilib.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Xarici İşlər Nazirliyinin rəhbər heyəti, İordaniya Haşimilər Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri, bir çox ərəb ölkələrinin səfirləri və əməkdaşları, İordaniya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri və digər qonaqlar iştirak ediblər.

Tədbirdə çıxış edən xarici işlər nazirinin müavini Fariz Rzayev 30 il ərzində iki ölkə arasında qarşılıqlı hörmət və etimada əsaslanan səmərəli əməkdaşlıq əlaqələrinin müxtəlif sahələrdə yüksələn xətt üzrə inkişaf etdiyini, bu prosesdə rəsmi səfər mübadilələrinin, habelə beynəlxalq təşkilatlar, xüsusilə BMT və İƏT çərçivəsində əməkdaşlığın mühüm rol oynadığını vurğulayıb. 1994-cü ildə Mərakeşin Kasablanka şəhərində keçirilən İƏT-in Zirvə görüşündə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və İordaniya Kralı Əl-Hüseyn İbn Talal arasında baş tutmuş tarixi görüşün Azərbaycan-İordaniya münasibətlərində yeni səhifə açdığı vurğulanıb.

Nazir müavini bu illər ərzində dövlət başçılarımızın müdrik siyasəti və möhkəm iradəsi sayəsində təşəkkül tapmış dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da inkişaf edərək dost ölkələrimiz və qardaş xalqlarımızın mənafeyi naminə fayda və tərəqqi gətirəcək şəkildə inkişaf edəcəyinə inam ifadə edib.

İordaniya Haşimilər Krallığının ölkəmizdəki səfiri Sami AsemĞoşeh İordaniya ilə Azərbaycan arasında iki qardaş xalqı birləşdirən dini, mədəni və tarixi bağlara əsaslanan sıx əlaqələrin mövcud olduğunu bildirib. Bu əlaqələrin əsasının mərhum Kral Hüseyn binTəlal və mərhum Prezident Heydər Əliyev tərəfindən qoyulduğu vurğulanıb.

İkitərəfli əməkdaşlıqla yanaşı, ölkələrimiz arasında çoxtərəfli platformalarda da səmərəli əməkdaşlığın mövcud olduğunu diqqətə çatdıran səfir iki ölkə arasında iqtisadi əməkdaşlıq, ticarət mübadiləsinin həcminin artırılması, investisiyaların qoyulması, habelə turizm sahələrində reallaşdırılmış intensiv mübadilələrdən danışıb.

Tədbirin sonunda iştirakçılar Azərbaycan və İordaniya Haşimilər Krallığı arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

# Baş Prokurorluqda Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib





Martın 7-də Baş Prokurorluqda 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.

Prokurorluqdan AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edən baş prokuror Kamran Əliyev qadın prokurorluq işçilərini, dövlət qulluqçularını və veteran xanımları bayram münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzu edib.

Bildirilib ki, Azərbaycanda qadınların hüquqlarının qorunması, onların ictimai fəallığının təşkilinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmaqla uğurlu dövlət-qadın, gender bərabərliyi siyasəti ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Xüsusi vurğulanıb ki, ölkəmizin tərəqqisində və əldə olunan uğurlarda, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında dövlət başçısı İlham Əliyevin ən sadiq silahdaşı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın zəngin və yorulmaz fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Tədbirdə ölkəmizdə qadınların hüquqlarının yüksək səviyyədə qorunduğu, qadınlarımızın yüksək postlarda, qeyri-dövlət strukturlarında ölkəmizin maraqlarının təmsili istiqamətində fəaliyyətləri ilə seçildikləri qeyd edilməklə prokurorluq orqanlarında da aparılan kadr siyasəti zamanı gender bərabərliyi prinsipinin rəhbər tutulduğu diqqətə çatdırılıb.

Xanımların dövlətimizin, o cümlədən təmsil etdikləri qurumların inkişafında xüsusi rola malik olduğunu bildirən baş prokuror qadın prokurorluq əməkdaşlarının dövlətçilik naminə xidmətlərinin önəmini vurğulayıb.

Qeyd edilib ki, son 3 ildə prokurorluq orqanlarına işə qəbulla bağlı elan edilmiş müsabiqələr nəticəsində ümumilikdə 31 qadın işə qəbul edilməklə hazırda prokurorluqda işləyən qadın prokurorluq işçiləri kadr korpusunun təxminən 8 faizini təşkil etməklə onlardan bir çoxu vəzifədə irəli çəkilib, o cümlədən ilk dəfə olaraq idarə rəisi və rayon prokuroru vəzifələrinə təyin olunmaqla prokurorluğun fəaliyyət istiqamətləri üzrə qarşıya qoyulmuş vəzifələrin icrasını vaxtında və keyfiyyətlə həyata keçirib.

Daha sonra xidməti fəaliyyətdə fərqlənən prokurorluq əməkdaşlarına, veteran xanımlara, eləcə də insan hüquqlarının müdafiə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları və media nümayəndələrinə mükafatlar təqdim olunub.

Tədbir zamanı prokurorluqda çalışan xanım əməkdaşlarla bağlı hazırlanmış qısa film nümayiş olunub.

# Azərbaycanla Rusiya arasında humanitar və mədəniyyət sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib

Martın 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Prezidentinin beynəlxalq mədəniyyət əməkdaşlığı üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy arasında görüş keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanla Rusiya arasında humanitar və mədəniyyət sahələrində əməkdaşlıq məsələləri, regional humanitar layihələr müzakirə olunub.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə Azərbaycanın sülh quruculuğu sahəsində səyləri, bölgədə yenidənqurma işləri barədə ətraflı məlumat verib. Ermənistan tərəfinin artan təxribatlarının, sülh sazişi üzrə danışıqlarda yaratdığı çətinliklərin, bölgədə vəziyyəti gərginləşdirməyə yönəlmiş addımların sülhə maneə törətdiyi vurğulanıb.

Xüsusi nümayəndə Mixayil Şvıdkoy Azərbaycanın multikulturalizm məkanı olduğunu, Azərbaycanda keçirilən beynəlxalq forumların əhəmiyyətini xüsusi qeyd edərək mədəniyyət və humanitar sahələrdə birgə proqramların həyata keçirilməsinə hazır olduqlarını bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Füzuli şəhərində Qazaxıstan tərəfindən tikiləcək incəsənət məktəbinin təməli qoyulub

İşğaldan azad edilmiş Füzuli şəhərində Qazaxıstan Respublikası tərəfindən ianə və inşa olunacaq Kurmanqazı adına Uşaq Yaradıcılığının İnkişafı Mərkəzinin təməlqoyma mərasimi keçirilib.



Mərasimdə Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonu üzrə xüsusi nümayəndəsi Emin Hüseynov, Qazaxıstan Respublikasının Azərbaycandakı səfirliyinin siyasi məsələlər üzrə müşaviri Jandos Nurmaxambetov, layihəni həyata keçirəcək icraçı şirkət "Bİ-Group" Holdinqin Direktorlar Şurasının sədri Aydın Rahimbayev və digər səlahiyyətli şəxslər iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, layihəyə əsasən incəsənət məktəbi Füzuli şəhərində ümumi sahəsi 1,5 hektar olan ərazidə yerləşəcək. Tikinti sahəsi 2708 kvadratmetr, ikimərtəbəli binadan ibarət olacaq məktəbdə hər biri 300 nəfər olmaqla, növbəli şəkildə 600 şagirdin təhsil alması üçün lazımi şəraitin yaradılması nəzərdə tutulur. Burada şagirdlər üçün xanəndəlik sənəti, xalçaçılıq, heykəltaraşlıq və zərgərlik sənətləri, musiqi və rəssamlıq dərsləri, həmçinin qrafik dizayn təlimləri üzrə tədrisin təşkili planlaşdırılır.

Qeyd edək ki, incəsənət məktəbinin layihəsi üzrə Azərbaycan və Qazaxıstan nümayəndə heyətlərinin yer aldığı işçi qrupu yaradılıb, müvafiq görüşlər keçirilərək qarşıdakı hədəflər müzakirə olunub. Digər layihələr kimi, bu layihə də Azərbaycan ilə Qazaxıstan arasındakı ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə incəsənət sahəsi üzrə təhsilin genişlənməsinə və yaxın bölgələrdən olan istedadlı gənclərin bir araya toplanmasına öz töhfəsini verəcək.

# Fransa XİN bölgəmizdə baş verən təxribatları şərh edərkən qərəzli mövqeyini davam etdirir

Təəssüf ki, Fransa Xarici İşlər Nazirliyi növbəti dəfə bölgəmizdə baş verən təxribatları şərh edərkən qərəzli və əsassız mövqe nümayiş etdirməkdə davam edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə martın 6-da Fransa Xarici İşlər Nazirliyinin mətbuat katibinin Xankəndi-Xəlfəli-Turşsu torpaq yolunda Ermənistan tərəfinin növbəti təxribatını Azərbaycan Silahlı Qüvvələrinin polis avtomobilinə hücumu kimi qiymətləndirməsi ilə bağlı yerli media nümayəndələrinin sualını cavablandırarkən bildirib. Fransa tərəfinin beynəlxalq hüququn norma və prinsiplərinə, üzvü olduğu BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə və üçtərəfli Bəyanata uyğun olaraq Azərbaycanın suveren ərazilərindən qeyri-qanuni erməni silahlı qüvvələrinin çıxarılmasına çağırış əvəzinə, qanunsuz erməni silahlı birləşmələrini "polis" kimi təqdim etməsi və dolayısı yolla onların Azərbaycan ərazilərində təxribatlarına haqq qazandırması qəbuledilməzdir.

Fransa tərəfi anlamalıdır ki, Ermənistan tərəfinin Laçın yolunda etirazları bəhanə gətirərək alternativ yollardan istifadə etməklə qeyri-qanuni hərbi fəaliyyəti davam etdirməyə cəhd göstərməsi beynəlxalq öhdəliklərin kobud şəkildə pozulmasıdır.

Bir daha xatırladırıq ki, ərazilərimizin 30 illik işğalına son qoyulmasından sonra Ermənistan tərəfinin davam edən təxribatlarının qarşısının alınması, öhdəliklərinə zidd olaraq Azərbaycan ərazilərindən hələ də çıxarılmayan erməni silahlı qüvvələri ilə mübarizə, o cümlədən silah, sursat və minaların Azərbaycanın suveren ərazilərinə daşınmasına və istifadə edilməsinə imkan verilməməsi məqsədilə bütün zəruri addımları atmaqda qərarlıdır və bu, ölkəmizin suveren hüququdur.

# Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin nümayəndə heyəti İsraildə səfərdədir

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) rəisi general-leytenant İlqar Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti İsrail Dövlətində işgüzar səfərdədir.

XRİTDX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, martın 5-də başlayan səfər çərçivəsində nümayəndə heyəti İsrailin Milli Kiberdirektorluğu, Milli Kompüter İnsidentlərinə Qarşı Mübarizə Mərkəzi (CERT), Milli Kibertəhlükəsizlik Əməliyyatları Mərkəzi (Mərkəzi SOC), Milli Rəqəmsal Agentliyinin Hökumət Kibertəhlükəsizlik Əməliyyatları Mərkəzi, Energetika Nazirliyinin Milli Laboratoriyasını ziyarət edib. Xidmət rəisi general-leytenant İlqar Musayev həmin qurumların rəsmiləri, eləcə də kibertəhlükəsizlik sahəsində Azərbaycanda fəaliyyət göstərən "Prosol" şirkətinin rəhbərliyi ilə birgə İsrailin bu sahə üzrə aparıcı şirkətlərinin həlləri ilə tanış olub.

Görüşlərdə İsrailin informasiya-kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi sahəsində həyata keçirdiyi layihələr, əldə etdiyi elmi-texniki nailiyyətlər barədə nümayəndə heyətinə ətraflı məlumat verilib, iki ölkə arasında qarşılıqlı əməkdaşlıq istiqamətləri müzakirə edilib.

Xidmət rəisi general-leytenant İlqar Musayev görüşlərdə İsrail Dövlətinin nümayəndələrinə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin fəaliyyət istiqamətləri və gördüyü işlər barədə məlumat verib.

# Türkiyədə zəlzələ bölgəsində 3016 nəfərə tibbi xidmət göstərilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Türkiyə Respublikasında baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə qardaş ölkəyə göndərilmiş Fövqəladə Hallar Nazirliyinin (FHN) mobil səhra hospitalında zəlzələdən ziyan çəkmiş insanlara tibbi xidmət davam etdirilir.

FHN-dən AZƏRTAC-a bildirilib ki, ümumilikdə ötən müddət ərzində 655-i uşaq olmaqla 3016 nəfərə yüksəksəviyyəli tibbi xidmət göstərilib.

Hər cür müayinə və müalicə imkanlarına malik mobil səhra hospitalı fasiləsiz fəaliyyətini davam etdirir.

# Türkiyəyə humanitar yardım aparmış avtomobil karvanının bir hissəsi Bakıya yola düşüb

Fövqəladə Hallar Nazirliyinin (FHN) Türkiyəyə humanitar yardım aparmış nəqliyyat vasitələrinin bir hissəsi Bakıya yola düşüb.

Bu barədə AZƏRTAC-a FHN-in Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, qardaş ölkəyə humanitar yardım aparmış FHN-in xüsusi təyinatlı nəqliyyat vasitələrindən ibarət ilk avtomobil karvanı Bakıya yola salınıb.

Ümumilikdə 14 avtomobildən ibarət karvan martın 7-də səhər saatlarında Kahramanmaraş şəhərindən yola düşüb.



## Müasir Azərbaycan hərbçisinin gözündən heç nə yayınmır və istənilən təxribat cavabsız qalmır

# Riyakarlıq

### Qarabağdakı Rusiya sülhməramlıları erməni təxribatçılarına açıq-aşkar dəstək verir

İkinci Qarabağ müharibəsinin başa çatmasından iki ildən artıq vaxt keçir. Məğlub Ermənistanın sülh müqaviləsini imzalamaqdan hələ də yayınması bir yana, işğaldan azad edilən Azərbaycan torpaqlarında müvəqqəti yerləşən Rusiya sülhməramlı kontingentinin də üzərinə düşən vəzifəni yerinə yetirməməsi ölkə ictimaiyyətinin haqlı narazılığına səbəb olub.



Sülhməramlı qüvvələrin son günlərdə təxribatçılara dəstək verməsi, hələ üstəlik real faktları təkzib edərək uydurma "məlumat" yaymaları ciddi narahatçılıq yaradıb.

Hər kəsə bəllidir ki, Ermənistan rəhbərliyi ötən dövrdə sülhün əldə olunması istiqamətində Brüsseldə və Soçidə keçirilən görüşlərdə barışığa razı olduğunu bildirib və müqavilənin Azərbaycanın irəli sürdüyü təkliflər əsasında hazırlanmasına da etirazını bildirməyib. Amma baş verən hadisələr rəsmi İrəvanın hələ də öz çirkin əməllərindən əl çəkmədiyini göstərir. Bunu söz xatirinə deyil, faktlara əsasən söyləmək yetərlidir. Belə ki, Ermənistan rəhbərliyi üçtərəfli Bəyanata zidd olaraq silahlı bölmələrinin tör-töküntülərini hələ də Azərbaycan ərazilərindən çıxarmayıb, kommunikasiyaların açılmasını, sərhədlərin delimitasiyasını təmin etməyib. Bununla yanaşı, təcavüzkar ölkə Birinci Qarabağ müharibəsində əsir düşmüş minlərlə azərbaycanlının taleyi və kütləvi məzarlıqlar haqda məlumat verməkdən də hələ yayınır. Eləcə də Laçın yolundan təyinatına uyğun, yəni humanitar məqsədlərlə istifadə etməyərək hərbi təxribatlar da törədir. Martın 5-də Xankəndi-Xəlfəli-Turşsu torpaq yolunda baş vermiş silahlı insident də bunun əyani təsdiqidir. Hadisəyə gəlincə, Azərbaycan Ordusu operativ məlumatlar əsasında həmin yolla Ermənistandan qanunsuz hərbi daşınmalar həyata keçirən erməni hərbi birləşmələrinin nəqliyyat vasitəsini yoxlamaq məqsədilə saxlayarkən tərəflər arasında silahlı toqquşma baş verib. Azərbaycan hərbçiləri nəqliyyat vasitəsinə yaxınlaşarkən avtomobilin içərisində olan erməni silahlı dəstəsinin üzvləri tərəfindən hərbi qulluqçularımız avtomat silahlardan atəşə tutulub və nəticədə iki hərbçimiz şəhid olub, biri isə yaralanıb. Cavab atəşi ilə qeyri-qanuni erməni dəstəsinin üç üzvü məhv edilib, biri yaralanıb.

Müvəqqəti yerləşdiyi ərazidə apardığı xidmətlə bağlı günlük bülleten hazırlayan Rusiya Federasiyası Müdafiə Nazirliyi həmin gün heç bir məlumat yaymayıb. Martın 6-da isə tam təhrif olunmuş məlumat verilib.

Həmin bülletendə qətlə yetirilmiş erməni təxribatçıları, yəni silah-sursatla tam təchiz olunmuş hərbçilər "pasport və viza" xidməti həyata keçirən "polis əməkdaşları" kimi təqdim edilib. Bu yalan azmış kimi, hələ üstəlik insident nəticəsində yaralanan hərbi qulluqçularımıza Rusiya sülhməramlı kontingentinin nümayəndələri tərəfindən ilkin tibbi yardım göstərildiyi və ərazidən təxliyə edilmələri barədə uydurmalar qeyd edilib. Amma Ermənistan tərəfindən qeydə alınmış videogörüntülər açıq-aşkar bunu təkzib edir. Şəhidlərimizin və yaralı hərbçimizin ərazidən təxliyəsi hərbi qulluqçularımız tərəfindən həyata keçirilib.

Təbii ki, silah-sursatla təchiz olunmuş təxribatçını "pasport və viza" xidməti həyata keçirən polis əməkdaşları adlandırmaq, yaralı hərbçimizə kömək etmədiyi halda uydurmalar səsləndirmək riyakarlıqdan başqa bir şey deyildir.

Digər bir tərəfdən, maraqlıdır ki, "pasport və viza" xidməti həyata keçirən "polis əməkdaşları" həmin ərazidə hansı işlə məşğul imişlər?

Görünən odur ki, Azərbaycan ərazilərində müvəqqəti yerləşən Rusiya sülhməramlıları açıq-aşkar təxribatçılara dəstək verir. Onların ərazilərimizə silah-sursat daşımalarına, qeyri-qanuni hərəkətlərinə göz yumurlar və bununla da təxribatçılara himayədarlıq etdiklərini göstərirlər.

Sülhməramlıların təxribatçılara yardım etməsini təsdiqləyən faktlar matrın 7-də, yəni dünən də ortaya çıxıb. Videogörüntülər yenə də hərbi təyinatlı "Caliber" kanalında yayımlanıb. Kadrlarda Xankəndi-Xəlfəli-Turşsu torpaq yolunda qanunsuz erməni silahlı dəstələrinin hərbi daşımaları açıq-aşkar görünür. Həmçinin qanunsuz silahlı dəstələrin hərbi nəqliyyatının Rusiya sülhməramlı kontingentinin müşayiəti ilə hərəkət etdiyi yayımlanır. Kadrda Rusiya sülhməramlı kontingentinin 2 "UAZ Patriot" maşını, onun ardınca qanunsuz erməni silahlı birləşmələrinə məxsus "Ural" yük maşını və su çəni olan "KamAZ", sonda isə üzərində Rusiya bayrağı olan BTR-82A zirehli maşınının hərəkəti əks olunub.

Onu da əlavə edək ki, sülhməramlılar bundan öncə də Azərbaycana qarşı hörmətsizlik nümayiş etdirirdilər. Belə ki, Müdafiə Nazirliyi tərəfindən onlara Qarabağın yaşayış məntəqələrinin Azərbaycan toponimlərinə uyğun adlı siyahı və xəritə verilməsinə baxmayaraq, rəsmi press-relizlərdə ölkəmizə məxsus əraziləri qondarma erməni adları kimi təqdim edirlər. Bununla bağlı Azərbaycanın Müdafiə Nazirliyi iki dəfə Rusiya sülhməramlı kontingentinin komandanlığına müraciət ünvanlayıb. Bildirilib ki, sülhməramlı kontingentin rəsmi məlumatlarında yaşayış məntəqələrimizin adları uydurma erməni toponimləri ilə əvəzlənib. Nazirlik sülhməramlı kontingentin rəhbərliyini yaşayış məntəqələrimizin adlarını düzgün toponimlərlə ifadə etməyə çağırıb. Ekspertlərə görə, Rusiya tərəfi Azərbaycanı qıcıqlandırmaq və Qarabağda vəziyyəti gərginləşdirmək məqsədilə qəsdən belə addımlar atır.

Törədilən bütün bu təxribatlar həm Ermənistanın bölgədə sülhə başlıca təhdid olduğunu, həm də Rusiya sülhməramlılarının aranı qarışdırmaq, vəziyyəti gərginləşdirmək istədiyini əyani şəkildə təsdiqləyir.

Azərbaycan Müdafiə Nazirliyi isə bütün bu qanunsuzluqlara görə həm Ermənistana, həm də Rusiya sülhməramlı kontingentinə bir daha xəbərdarlıq edib. Əgər təxribatçılara göstərilən yardımlar dayandırılmasa, qanunsuz fəaliyyətin qarşısı alınmasa, Azərbaycan tərəfi bütün imkanlardan istifadə etməklə qəti zəruri tədbirlər görmək məcburiyyətində qalacaq.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Baş vermiş insident Ermənistanın növbəti riyakarlığıdır

30 ilə yaxın müddətdə torpaqlarımızı işğal edib bir milyona yaxın soydaşımızı öz dədə-baba yurdlarıdan didərgin salan, ev-eşiklərini viran qoyub xarabazara çevirən 2020-ci ilə kimi nəinki Azərbaycana, beynəlxalq hüquqa meydan oxuyan, hər məqamda "tanklarımız bu dəfə Bakıya qədər gedəcək deyib" hədyanlar yağdıran Ermənistanın hərbi-siyasi rəhbərliyi 44 günlük Vətən müharibəsindəki məğlubiyyətindən sonra ritorikanı dəyişib. Yenə "yazıq", "məzlum" cildinə girib "blokada"da qaldıqlarını, "humanitar" böhran keçirdiklərini tirajlayıb öz məkrli niyyətlərindən əl çəkmirlər.

"Erməni" sözünü eşidəndə öncə ağlımıza məkr, kələk, hiylə, xəyanət gəlir. Ermənilər hər şeyi bilə-bilə məqsədli edirlər. Tarix sübut edib ki, ermənilər hər an xəyanətə hazırdırlar. Bu millət yalnız dostuna, qonşusuna, müttəfiqinə yox, yeri gələndə özlərinə də xəyanət etməyi bacarırlar. Təki sifariş gəlsin. Təki qarşısında quyruq bulamağa "ağaları" olsun. Elə Xankəndi-Xəlfəli-Turşsu yolunda baş verən insident də ermənilərin növbəti xəyanətidir. Budəfəki hadisədə ermənilərin məqsədi onları həmişə qoruyan, himayə edən rus qardaşlarını "vurmaqdır".

Bu gün 87 gündür ki, Laçın-Xankəndi yolunun Şuşadan keçən hissəsində azərbaycanlı ekofəallar fasiləsiz etiraz aksiyası keçirirlər. Üç aydır ki, ermənilər azərbaycanlı gənclərin aksiyanı nə səbəbə keçirmələrindən, yəni özlərinin törətdikləri cinayətdən bir kəlmə də olsun danışmırlar. Amma mayası yalandan yoğurulan fitnəkar ermənilər bütün dünyaya blokadada olmaları barədə car çəkirlər. Əslində ermənilər də, onları himayə edənlər də gözəl bilirlər ki, üçtərəfli Bəyanatın şərtlərinə görə, Ermənistana humanitar məqsədlə verilmiş Laçın yolunda hər hansı məhdudiyyət tətbiq edilmir. Onların "humanitar böhran" deyib uydurduqları növbəti erməni yalanıdır. Azərbaycana qarşı aparılan qara piardır. Eyni zamanda erməni ideoloqları, Ermənistanın hərbi-siyasi rəhbərliyinin bu məkri indi daha çox Rusiyanı vurmağa yönəlib. Ən ağır günlərində Rusiyanın vasitəçiliyi ilə atəşkəsə nail olub tamamilə darmadağın olmaqdan canını qurtaran Ermənistanın Qərbdən aldığı sifarişlə Rusiyaya diş qıcadığı sirr deyil. Ermənilərin bunu etməkdə məqsədləri Rusiyanın sülhyaratma gücündə olmadığını "faş" etməkdir. Görünür ki, ermənilərə söz verib onları inandıran qüvvələr var.

Ermənilər "blokada"da olmalarını isbatlamaq üçün üç aydır ki, Laçın-Xankəndi yolundan gediş-gəliş üçün öz avtomobillərindən istifadə etmirlər. Xəstələrini Beynəlxalq Qızıl Xaç Cəmiyyətinin maşınları ilə Xankəndidən çıxarırlar. Ərzaq və zəruri olan digər lazımlı mallar isə Rusiya sülhməramlılarının maşınları vasitəsilə daşınır.

Martın 5-də baş verən silahlı toqquşma da təsadüfi baş verməyib. Bu, ermənilərin növbəti planlı təxribatı idi. Münhen Təhlükəsizlik Konfransında səslənən sərhəddə nəzarət-buraxılış məntəqəsinin yaradılması erməniləri narahat etməyə bilməzdi. Dövlətimizin başçısı bu təklifi verərkən Ermənistanın baş naziri Nikol Paşinyan da ona loyal yanaşdı. Beynəlxalq hüquq normalarına uyğun olan təklif reallaşacağı halda regionda sülh prosesi sürətlənə, tərəflər arasında münasibətlər normallaşa bilər. Hətta erməniləri himayə edən Qərb dövlətləri dövlətimizin başçısının verdiyi bu təklifi normal qarşıladılar.

Martın 5-də ermənilərin bu hadisəni törətməkdə məqsədləri Qarabağ məsələsini beynəlxalq müstəviyə keçirməyə hesablanmış bir cəhddir.

Qeyd edək ki, Ermənistan mətbuatı itkilərlə bağlı məlumat yayaraq bildirirlər ki, insident nəticəsində guya viza polisləri olan polkovnik-leytenant Armen Mayoroviç Babayan, mayor David Valeriyeviç Danielyan və leytenant Ararat Talmanoviç Qasparyan ölüb. Erməni mətbuatının yaydığı məlumatdan da göründüyü kimi, "diversantlar" yüksəkrütbəli zabitlərdir. Ermənilər öz kəşfiyyatçılarını "viza polisi"adı ilə komfilə etməyə cəhd göstərsələr də, "uğursuz" seçim etdiklərinin deyəsən fərqində olmayıblar. Düşünməyiblər ki, sual yarana bilər: istirahət günü, gizli dağ yolu ilə "blokada"da olan bir əraziyə viza polisi nə məqsədlə gedir? Viza polisi yaxşı bilməlidir ki, bir ölkənin ərazisinə qanunsuz keçərkən sərhəd pozucusu kimi başına nələr gələ bilər. Gəldi də!

Hadisədən dərhal sonra Ermənistan Xarici İşlər Nazirliyi verdiyi bəyanatla sübut edir ki, ermənilər təxribatı törətməzdən öncə onun diplomatik tərəfini də qabaqcadan götür-qoy ediblər. Baş verən insidenti əllərində dəstəvuz edən rəsmi İrəvanın bəyanatında xüsusi olaraq vurğulanır: "Mövcud şəraitdə Laçın dəhlizində və Dağlıq Qarabağda faktları araşdırmaq üçün beynəlxalq qrupların buraya gəlməsi həyati vacib məsələdir". Əsas məsələ də bundadır. Azərbaycan dəfələrlə öz ərazilərinə hər hansı bir "beynəlxalq müşahidə missiyasını" buraxmayacağını qeyd edib. Faktiki olaraq, Ermənistanın xüsusi dəvəti ilə Aİ-nin müşahidə missiyası Ermənistanda yerləşib. Ermənistanın başlıca məqsədi nə yolla olursa-olsun "beynəlxalq müşahidəçilər"i Qarabağa gətirməkdir. Belə olan təqdirdə Qarabağda sülhə nəzarətetmə funksiyası Rusiyadan Qərbə keçə bilər. Öz yolu olmayanlar üçün yolun kim tərəfindən göstərilməsi o qədər də önəmli deyil. Azərbaycan isə müstəqil dövlət olaraq öz yolunu özü müəyyənləşdirib. Münhendə də Azərbaycan Prezidenti İlham Əliyev olduqca qəti və aydın şəkildə deyib: "Sərhədlərdə nəzarət, buraxılış məntəqələri yaradılmalıdır. Torpaqlarımızda yaşamaq istəyənlər də düz yollarla gedib-gəlməlidirlər. Başqa yollarla gələnlərin aqibəti necə olduğunu bilməyənlər də bildilər".

***Elşən QƏNİYEV, "Azərbaycan"***

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Ekoaksiya 87 gündür davam edir




Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası 87 gündür davam edir.

AZƏRTAC xəbər verir ki, havanın soyuq olmasına baxmayaraq, hazırda aksiya iştirakçılarının Laçın-Xankəndi yolunda fəallığı müşahidə olunur. İştirakçılar səhər saatlarında Azərbaycanın Dövlət Himnini səsləndiriblər.

Qeyd edək ki, aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Ekoloji cinayətə son!" və sair şüarlar səsləndirirlər. Aksiya iştirakçıları tələbləri yerinə yetirilməyənədək etirazlarını davam etdirəcəklərini bildirirlər.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

# Ermənistan ordusunda cinayət faktları artıb

### Əsgərlərin döyülməsi, zorakılığa məruz qalması və hətta qidadan məhrumetmə cəzalarına məhkum edilmələri kimi məqamlar geniş yayılıb

İkinci Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələri tərəfindən darmadağın edilən Ermənistan ordusunun qalıqları da məhv olmaqdadır. Bunun əsas səbəbi əvvəlki kimi nizamnamədənkənar hərəkətlərin, digər qanunsuzluqların nəticəsində ciddi problemlər yaşanmasıdır. Qeyd edilir ki, hərbi hissələrə əsgərlərə qarşı tətbiq edilmiş davamlı və insan ləyaqətini alçaldan hərəkətlər, məsələn, döyülmə, zorakılıq halları, qidadan məhrum etmək kimi məqamlar geniş yayılıb.



O da vurğulanır ki, Ermənistan silahlı qüvvələrində zabitlər və xidmət yoldaşları tərəfindən hərbi qulluqçulara qarşı işgəncə və zorakılıq halları nadir hal deyil. Dünən Ermənistan baş prokuroru Anna Vardapetyanın rəhbərliyi ilə ölkənin Hərbi Prokurorluğunun 2022-ci il üçün gördüyü işlərə yekun vurulub. Prokurorluqdan verilən məlumata görə, müdafiə naziri Suren Papikyan da baş prokurorun dəvəti ilə yığıncaqda iştirak edib. Ermənistan baş prokurorunun müavini, hərbi prokuror Qriqor Elizbaryan 2022-ci ildə görülmüş işlərin nəticələrini və təhlillərini təqdim edib. Onun sözlərinə görə, 2022-ci il ərzində Ermənistan silahlı qüvvələrinin və digər qoşunların hərbi hissələrində 4 min 570 hadisə (2021-ci ildə 6 min 195) qeydə alınıb. Bildirilib ki, sözügedən hadisələrdən 2874-ü bədbəxt hadisə və ağır cinayətlər, 1696-sı cinayət olub, 1696 cinayətdən 1028-i hərbi, 668-i digər ümumi xarakterli olub. Qeyd edilib ki, 2022-ci il ərzində Ermənistan silahlı qüvvələrinin və digər qoşunların hərbi hissələrində 98 korrupsiya cinayəti (2021-ci ildə 213) faktı qeydə alınıb.

"4rd.am" saytı dərc etdiyi məqalədə son bir ildə orduda baş verən neqativ hallar şərh edilib və maraqlı faktlar açıqlanıb. Qeyd edilib ki, 2022-ci ildə Ermənistan ordusunda özünə qəsd hallarının sayı 25-i ötüb: "Ümumilikdə isə orduda ölən əsgərlərin sayı 70-dən çoxdur. Əgər bir əsgər öz canına qıyırsa, deməli, bunun arxasında kifayət qədər müəmmalı, şübhəli hallar var. Eyni zamanda əsgər-komandir inamsızlığı, etimadsızlığı mövcuddur və nizamnamədən kənar hallar baş verir. Valideynlər tərəfindən daxil olan şikayətlərin əksəriyyətini komandirlərin sıravi heyət üzərində zorakılıq hallarının olmasıdır. Yəni əsgərlər alçaldılırlar və döyülürlər".

Ötən ilin sentyabrında naməlum şəraitdə ölmüş müddətli hərbi qulluqçu Artur Qalustunyanın yaxınları isə Ermənistan hökuməti və parlamenti qarşısında etiraz aksiyası həyata keçiriblər. Anası 8 aylıq mübarizədən sonra yeganə oğlunun ölüm səbəblərini müəyyənləşdirməyi tələb etmək üçün Ermənistan baş naziri Nikol Paşinyana müraciət etmək qərarına gəlib.

Əsgər anası deyib ki, bir ay əvvəl deputatla görüşmək üçün Ermənistan parlamentinə gedib, lakin hakim fraksiyadan heç kim onu qəbul etməyib, hətta telefon zənglərinə cavab da verməyiblər. Vurğulayıb ki, hazırda görüşmək və məsələni qaldırmaq istədiyi yeganə insan Ermənistan baş naziridir: "Mən oğlumun niyə öldüyünü söyləmələrini tələb edirəm, səbəbini öyrənmək istəyirəm, niyə? Baş nazirin məni qəbul edib-etməyəcəyini, görüşüb-görüşməyəcəyini bilmirəm, amma bunun üçün addımlar atacam. Siçovullarla yaşayıram, uşağımın şəkillərini götürüm hara gedim, nə edim? Heç olmasa, bir otaq olsun, uşağımın şəkillərini yağışdan qoruyum".

Bunların fonunda orduda fərarilik hallarının sayının artması təbii sayılır. Hesab edilir ki, qarşıdakı dövr ərzində erməni ordusunda daha böyük problemlərin qeydə alınması qaçılmazdır.

Bu arada Ermənistanda yerli və Qarabağ erməniləri arasında ciddi münaqişə yaşanmaqdadır. Hətta iş o yerə çatıb ki, İrəvan və Ermənistanın digər bölgələrində Qarabağdan gələnləri qəbul etmək istəmirlər. Bununla bağlı gəlmələrin Ermənistan mediasında saysız şikayətləri dərc olunub.

Bütün bunlar Ermənistan ordusunda hansı vəziyyətin hökm sürdüyünü göstərməklə yanaşı, bu ölkədə vəziyyətin gündən-günə daha da gərginləşdiyindən xəbər verir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti balansında olan gəmilər üçün müxtəlif növ bayraqların satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 13 mart 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.**

***Tender komissiyası***



## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Sosial sığınacaqların inkişafına dəstək" adlı müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 30 mart 2023-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqə 31 mart 2023-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***






## OXUCULARIN NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN” *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# Pandemiya başa çatır

## Süni intellektlə ilk koronavirus dərmanı hazırlanıb

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, cari il yanvarın 30-dan fevralın 26-sına kimi 4,8 milyondan çox yeni yoluxma və 39 000-dən çox ölüm qeydə alınıb. Bu da əvvəlki 28 günlə müqayisədə müvafiq olaraq 76 və 66 faiz azdır.



Son 28 gündə koronavirus infeksiyasına ən çox yoluxma halı ABŞ-də aşkar edilib. Sonrakı yerləri Yaponiya, Çin, Almaniya və Koreya Respublikası tutur. Bu günlərdə ən çox ölüm faktı ABŞ-də qeydə alınıb. Sonrakı yerləri Çin, Yaponiya, Braziliya və Böyük Britaniya tutur.

Çin rəsmiləri COVID-19 üzərində "həlledici qələbə" qazandıqlarını elan ediblər. Buna baxmayaraq, çinlilərə xəbərdarlıq edilib ki, vəziyyət yaxşılaşsa da, virus hələ də bütün dünyaya yayılır və mutasiyaya uğrayır. Dövlət ölkədə yaşlılar üçün koronavirusa qarşı peyvənd səviyyəsinin artırılacağını da bildirir.

Koronavirusa yoluxanların sayındakı azalmanın qəti bir göstərici olmadığı, vəziyyətin yenidən qəlizləşməməsi üçün mütəxəssislər hamını məsuliyyətli olmağa çağırır. Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşünə qoşulan ÜST-ün baş direktoru Tedros Adhanom Qebreyesus qeyd edib ki, hər bir ölkə öz üzərinə düşəni etməli, gələcək pandemiyalara hazırlıqlı olmalı və pandemiyadan sonrakı bərpada iştirak etməlidir: "Postkovid dövründə hər ölkə preventiv tədbirləri gücləndirməli, sürətli şəkildə gələcək pandemiyalara qarşı mübarizəyə hazır olmalıdır. Çünki daha təhlükəsiz, sağlam və bərabər sistemlərin qurulması istiqamətində təcrübələr çox zəruridir".

ÜST rəhbəri eyni zamanda deyib ki, səhiyyə ilə bağlı yerli istehsalatın qurulması və bu sahələrə sərmayə qoyulması da olduqca vacibdir.

### İnsanlar üzərində klinik sınaqlara başlanılıb

Dünyanın inkişaf etmiş ölkələri COVID-19 pandemiyasına qalib gəlmək üçün müxtəlif elmi tədqiqatlar aparırlar. Mütəxəssislər süni intellektlə hazırlanmış ilk koronavirus dərmanının insanlar üzərində klinik sınaqlarına başlanıldığını açıqlayıblar. Qərargahı Honq-Konqda yerləşən "Insilico Medicine" "ISM3312" terapevtik məhsulunun klinik sınaqlar zamanı viral yükü və ağciyərlərdə iltihabı əhəmiyyətli dərəcədə azaltdığını bildirib.

Şirkətdən verilən açıqlamada, "ISM3312" tərəfindən hədəflənən proteazlara bənzər proteazların bütün koronaviruslarda olduğu, yəni dərmanın təkcə SARS-CoV-2-nin mövcud və gələcək variantlarını deyil, həm də digər koronavirusları hədəfləməkdə təsirli ola biləcəyi ifadə edilib.

### Azərbaycanda COVID-19-a yoluxma kəskin azalıb

Kliniki Tibbi Mərkəzin həkim-infeksionisti Aişə Kərimova bildirir ki, dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da COVID-19-a yoluxmada kəskin azalmalar müşahidə edilir: "Koronavirusa yoluxanların gündəlik sayı 20-40 nəfər arasındadır. Xəstəxanaya müraciət edənlər arasında koronavirusa yoluxanlara, demək olar ki, rast gəlinmir. Yuxarı tənəffüs yolları infeksiyalarının əlamətləri ilə müraciət edən və stasionar müalicəyə alınmış xəstələrdən götürülmüş testlərdə pozitiv nəticələrin aşkarlanması faktı çox azdır. Belə xəstələrin, adətən, qrip virusuna yoluxduqları müəyyənləşir. Yeri gəlmişkən onu da bildirək ki, influenzanın yayılma dalğasında da səngimə qeyd olunur".

A.Kərimova deyir ki, qarşıdan gələn bayram günlərində xüsusilə diqqətli olmaq lazımdır: "Novruz bayramı dövründə ailələrin bir-birini ziyarət etməsi, yığıncaqlar keçirməsi mümkündür. Bu zaman vətəndaşlar ehtiyatlı olmalı, sosial məsafəni mümkün qədər qorumalı, gigiyena qaydalarına riayət etməlidirlər. Xəstəlik əlamətləri olan şəxslərin özlərini təcrid etmələri tövsiyə olunur. Yeni il zamanı xəstəliyin Avropada geniş vüsət aldığı bir dövrdə alovlanma yaşayacağını düşünsək də, bu, belə olmadı. Ümid edirik ki, eyni halla bu bayramda da rastlaşarıq".

"Diqqətsizlik və şəxsi gigiyena qaydalarına əməl etməmək virusa yoluxmaq ehtimalını artırır. Dünyanın bir tərəfində hələ də pandemiya ocaqları varsa, üstəlik, ölkələrarası səyahətlər mövcuddursa, deməli, belə olan halda, virusun yayılmasının qarşısını yalnız birgə səylər nəticəsində ala bilərik. Xəstəliyə yoluxmuş şəxslər isə mütləq qaydada özlərini ətrafdakılardan təcrid etməlidirlər. İnsanlar sosial məsafəni qorumalı, gün ərzində gigiyena qaydalarına riayət etməlidirlər", - deyə həkim-infeksionist bildirib.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Qadın azadlığı...

## BMT-nin müxtəlif vaxtlarda qəbul etdiyi sənədlər onlar üçün geniş imkanlar açıb

Bu gün - 8 Mart Beynəlxalq Qadınlar Günü milli sərhədlərdən və etnik, dil, mədəni, iqtisadi, siyasi fərqlərdən asılı olmayaraq qadınların nailiyyətləri qeyd edilir.





Bu tarixi günün keçirilməsi ideyası ilk dəfə XX əsrin əvvəllərində, sənayeləşmiş dünyanın genişlənmə və sarsıntılar, demoqrafiya bumu və radikal ideologiyaların meydana çıxması dövrünü yaşadığı zaman yaranıb.

BMT Baş Assambleyasının 1948-ci il dekabrın 10-da qəbul etdiyi Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə uyğun olaraq gender bərabərliyi, insan haqları ilə bağlı beynəlxalq hüququn tərkib hissəsi oldu. İnsan hüquqları tarixinin bu mühüm sənədində bildirilir ki, bütün insanlar azad, ləyaqət və hüquqlar baxımından bərabər doğulurlar və hər bir insan heç bir fərq qoyulmadan, irqi, dini və ya digər statusundan asılı olmayaraq bu bəyannamədə təsbit olunmuş bütün hüquq və azadlıqlardan istifadə edir.

1970-ci illərdə beynəlxalq feminist hərəkat geniş vüsət almağa başlayanda BMT Baş Assambleyası 1975-ci ili "Beynəlxalq Qadınlar ili" elan edib və Meksikanın paytaxtı Mexikoda Qadınların Vəziyyəti üzrə ilk Ümumdünya Konfransını keçirib. Konfransın təkidli tövsiyəsi ilə 1976-1985-ci illər Birləşmiş Millətlər Təşkilatının Qadınlar Onilliyi elan edilib və onilliyin məqsədlərini həyata keçirmək üçün Könüllü İanələr Fondu yaradılıb.

1979-cu ildə Baş Assambleya qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanı (AFLK) qəbul edib və bu sənəd tez-tez qadınlar üçün beynəlxalq hüquq qanunu kimi xatırlanır. Konvensiyanın 30 maddəsi qadınlara qarşı ayrı-seçkiliyi aydın şəkildə müəyyənləşdirir və bu cür diskriminasiyaya son qoymaq üçün milli səviyyədə fəaliyyətin gündəliyini təklif edir. Konvensiya mədəniyyət və ənənələri gender rollarının və ailə münasibətlərinin formalaşmasında təsirli qüvvələr kimi göstərir. Bu sənəd həmçinin qadınların reproduktiv hüquqlarını təsdiq edən insan haqları sahəsində ilk müqavilədir.

Mexiko Konfransından beş il sonra Qadınların vəziyyəti ilə bağlı İkinci Ümumdünya Konfransı keçirilib. Yekunda qəbul olunmuş Fəaliyyət Proqramı qadınların əmlaka sahib olmaq və ona nəzarət etmək hüquqlarını, habelə varəsəlik, uşaqların qəyyumluğu və vətəndaşlığın itirilməsi ilə bağlı hüquqlarını təmin etmək üçün daha güclü milli fəaliyyətə çağırır.

1985-ci ildə Keniyanın paytaxt Nayrobidə Birləşmiş Millətlər Təşkilatının Qadınlar üçün Onilliyinin nailiyyətlərini nəzərdən keçirmək və qiymətləndirmək üçün Bərabərlik, İnkişaf və Sülh devizi altında Ümumdünya Konfransı keçirilib. O, gender bərabərliyi uğrunda hərəkatın nəhayət, həqiqətən qlobal miqyas qazandığı bir vaxtda çağırılıb. Bundan əlavə, paralel olaraq QHT Forumunda qeyri-hökumət təşkilatlarının 15 000 nümayəndəsi iştirak edib.

Bu hadisə "qlobal feminizmin yaranması" kimi xarakterizə olunub. Mexiko Konfransının məqsədlərinə tam nail olunmadığını anlayan 157 iştirakçı ölkənin nümayəndələri qadınların 2000-ci ilədək irəliləyişinə dair Nayrobi perspektiv strategiyalarını qəbul ediblər.

1995-ci ildə Çinin paytaxtı Pekində keçirilən IV Ümumdünya Konfransı Nayrobi Konfransından sonra irəliyə doğru daha bir addım olub. Onun Pekin Bəyannaməsi və Fəaliyyət Platforması qadın hüquqlarının müdafiəsi üçün konkret fəaliyyətə sadiqliyini bir daha təsdiqləyib.

2010-cu il iyulun 2-də BMT Baş Assambleyasının nümayəndələri yekdilliklə təşkilatın gender bərabərliyi, habelə qadınların hüquq və səlahiyyətlərinin artırılması məqsədlərinə doğru irəliləyişin sürətləndirilməsinə cavabdeh olan vahid qurumun yaradılmasına səs veriblər.

BMT-nin İnkişaf Proqramının 2022-2025-ci illər dövrü üçün Gender Bərabərliyi Strategiyası qeyri-sabitlik şəraitində hazırlanıb. Dünya çoxsaylı təhdidlər- böhranlar və risklər altındadır. Bunun nəticəsində narahatlıq, təşviş, qadın hüquqları və gender bərabərliyi sahəsində gözlənilmədən güclü reqres müşahidə olunur.

COVID-19 pandemiyasından sonra qadınların işlərini itirmə ehtimalı kişilərlə müqayisədə iki dəfə çoxdur.

Bununla yanaşı, təəssüf ki, böhran vəziyyətində olan ölkələrdə kəskin qida çatışmazlığından əziyyət çəkən gənc qadınların sayı son illərdə ciddi şəkildə artıb. Bu barədə BMT-nin Uşaq Fondunun (UNICEF) son hesabatında deyilir. Məlumata görə, ərzaq böhranından ən çox təsirlənən ölkələrdə kəskin qida çatışmazlığından əziyyət çəkən hamilə və laktasiya edən qadınların sayı 2020-ci ildəki 5,5 milyondan hazırda 6,9 milyona çatıb.

Hesabatda bildirilir ki, qlobal qida və qidalanma böhranından ən çox təsirlənən 12 ölkədə 6,9 milyon hamilə və süd verən qadın kəskin qida çatışmazlığından əziyyət çəkir. Bu rəqəm 2020-ci illə müqayisədə 25 faiz çoxdur.

Əfqanıstan, Burkina Faso, Yəmən, Keniya, Mali, Niger, Nigeriya, Somali, Sudan, Çad, Efiopiya və Cənubi Sudan da daxil olmaqla bu dövlətlər Ukrayna müharibəsi və həmçinin bəzi ölkələrdə davam edən quraqlıq, münaqişə və qeyri-sabitlik nəticəsində daha da şiddətlənən qlobal qida böhranının episentrini təmsil edir.

Hesabatda qeyd edilir ki, dünyada bir milyarddan çox qız və qadın qidalanma, çəki azlığı, boy qısalığı, vacib mikroelementlər çatışmazlığı və anemiyadan əziyyət çəkir ki, bu da onların həyatı və rifahı üçün dağıdıcı nəticələrə gətirib çıxarır.

Qeyd edək ki, hazırda 8 Mart Beynəlxalq Qadınlar Günü ilə yanaşı, BMT-nin qadınlarla bağlı digər rəsmi günləri də mövcuddur: Elmdə beynəlxalq qadınlar və qızlar günü (11 fevral), Münaqişə şəraitində cinsi zorakılığa qarşı beynəlxalq mübarizə günü (19 iyun), Beynəlxalq dul qadınlar günü (23 iyun), Beynəlxalq qızlar günü (11 oktyabr), Beynəlxalq kənd qadınları günü (15 oktyabr). Hər il noyabrın 25-i isə Qadınlara münasibətdə zorakılığa qarşı beynəlxalq mübarizə günü kimi qeyd olunur.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**



***2010-cu il tarixdə Şəki şəhəri 11 saylı tam orta məktəbi tərəfindən Emil Aydın oğlu Qaffarlının adına verilmiş B732830 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.***



**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin əməkdaşı Günel Quliyevaya atası

**HÜSEYN QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu, professor-müəllim heyəti və ictimai təşkilatları universitetin məsləhətçi-professoru, iqtisad elmləri doktoru

**İMRAN MEHDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Mahmud Məmmədov "Günay Bank" ASC-nin 3 saylı şöbəsinin müdiri Elvin Səfərova anası

**XƏTAİ MUSTAFA QIZI MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Günay Bank" ASC-nin rəhbərliyi və kollektivi bankın 3 saylı şöbəsinin müdiri Elvin Səfərova anası

**XƏTAİ MUSTAFA QIZI MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5172**
**Sifariş 628**

**Qiyməti 40 qəpik**